Xalqın qəzeti!

# Xalq qəzeti

№ 45 (30739) 28 fevral 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Azərbaycanın Afrika dostları çoxalır

### Qvineya-Bisau Prezidentinin Azərbaycana rəsmi səfəri

### Bakıda rəsmi qarşılanma mərasimi olub



**Azərbaycan Respublikasında rəsmi səfərdə olan Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalonun fevralın 27-də Bakıda rəsmi qarşılanma mərasimi olub.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Qvineya-Bisau Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Qvineya-Bisau Prezidenti Umaru Sisoku Embalonu qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Qvineya-Bisau Prezidentinə raport verdi.

Qvineya-Bisau Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Qvineya-Bisau Prezidenti Umaru Sisoku Embalonun qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.





## Azərbaycandan Afrikaya mötəbər əməkdaşlıq körpüsü salınır



**“Biz Afrika qitəsinin ölkələri ilə fəal işləyirik... Azərbaycanı Afrika İttifaqında təmsil edən səfir, eyni zamanda, ölkəmizin Efiopiyadakı səfiri funksiyalarını da yerinə yetirir. 2019-cu ildə Azərbaycan Qoşulmama Hərəkatının sədri olandan sonra Afrika ölkələri ilə Azərbaycanın münasibətləri daha dinamik olub”.**

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bu gün dünyanın elə bir ölkəsi yoxdur ki, biz onunla dostluq və tərəfdaşlıq münasibətləri qurmayaq. Kimsə bizim bu təklifimizi səmimi qarşılayaraq dost əli uzadır, kimsə tərəddüd edir. Təbii ki, hərənin öz işidir. Ancaq biz ulu öndər Heydər Əliyevin işləyib hazırladığı xarici siyasət kursundakı dostluq və əməkdaşlıq prinsiplərini əsas tutaraq öz ənənəvi siyasətimizi ümumtürk mədəniyyətinə və Azərbaycançılıq məfkurəsinə uyğun şəkildə davam etdiririk.

Xarici siyasətimizin əsas istiqamətləri bütün dünyanı əhatə edir, desək, qətiyyən səhv etmərik. Yəni yaxın qonşularımızdan, türkdilli dövlətlərdən, İslam ölkələrindən başlayaraq bütün mütərəqqi məqsədli beynəlxalq təşkilatların hamısı ilə ikitərəfli və ya çoxtərəfli əməkdaşlığımız mövcuddur. Həmin beynəlxalq təşkilatlardan biri də Afrika İttifaqıdır.

*(ardı 4-cü səhifədə)*

## ABŞ–Ukrayna: “nadir metallar” sövdələşməsi hara aparır?

Səhifə ⇨ 11

## Paytaxt qara, çovğuna “təslim” olmadı...

*Ötən illərin təcrübəsi və hazırlıq işləri şəhərin ahəngdar həyatını təmin edib*



**Son illərdə Bakıda qışın qarsız ötüşməsi şəhər təsərrüfatında, eləcə də paytaxt sakinlərində, sanki, bir arxayınlıq yaratmışdı. Şəhərin xidmət qurumları və əhali bu qışda da, olsa-olsa, oyuq küləklərin əsəcəyini, yağış yağacağını, boz ayın isə “boz” üzünü göstərməyəcəyini düşünürdü. Lakin bu dəfə belə olmadı.**

Hidrometereologiya xidmətinin məlumatları özünü doğrultdu: yağan qar havanın şaxtalı olması səbəbindən yerdə buza çevrildi. Amma bu hal ciddi hadisələrlə müşahidə olunmadı. Çünki qışın necə keçəcəyindən asılı olmayaraq paytaxt müəyyən qədər qışa hazırlaşmışdı…

*(ardı 8-ci səhifədə)*

## “Ermənistandan Ermənistana yol”?

Səhifə ⇨ 9



## USAID-in qara günləri hələ qabaqdadır




**ABŞ Prezidenti Donald Trampın Administrasiyası Beynəlxalq İnkişaf Agentliyinin (USAID) və Dövlət Departamentinin xarici yardım müqavilələrinin 90 faizindən çoxunu ləğv etməyi planlaşdırır. Bu barədə “Associated Press” (AP) agentliyi məlumat yayıb. Agentliyin əldə etdiyi memorandumda Trampın tapşırığı ilə USAID-ə ayrılan maliyyə vəsaitlərinin nəzərdən keçirilməsinin nəticələri əks olunub. Qeyd edilib ki, ABŞ dünya üzrə yardımın ümumi məbləğini, təxminən, 60 milyard dollar azaltmaq niyyətindədir. USAID-in 54 milyard dollarlıq 6 min 200 çoxillik müqaviləsindən 5 min 800-ü, eləcə də Dövlət Departamentinin 4,4 milyard dollarlıq 9 min 100 qrantından 4 min 100-ü ləğv ediləcək.**

Azaldılması nəzərdə tutulan 60 milyard dollarlıq yardım isə Ermənistanın ümumi daxili məhsulu (ÜMD) və dövlət büdcəsi ilə müqayisədə kifayət qədər böyük rəqəmdir. 2024-cü ildə Hayastanın ÜDM-nin həcmi, təxminən, 25,8 milyard dollar təşkil edib. 2025-ci ilin dövlət büdcəsinin gəlirləri 7,4 milyard, xərcləri isə 7,8 milyard dollar müəyyənləşib. Rəqəmlərin müqayisəsindən aydın olur ki, ləğv olunacaq yardımın həcmi Ermənistanın ÜDM-dən 3,1, dövlət büdcəsi gəlirlərindən 8,1, xərclərindən isə 7,8 dəfə çoxdur.

*(ardı 11-ci səhifədə)*

# Azərbaycan və Qvineya-Bisau prezidentlərinin təkbətək söhbəti



**Fevralın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalo ilə təkbətək görüşü olub.**

# Liderlərin lanç əsnasında geniş tərkibdə görüşü



**Fevralın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalo ilə lanç əsnasında geniş tərkibdə görüşü olub.**

# Prezidentlərin mətbuata bəyanatları



**Fevralın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalo mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə Azərbaycan Prezidenti mətbuata bəyanatla çıxış etdi.**

## Prezident İlham Əliyevin bəyanatı

– Hörmətli cənab Prezident, əziz qardaşım.

Əziz qonaqlar, xanımlar və cənablar.

Əziz qardaşım, xoş gəlmisiniz. Bir daha Sizə “Xoş gəlmisiniz!” deyirəm. Sizin son səfəriniz yadımdadır, noyabr ayında COP29 konfransında iştirak etmək üçün ölkəmizdə oldunuz. Mən cənab Prezidenti Azərbaycana rəsmi səfərə dəvət etdim və şadam ki, o, mənim dəvətimi qəbul etdi. Beləliklə, bu gün cənab Prezident artıq ikinci dəfədir ki, ölkəmizdədir. Bu, bizim sıx qardaşlıq münasibətlərimizin aydın təzahürüdür. Bu onu göstərir ki, biz qardaş və dost kimi həqiqətən birgə işləyirik və bunu davam etdirəcəyik.

Bu səfər tarixi səfərdir. İlk dəfədir ki, Qvineya-Bisaunun Prezidenti rəsmi səfərə gəlib. Biz artıq ikitərəfli gündəliyə aid olan mühüm məsələləri müzakirə etdik və belə razılığa gəldik ki, tərəfdaşlığımızı bütün sahələrdə gücləndirək. Siyasi münasibətlər çox yaxşıdır. Bir daha qeyd etmək istəyirəm, bunun ən yaxşı təzahürü ondan ibarətdir ki, cənab Prezident ölkəmizə ikinci dəfədir səfər edir. Beynəlxalq təsisatlarda bir-birimizi hər zaman dəstəkləyirik, bunu belə də davam etdirəcəyik. BMT və digər beynəlxalq təsisatlarda, İslam Əməkdaşlıq Təşkilatında, Qoşulmama Hərəkatında bir-birimizi dəstəkləyirik.

Biz iqtisadi sahədə belə bir razılığa gəldik ki, konkret layihələr, investisiya imkanları müəyyən edilsin. Əminəm ki, beləliklə, biz ümumi məxrəcə gəlib çıxacağıq. Çünki biz artıq bir çox ölkələrə sərmayələr yatırırıq. Əlbəttə, biz məmnun olardıq ki, konkret layihələr fürsətini nəzərdən keçirək. Biz, həmçinin hesab edirik ki, bu, müdafiə və müdafiə sənayesi sahəsində əməkdaşlıq etmək üçün fürsət yaradır. Cənab Prezident Azərbaycanın hərbi hissələrinin birində olacaq və ona, o cümlədən Azərbaycanın müdafiə sənayesi haqqında təqdimat ediləcək. Bu ola bilsin ki, bizim dostlarımız üçün maraqlı olsun.

Bir sözlə, gündəlik genişdir, ən vacibi isə odur ki, bizim sıx qardaşlıq münasibətlərimiz var, beynəlxalq təsisatlarda bir-birimizi dəstəkləyirik və biz konkret layihələri icra etmək istəyirik. Çünki siyasi münasibətlər bunun üçün bir platforma kimi xidmət edir.

Ümid edirəm ki, əziz qardaşım, Siz bir daha ölkəmizə gələcəksiniz. Həmçinin cənab Prezident məni öz ölkəsinə səfərə dəvət etdi. Məmnunluqla bunu edəcəyəm və biz öz məhsuldar dialoqumuzu davam etdirəcəyik. Bir daha xoş gəlmisiniz.

*

Sonra Qvineya-Bisau Respublikasının Prezidenti mətbuata bəyanatla çıxış etdi.

## Prezident Umaru Sisoku Embalonun bəyanatı

– Çox sağ olun, əziz qardaşım Prezident Əliyev.

Bu gün burada - Bakıda olmaqdan və münasibətlərimizə yenidən nəzər salmaqdan məmnunam. Çünki xatirimdədir ki, hələ Sovet İttifaqı vaxtlarında bir çox texniki heyət üzvlərimiz burada təhsil almışdır. Sabah ilk heyətimiz buraya polis və hərbi məktəblərdə təlim üçün gələcək. Bu, bizim üçün çox vacibdir. Bu gün biz bu əlaqələri, əməkdaşlığı yeniləmək üçün buradayıq.

Əməkdaşlıq üçün sahə çoxdur - səhiyyə, təhsil, hərbi və təhlükəsizlik sahələri var. Əminik ki, bu səfər Sizi görməklə bərabər, ölkələrimiz üçün də faydalı olacaq.

Cənab Prezident, Qvineya-Bisau və Azərbaycan iki dost ölkədir, bizim amallarımız ümumidir. Bir sıra vacib məsələlər üzrə əminlik var. BMT və İƏT çərçivəsində əməkdaşlıq edirik. Biz də, siz də həmin iki təşkilatın üzvüyük.

Təkbətək görüşdə biz beynəlxalq münasibətlərə aid çox məsələləri müzakirə etdik və bir-birimizi dəstəkləməklə bağlı razılığa gəldik. Düşünürəm ki, bu, daha vacibdir. Birgə işləmək üçün hədəfləri müəyyən edə bilərik. Əl-ələ verib ölkələrimizi daha yaxın etmək üçün işləyə bilərik.

Sağ olun, cənab Prezident.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

# Türkiyə Respublikasının Prezidenti Zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

**Hörmətli cənab Prezident!**
**Əziz Qardaşım!**

Türkiyə Respublikasının ictimai-siyasi həyatında və dövlət idarəçiliyində artıq 25 ilə yaxın bir dövr ərzində müstəsna yer tutan, daim yenilənməkdə, inkişafda və yüksəlişdə olan Ədalət və İnkişaf Partiyasının Böyük Qurultayında partiyanın Sədri vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi və bütün partiyadaşlarınızı səmimi-qəlbdən təbrik edirəm.

Qurucusu olduğunuz partiyanın üzvlərinin Sizə layiq olduğunuz böyük etimadı təkrarən nümayiş etdirməsi uzun illər boyu ölkənizin rifahı və tərəqqisi, qardaş Türkiyə xalqının firavanlığı, eləcə də bütün Türk dünyasının yüksəlişi naminə yorulmaq bilmədən həyata keçirdiyiniz fədakar fəaliyyətə qədirbilənliklə verilən yüksək qiymətdir.

Bu xüsusda, Ədalət və İnkişaf Partiyasının Böyük Qurultayında müəyyən olunmuş yeni hədəflərin və qəbul edilmiş əhəmiyyətli qərarların qardaş Türkiyə xalqı üçün xeyirli və uğurlu olacağına, Türkiyəni daha da irəli aparacağına əminliyimi ifadə etmək istərdim.

Danılmaz faktdır ki, ötən illər ərzində rəhbərliyinizlə Ədalət və İnkişaf Partiyasının öz prinsip və amallarına daim sadiq qalaraq atdığı addımlar sayəsində ölkənizin dövlətçiliyi daha da möhkəmlənmiş, sarsılmaz xalq-iqtidar birliyi formalaşmış, eləcə də Türkiyə qlobal güc mərkəzinə – dünyanın ən aparıcı və qüdrətli dövlətlərindən birinə çevrilmişdir. Təsadüfi deyil ki, Siz bütün Türk dünyasında öz Vətənini, xalqını sevən müdrik və qətiyyətli lider kimi tanınır və sevilirsiniz. Dost və qardaş Azərbaycanda da Sizin uğurlarınız böyük fərəh hissi ilə qarşılanır və daim təqdir olunur.

Bu gün ortaq tariximizdən, zəngin milli-mənəvi dəyərlərimizdən və xalqlarımızın mətin iradəsindən qaynaqlanan Azərbaycan–Türkiyə qardaşlığı, birliyi və strateji müttəfiqliyi unikal xarakter daşımaqla hərtərəfli inkişaf edir, bölgədə sabitliyin və təhlükəsizliyin bərqərar olmasına töhfələr verir. Əminəm ki, bu sarsılmaz bağlar birgə səylərimizlə “Bir millət, iki dövlət” prinsipinə uyğun olaraq bundan sonra da daim möhkəmlənəcəkdir.

Əziz Qardaşım,

Bir daha Sizə, eləcə də Ədalət və İnkişaf Partiyasının hər bir üzvünə ən səmimi salamlarımı və təbriklərimi çatdırır, Sizə möhkəm cansağlığı, partiyanın işinə böyük uğurlar, qardaş Türkiyə xalqına sülh və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 fevral 2025-ci il**

# “Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi və bəzi fərmanlarının ləğvi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 10 avqust tarixli 383 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 606 (Cild I); 2024, № 4, maddə 393, № 5 (I kitab), maddə 529; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 15 yanvar tarixli 283 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı”-nın 2.2.23-cü yarımbəndində “Əmtəə, iş və xidmət bazarında inhisarçı olan” sözləri “Müvafiq bazarda hökmran mövqe tutan” sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 23 dekabr tarixli 432 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 12, maddə 844 (Cild I); 2024, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş “Dövlət müəssisəsini özəlləşdirmə komissiyasının fəaliyyəti haqqında Əsasnamə”nin 2.3-cü bəndinin ikinci abzasının ikinci cümləsində “inhisarçı təsərrüfat subyektinə aid olduqda” sözləri “müvafiq bazarda hökmran mövqe tutduqda” sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 dekabr tarixli 341 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1110 (Cild I); 2024, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası haqqında Əsasnamə”nin 2.1.7-ci yarımbəndində “inhisarçı subyektlərin məhsullarının (iş və xidmətlərinin)” sözləri “məhsulların (iş və xidmətlərin)” sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 15 dekabr tarixli 1905 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 12, maddə 1415 (Cild I) ilə təsdiq edilmiş “Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin klasterləri haqqında Nümunəvi Əsasnamə”yə 5 nömrəli əlavə – “KOB klasterinin fəaliyyətində iştirak haqqında müqavilənin nümunəvi forması”-nın 1.5-ci bəndində “antiinhisar” sözü “rəqabət” sözü ilə əvəz edilsin.

**5.** “İnhisarçı müəssisələrin və birliklərin məhsullarının (xidmətlərinin) qiymətlərinin (tariflərinin) dövlət tərəfindən tənzimlənməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 24 dekabr tarixli 377 nömrəli Fərmanı (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 24, maddə 1083; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ləğv edilsin.

**6.** “Antiinhisar fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununda dəyişikliklər və əlavələr edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 2 dekabr tarixli 647 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 6, maddə 503 (Cild I) ləğv edilsin.

**7.** “Təbii inhisarlar haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq olunmasını təmin edən əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 2 mart tarixli 446 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 3, maddə 154 (Cild I) ləğv edilsin.

**8.** “Antiinhisar fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2015-ci il 3 aprel tarixli 1250-IVQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 29 aprel tarixli 504 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 4, maddə 383 (Cild I) ləğv edilsin.

**9.** “Haqsız rəqabət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2015-ci il 3 aprel tarixli 1251-IVQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 29 aprel tarixli 505 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 4, maddə 384 (Cild I) ləğv edilsin.

**10.** “Təbii inhisarlar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2015-ci il 3 aprel tarixli 1252-IVQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 29 aprel tarixli 506 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 4, maddə 385 (Cild I) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 fevral 2025-ci il**

# Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma



**Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalo fevralın 27-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Qvineya-Bisau Prezidentini hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev və digər rəsmi şəxslər qarşıladılar.

# Qvineya-Bisau Prezidenti Zəfər parkında



**Azərbaycanda rəsmi səfərdə olan Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalo fevralın 27-də Bakıda Zəfər parkını ziyarət edib.**

Burada ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Qvineya-Bisau Prezidenti parkdakı Zəfər abidəsinin önünə əklil qoydu.

Sonra ali qonağa Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə ətraflı məlumat verildi. Bildirildi ki, ərazisi 10 hektara yaxın olan parkın girişində 44 günlük Vətən müharibəsinin rəmzi kimi hündürlüyü 44 metr, eni 22 metr, sütunlarının sayı 44 olan Zəfər tağı inşa edilib.

Xatırladaq ki, parkın açılışı 2024-cü il noyabrın 8-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə olub.

# Komando hərbi hissəsi ilə tanışlıq



**Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalo fevralın 27-də Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov və müdafiə sənayesi naziri Vüqar Mustafayevlə birlikdə Azərbaycan Ordusunun komando hərbi hissələrindən birini ziyarət edib.**

Əvvəlcə hərbi hissədə fəxri qarovul dəstəsinin müşayiəti ilə təntənəli qarşılanma mərasimi olub.

Sonra hərbi hissənin idman zalında Müdafiə Sənayesi Nazirliyinin təqdim etdiyi yeni simulyasiya vasitəsinə baxış keçirilib və hərbi qulluqçuların idman hazırlığı izlənilib.

Qonaqlar hərbi hissənin ərazisindəki qapalı atış şəhərciyi, əsgər yataqxanası, silah otağı, əşya anbarı, ideoloji iş və digər inzibati otaqlara, həmçinin yeməkxanaya gələrək burada yaradılan şəraitlə tanış olublar.

Həmçinin hərbi qulluqçuların dağ komando qülləsində və kəşfiyyat cığırında fəaliyyətləri izlənilib.

Hərbi hissədə Müdafiə Sənayesi Nazirliyinin, həmçinin "RTX" və "Improtex" şirkətlərinin istehsal etdiyi pilotsuz uçuş aparatı (PUA), silah, avtomobil və xüsusi texnika, eləcə də digər döyüş vasitələrindən ibarət sərgi nümayiş olunub.

Daha sonra nümayəndə heyətinə Azərbaycan Ordusunun istifadəsində olan silah-sursat, təchizat və döyüş texnikası təqdim edilib. Qvineya-Bisau nümayəndə heyətinə onların taktiki-texniki xüsusiyyətləri, düzgün istifadə qaydaları ilə bağlı geniş məlumat verilib.

Sonda qarşılıqlı hədiyyələr təqdim olunub və xatirə şəkilləri çəkdirilib.

# Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin xatirəsi anılıb



**Ölkəmizdə rəsmi səfərdə olan Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalo fevralın 27-də Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.**

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

Həmçinin tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin xatirələri yad edilib, məzarları üstünə gül dəstələri qoyulub.

# Qonaqlar "ASAN xidmət"də




**Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalonun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana rəsmi səfər çərçivəsində "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilə tanış olub.**

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev qonağa Prezident İlham Əliyevin təşəbbüsü əsasında yaradılmış "ASAN xidmət" mərkəzləri və sosial innovasiyalar istiqamətində həyata keçirilən layihələr barədə ətraflı məlumat verib. "ASAN xidmət" modelinin müxtəlif ölkələrdə uğurla tətbiq olunduğu vurğulanıb.

Qvineya-Bisau Respublikasının Prezidenti "ASAN xidmət"i çox əhəmiyyətli layihə kimi qiymətləndirib. O, ölkəsində belə bir konsepsiyanın mövcud olmadığını və səfərdən dərhal sonra eyni layihənin ölkəsində də tətbiqi ilə bağlı addımların atılacağını diqqətə çatdırıb.

Sonra Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Qvineya-Bisau Respublikası Prezidentinin Ofisi arasında dövlət xidmətlərinin göstərilməsi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.

Memorandum "ASAN xidmət" təcrübəsinin Qvineya-Bisau Respublikasında tətbiqini, eləcə də Dövlət Agentliyinin ekspertləri tərəfindən dövlət xidmətlərinin göstərilməsi sahəsində qabaqcıl təcrübənin qarşı tərəflə paylaşılmasını nəzərdə tutur.

Görüş çərçivəsində nümayəndə heyəti "INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzinin, Səyyar ASAN xidmətin və "ABAD" publik hüquqi şəxsin fəaliyyəti ilə də tanış olub.

***AZƏRTAC***

# Milli Məclis: Aİ–Ermənistan Parlament Tərəfdaşlığı Komitəsinin bəyanatı qərəz, yalan, böhtan aktıdır

**Azərbaycan Respublikasının Milli Məclisi Avropa İttifaqı–Ermənistan Parlament Tərəfdaşlığı Komitəsinin 2025-ci il 25 fevral tarixli bəyanatını şiddətlə qınayır, bu sənədi Avropa Parlamenti ilə Ermənistanın Azərbaycana qarşı apardığı qarayaxma kampaniyasının növbəti nümunəsi kimi qiymətləndirir.**



Bu barədə Milli Məclisinin Avropa İttifaqı–Ermənistan Parlament Tərəfdaşlığı Komitəsinin bəyanatına münasibətində bildirilib. Qeyd olunub ki, Ermənistan tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş Xocalı soyqırımının növbəti ildönümü ərəfəsində qəbul edilmiş bu bəyanat Azərbaycan əleyhinə səsləndirilmiş absurd və tamamilə əsassız ittihamlar həm Ermənistanın, həm də Avropa Parlamentinin əsl mahiyyətini bir daha ortaya qoyur.

Nəticə etibarilə, bu bəyanat Ermənistan tərəfinin Azərbaycanla danışıqlar prosesində qeyri-səmimiliyini yenidən nümayiş etdirmiş oldu. Ermənistan parlamentinin, o cümlədən Komitənin işində iştirak edən hakim partiyanın nümayəndələrinin Ermənistan rəhbərliyinin Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tanınması, habelə dövlətlərarası münasibətlərin normallaşdırılması ilə bağlı çıxışlarına birbaşa zidd olan birgə bəyanatı dəstəkləməsi bunun bariz göstəricisidir.

Digər tərəfdən, bu bəyanat Avropa Parlamentində Azərbaycana münasibətdə dərin kök salmış nifrət siyasətinin növbəti təzahürüdür. Bəyanatda Ermənistanı israrla qurban kimi qələmə verməyə çalışanlara xatırlatmaq istərdik ki, Ermənistan onilliklər boyu faşist ideologiyasını bəsləyən bir ölkədir. Bu ideologiya da onun Azərbaycana qarşı 30 illik təcavüzünün əsasını təşkil edir. İşğal dövründə Ermənistan ağır cinayətlər, o cümlədən hərbi cinayətlər, insanlığa qarşı cinayətlər və soyqırımı aktları törədib. Ermənistan etnik təmizləmə həyata keçirib və bir milyona yaxın azərbaycanlını öz doğma yurdlarından, o cümlədən Zəngəzur, Dərələyəz, Göyçə və digər ərazilərdən qaçqın və məcburi köçkün vəziyyətinə salıb. Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizini yerlə-yeksan edərək talan edib, dövlət və şəxsi mülkiyyətə milyardlarla ABŞ dolları dəyərində maddi ziyan vurub, işğal olunmuş ərazilərdə və Ermənistan ərazisində azərbaycanlılara məxsus mədəni irsi məhv edib və özününküləşdirib.

Ermənistan sonrakı rəhbərliyi dövründə hərbi cinayətlərin araşdırılması üçün heç bir addım atmayıb. Onilliklər ərzində günahsız azərbaycanlılara qarşı törədilmiş ağır cinayətlərə görə heç bir erməni məsuliyyətə cəlb olunmayıb. Bu vəziyyət səhvən demokratik və insan haqlarının müdafiəçisi kimi təqdim edilən Ermənistanın indiki hökuməti dövründə də davam etməkdədir.

Təəssüflər olsun ki, Azərbaycan ərazilərinin işğalı ilə bağlı çoxsaylı beynəlxalq sənədlərə, o cümlədən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə baxmayaraq, nə Avropa İttifaqı, nə də onun parlament strukturu heç bir zaman Ermənistana qarşı sanksiyaların tətbiqinə çağırış etməyib və bununla da faktiki olaraq, Azərbaycan ərazilərinin qanunsuz işğalının davam etməsini təşviq edib. Bu isə Azərbaycana qarşı sanksiyaların tətbiqinə səsləyən avropalı parlamentarilərdə dərin kök salmış azərbaycanofobiya meyillərini ifşa edir.

Ermənistanın onilliklər boyu Azərbaycan ərazilərini minalarla çirkləndirməsinə, ölkəmizə qarşı bu irqçi siyasətin nəticələrinin aradan qaldırılması istiqamətində əməkdaşlıqdan yayınmasına münasibətdə də Avropa Parlamentindən hər hansı bir mövqe bildirilməməsi təəssüf doğuran digər bir məqamdır. Belə görünür, avropalı parlamentarilər günahsız insanların həyatını itirməyə davam etməsini, bu minaların Azərbaycanın yalnız öz imkanları hesabına apardığı yenidənqurma və bərpa işlərinə ciddi əngəllər törətməsini dərk etməkdə acizdirlər.

Avropa Parlamenti keçmiş münaqişə dövründə itkin düşmüş 4000 azərbaycanlının taleyinə də eyni dərəcədə biganəlik nümayiş etdirir. Halbuki işğaldan azad edilmiş ərazilərdə tapılan kütləvi məzarlıqlar Ermənistanın azərbaycanlılara qarşı törətdiyi qeyri-insani hərəkətlərin miqyasını və vəhşiliyini bir daha təsdiq edir.

Avropalı parlamentarilər insan haqları, o cümlədən geri qayıtmaq hüququ haqqında danışarkən, nədənsə 1980-ci illərin sonlarında indiki Ermənistandan zorla qovulmuş təxminən 250 min azərbaycanlı qaçqının geri qayıtmaq hüququnu rahatlıqla gözardı edirlər. Sağlam məntiq Avropa Parlamentinin bu fundamental insan haqları məsələsinə ədalətli yanaşma nümayiş etdirməsini, Ermənistanı bu insanların öz ata-baba torpaqlarına qayıtması üçün lazımi şərait yaratmağa çağırmasını tələb edir. Təəssüf ki, həm Ermənistan, həm də Avropa Parlamenti iki ölkə arasında etimadın qurulmasına müsbət töhfə verəcək bu məsələni görməzlikdən gəlməyə israr edirlər. Bu cür davranış isə Avropa İttifaqının qoruduğunu iddia etdiyi liberal dəyərlərə tamamilə ziddir.

Azərbaycanın Ermənistanın konstitusiyası və digər hüquqi sənədləri ilə bağlı narahatlığı qanuni və əsaslıdır. Reallıq budur ki, Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları mövcuddur. Bu vəziyyət isə həmin ölkənin ali sənədinə zidd olan istənilən beynəlxalq sazişin qanuniliyini şübhə altına alır. Belə olan halda, Ermənistanın konstitusiyasına düzəlişlər edilməsinin zəruriliyinə dair Azərbaycanın mövqeyi heç bir halda maksimalist mövqe deyil, eyni zamanda, Ermənistanın özü üçün də, sadəcə, daxili məsələ deyil. Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tam şəkildə tanıması təmin olunmalıdır.

Aİ-nin Ermənistandakı missiyası ilə bağlı qeyd etmək lazımdır ki, bu missiya Azərbaycan tərəfinə verilən vədlərə zidd olaraq yaradılıb və Ermənistanla Azərbaycan arasında regional sabitliyin və etimadın gücləndirilməsinə dair öncədən bəyan edilmiş məqsədə xidmət etmir. Müşahidələr göstərir ki, EUMA faktiki olaraq, düşmənçilik yaymaq və əsassız azərbaycanofobiyanı qızışdırmaq üçün təbliğat vasitəsi kimi geniş şəkildə istifadə edilir. Ötən dövr ərzində bu missiya Azərbaycana qarşı qərəzini açıq şəkildə nümayiş etdirib, saxta və yalan xəbərlərin yayılması aləti kimi tətbiq olunub. Təəssüf ki, EUMA-nın təxribatçı fəaliyyəti Ermənistanı cəsarətləndirməyə davam edir və onu Azərbaycanla münasibətləri birdəfəlik normallaşdırmaq səylərindən çəkindirir. Belə fəaliyyət sərhəd boyu gərginliyi süni şəkildə artırmaq potensialına malikdir.

Aİ-nin öz qonşusunun ərazisini 30 il ərzində işğal altında saxlamış Ermənistana Avropa Sülh Mexanizmi və digər proqramlar vasitəsilə hərbi dəstək vermək qərarı isə dərin narahatlıq doğurur. Bunun regionda sülh və sabitliyə töhfə vermək səyləri ilə heç bir əlaqəsi yoxdur. Təcavüzkar ölkəyə göstərilən bu yardım regionda sabitliyi pozmağa və potensial olaraq silahlanma yarışını alovlandırmağa yönəlmiş addımdır.

Qeyd olunanları nəzərə alaraq, Aİ-nin Azərbaycan–Ermənistan münasibətlərinin normallaşdırılması prosesindəki roluna dair bəyanatda səsləndirilən iddiaların da heç bir əsası yoxdur. Aİ öz qurumlarının və bəzi üzv dövlətlərin bir sıra hərəkətləri nəticəsində bu prosesdəki rolunu itirib. Avropa Parlamenti bu məsələdə xüsusi fəallıq göstərib və beləliklə, bu məsələdə təəssüf hissi keçirməyə heç bir mənəvi haqqı yoxdur.

Bütün bunlar fonunda, Azərbaycan Respublikasının Milli Məclisi Avropa İttifaqı–Ermənistan Parlament Tərəfdaşlığı Komitəsinin tarixi faktları təhrif edən və Azərbaycanı ədalətsiz şəkildə ittiham edən qərəzli və birtərəfli bəyanatını qəti şəkildə rədd edir. Belə addımlar yalnız fikir ayrılıqlarını dərinləşdirməyə xidmət edir, sülh və barışığı təmin etmək səylərini sarsıdır. Əgər Avropa Parlamenti həqiqətən də Cənubi Qafqazda sabitliyi təşviq etməyə çalışırsa, bu qurum ötən dövrlərdəki haqsızlıqları etiraf edən, Ermənistanın revanşist siyasətini və militarizasiya cəhdlərini təşviq etməyən tarazlı və ədalətli yanaşmanı rəhbər tutmalıdır.

***XQ***

# Alma-Ata Bəyannaməsi məntiqi nəyə görə yolverilməzdir?

## *Paris – İrəvan “bacıları”nın müştərək siyasi menyusuna bəzi əlavələr*

**Fransanın İrəvandakı səfiri Olivye Dekotininin Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü 1991-ci ilin Alma-Atı Bəyannaməsi əsasında tanıdığını bildirməsi Parisin Bakı – İrəvan nizamlanmasına yeni gündəm gətirmək cəhdi kimi dəyərləndirilir. Bununla bağlı şübhələri artıran məqam Dekotini tanınmanın 2022-ci ilin Praqa sammiti zamanı baş verdiyini “yalan” adlandırmasıdır. Deməli, Fransa həyasızcasına Brüssel gündəliyini bir kənara qoyur.**



Qeyd edək ki, kollektiv Qərb Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycanın ərazi bütövlüyünün ölkəsi tərəfindən tanınmasına dair üç il əvvəlki bəyanatını sülh yolunda əhəmiyyətli addım kimi qiymətləndirmişdi. Azərbaycan ictimaiyyəti də məsələyə pozitiv yanaşmışdı. Elə isə ortaya sual çıxır: Fransa indi nə etmək istəyir?

Alma-Ata Bəyannaməsi məntiqi 2022-ci ilin Praqa sammiti ilə start götürmüş Azərbaycan – Ermənistan münasibətlərinin nizamlanması üzrə Brüssel prosesinin məhsuludur. O proses ki, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə reallaşırdı. Həmin proses çərçivəsində 2023-cü ilin mayından başlayaraq, daha bir neçə pozitiv impulslar qeydə alınmışdı. Məsələn, N.Paşinyan bir qədər də əhatəli formada bildirmişdi ki, Ermənistan Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Nikol bu bəyanatı səsləndirəndə də Alma-Ata Bəyannaməsi gündəmə gətirilmişdi. Yəni tanınmada sənədə istinad əsas götürülmüşdü. Problem ondadır ki, Paşinyan diqqətə çatdırdığımız fikirləri bildirəndə Qarabağda separatçı rejim saxlanılır, rəsmi İrəvan bölgə ermənilərinə beynəlxalq təminat məsələsini qaldırırdı. Yəni təminat ilə rejimin saxlanılmasına cəhd göstərirdi ki, bu, ölkəmizin konstitusion quruluşunu heçə saymaq idi.

Barıt çəlləyini ildırım erməni baş nazirin “Qarabağın özünün seçkili hakimiyyəti var” deməsindən sonra vurdu. Bu, 2023-cü ilin sentyabrında baş verdi. Deməli, Nikolun Azərbaycanın ərazi bütövlüyünün tanınması ilə bağlı Praqada və Brüsseldə bildirdikləri əhəmiyyətini itirdi. Bütövlükdə Ş.Mişelin vasitəçilik missiyası puça çıxdı. Daha doğrusu, məlum oldu ki, Qərb vasitəçiliyi bəlli oyun üzərində qurulub. Həmin oyuna görə, Ermənistan Qarabağdan ayrı tutulurdu. Yəni İrəvanın Azərbaycanın ərazi bütövlüyünü tanıması heç nəyi dəyişmirdi və bir növ, keçmişin təcrübəsi təkrarlanırdı. Xatırladaq ki, 1991-1993-cü illərdə Azərbaycan və Ermənistan arasındakı danışıqlarda müəyyən barış közərtiləri kimi nəzərə çarpan razılaşmalar əldə olunsa da, tezliklə atəşkəs pozulurdu. Ermənistandan bunun səbəbi soruşulanda qarşı tərəf belə deyirdi: Qarabağ ermənilərinin hərəkətləri bizlik deyil. Guya, ikincilər mübarizələrini özləri davam etdirir, İrəvanın Bakı ilə razılaşmalarına əhəmiyyət vermirlər.

Beləliklə, 2022-2023-cü illərdə Ermənistanın və havadarlarının Qərb vasitəçiliyi egidası altında Azərbaycana qarşı qurduqları oyun ölkəmizin 2023-cü ilin sentyabrında Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra tam iflasa uğradı. Azərbaycan keçmişin oyunlarını təkrarlamaq istəyənlərin planlarını öz gücü və iradəsi ilə pozdu. Rəsmi Bakı göstərdi ki, siyasi manipulyasiyalardan uzaq durulmalıdır. Ölkəmiz antiterror tədbirlərindən sonra da Ermənistanı səmimiyyətə çağırdı. Amma...

**

Bəli, indi Dekotini qırmızı-qırmızı Paşinyanın iki il əvvəl dediklərini danır. Fransanın Brüssel gündəliyini bir kənara qoyaraq, yeni gündəm yaratmağa baş vurması elə budur. Bu, Azərbaycan – Ermənistan münasibətlərinin normallaşmasını, müəyyən mənada, sıfır nöqtəsinə qaytarmaqdır. Əslində, rəsmi İrəvan da eyni xətti götürüb. Məsələn, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan 2024-cü ilin mayında “Əl Cəzirə” telekanalına müsahibəsində mövzunu “Ermənistan və Azərbaycan liderlərinin 1991-ci ilin Alma-Ata Bəyannaməsi əsasında ərazi bütövlüyünün qarşılıqlı tanınmasını təsdiqləmələri” üzərinə gətirmişdi. Hətta Bakını həmin sənədə istinaddan çəkinməkdə günahlandırmışdı.

Doğrudur, həm Mirzoyan, həm də digər erməni rəsmiləri Azərbaycanı Alma-Ata prinsiplərindən uzaq durmaqda ittiham edərkən, daha çox sərhəd amili üzərində dayanmışdılar. Yəni ki, rəsmi İrəvan həmin bəyannamə əsasında sərhədlərin delimitasiyasının və demarkasiyasının aparılmasını və bu zaman 1970-ci illərin xəritələrinə söykənilməsinin vacibliyini irəli sürmüşdü. Onu da deyək ki, Azərbaycanın bunun yolverilməzliyinə dair mövqeyi qəti idi. Fikrimizin sübutu kimi Prezident İlham Əliyevin 2024-cü il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində səsləndirdiyi bir məqamı diqqətə çatdıraq: “Onlar (Ermənistan – red) 1970-ci ilin xəritələrini əsas götürmək istəyirlər. Mən sual verəndə ki, yaxşı, niyə 1970-ci illər? Deyin, mənə izah edin, bunun hansı metodoloji əsasları var, siyasi əsasları var? Yoxdur. Əgər biz siyasi əsaslarına istinad etsək, onda istinad nöqtəsi kimi ya Azərbaycan Xalq Cümhuriyyətinin yaranması dövrünü, ya da sovetləşmə dövrünü götürməliyik. O olar siyasi metodologiya. Əgər biz xronoloji metodologiyaya üstünlük versək, onda gəlin baxaq, XX əsrin əvvəllərində xəritələr nə idi, gəlin bu xəritələr üzərində işimizi quraq. Yəni, siz 1960-cı, 1950-ci, 1940-cı illəri kənara qoyursunuz və məhz 1970-ci illərə istinad etmək istəyirsiniz. Məhz buna görə ki, bizim tarixi torpaqlarımız artıq onlara verilmişdi. Ona görə biz buna qəti surətdə etiraz etmişik və edirik. Əfsuslar olsun ki, 1970-ci illərin xəritəsini, əsas götürmək istəyən təkcə Ermənistan deyil, onun yəni, “Ermənistan plyus” qruplaşmasıdır və biz buna heç vaxt razılıq verə bilmərik”.

*

Dövlətimizin başçısının təbirincə desək, “Ermənistan plyus” qruplaşmasının katalizatoru Fransadır. O Fransa ki, Avropa İttifaqı vasitəçiliyinin patronajlığını aparırdı. Yəni, Aİ-nin barışyaratma missiyası müstəqil deyildi və bu, sonradan daha qabarıq şəkildə göründü. İndi isə Dekotininin həmin vasitəçiliyin Praqa seqmentini yaddan çıxarıb, Alma-Atı tezisinə üstünlük verməsi də fikrimizin təsdiqidir. O zaman ümumən Alma-Ata Bəyannaməsi məntiqinə nəzər salaq. Nəzər salaq və belə bir suala aydınlıq gətirməyə çalışaq: Nə üçün bəyannamə Ermənistanın və havadarlarının dilindən düşmür?

*

Bəli, heç kəs deyə bilməz ki, rəsmi İrəvan Alma-Ata Bəyannaməsini ehkamlaşdırmaqla gələcəkdə hansısa avantürist niyyətlər güdməyəcək. Axı səfir Dekotini elə-belədən Azərbaycan ərazi bütövlüyünün tanınması baxımından Praqanı “unutmaz”, Alma-Atanı yada salmazdı. Məsələ ondadır ki, Alma-Ata Bəyannaməsi 1991-ci il dekabrın 21-də imzalanıb. Həmin il dekabrın 12-də isə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində ancaq bölgənin erməni əhalisinin qatıldığı, azərbaycanlıların boykot etdikləri saxta referendum keçirilmişdi. “Referendum” vilayətin müstəqilliyi “qərarını” çıxarmışdı. Bunadək isə yəni, 1991-ci il noyabrın 26-da Azərbaycan Respublikası Ali Sovetinin qanunu ilə Dağlıq Qarabağ Muxtar Vilayəti inzibati ərazi vahidi ləğv olunmuşdu. Həmin qanuna əsasən, “Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında” Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 1923-cü il 7 iyul tarixli Dekreti və “Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında” Azərbaycan SSR-in 1981-ci il 16 iyun tarixli Qanunu qüvvədən düşmüş sayılmışdı. Deməli, dekabrın 12-dəki “referendum” mərkəzi hakimiyyətə qarşı, bir növ, üsyan mahiyyəti daşımışdı.

Digər tərəfdən, erməni millətçilərinin ötən əsrin 80-cı illərinin sonlarından başla-mış olduqları Qarabağ avantürası müstəvisində mərkəzdənqaçma meyili bir dəfə də yaşanmışdı. 1988-ci il fevralın 20-də o zamankı DQMV Xalq Deputatları Sovetinin XX çağırış növbədənkənar sessiyası “DQMV-nin Azərbaycan SSR tərkibindən Ermənistan SSR tərkibinə verilməsi haqqında Azərbaycan SSR və Ermənistan SSR Ali sovetləri qarşısında vəsatət qaldırmaq barədə” qərar çıxarmışdı. 1989-cu ilin noyabr ayında SSRİ Ali Soveti Dağlıq Qarabağ Muxtar Vilayətinin muxtariyyətliyinin ləğv edilib birbaşa Azərbaycan Sovet Sosialist Respublikasına qatılmasına dair qərar vermişdi. Lakin 1989-cu ilin dekabrın 1-də Ermənistan SSR Ali Soveti və Qarabağ Milli Şurasının birgə iclası həmin qərarı əsassız hesab edərək, Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistanla birləşdiyini açıqlamışdı.

Göründüyü kimi, Qarabağ məsələsi Ermənistanın Azərbaycana qarşı ərazi iddiasına əsaslanıb. “Referendum” və digər bu kimi gedişlər isə birləşmənin gerçəkləşməsi üçün ortaya atılmışdı. “Plana” görə, Dağlıq Qarabağ əvvəl özü müstəqil olmalı, sonra Ermənistana birləşməli, beləcə ermənisayağı “qanunauyğunluq” qorunmalı idi. Əlqərəz, 1991-ci ilin dekabrın 12-də keçirilmiş “referendum”, əslində, Azərbaycan SSR Ali Sovetinin həmin il noyabrın 26-da çıxardığı qərara qarşı atılmış əks addım idi.

*

Hazırda Ermənistanda belə fikir var ki, ölkə parlamenti Alma-Ata Bəyannaməsini müəyyən şərtlərlə ratifikasiya edib. Həmin şərtlərdən belə çıxır ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımayıb. Yəni, N.Paşinyanın bir vaxtlar səsləndirdiyi “mənim bildiyimə görə, Alma-Atada iclas keçiriləndə erməni tərəfi heç bir şərt irəli sürməyib. Əgər belə şərt varsa, qoy, müxalifət həmin şərti təqdim etsin” fikri elə bir önəm daşımır. Reallıq budur ki, Ermənistan SSR Ali Soveti sənədə düzəliş edib. Həmin düzəlişə əsasən MDB-yə yalnız keçmiş sovet respublikalarının deyil, həmçinin, hələ SSRİ-nin süqutundan öncə “müstəqillik haqqında referendum” keçirmiş muxtar qurumların da qoşulmalarına imkan verilməli idi.

Bu məqamın üzərində bir qədər geniş dayanaraq bildirək ki, Ermənistan, həqiqətən, 1992-ci ildə Alma-Ata Bəyannaməsini ratifikasiya edib. Ratifikasiya sənədindəki istisnada bildirilib ki, “Dağlıq Qarabağ Respublikası” müstəqil şəkildə MDB-yə qoşula bilər. N.Paşinyanın haqqında söz açdığımız “Qarabağın özünün seçkili hakimiyyəti var” fikrini dilə gətirməsini nəzərə alsaq, diqqətə çatdırdığımız istisna səbəbi ilə də Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanıması əhəmiyyətini itirir. Yəni ki, Dekotini kimilər, bütövlükdə Fransa bu halda da asanlıqla deyə bilər ki, Qarabağın Ermənistana dəxli yoxdur, bölgə ayrıdır. Deməli, Alma-Atı məntiqi ilə bu kimi oyunun oynanılma ehtimalı nəinki var, özü də çox böyükdür.

*

Diqqət yetirdinizsə, bu yazıda Alma-Ata Bəyannaməsinin Azərbaycan – Ermənistan sülh gündəliyi ilə bağlı ehkamlaşdırılmasının yolverilməzliyinə dair üç səbəbi açıqladıq. Birincisi, Ermənistan işğalçı mövqe tutmuş, həmin bəyannamənin fundamental mahiyyət daşıyan qarşılıqlı tanınma postulatını inkar etmişdi. İkincisi, 2022-2023-cü illərdə Alma-Alta məntiqi dövriyyəyə çıxandan sonra da Azərbaycan ərazisindəki separatçı rejim saxlanılmışdı. Nəzərə alaq ki, bunun özü də sülhün həmin bəyannamə üzrə əldə olunmasından sonra “presedent” kimi götürülə, yəni manipulyasiya predmetinə çevrilə bilər. Üçüncüsü isə Ermənistan Qarabağ avantürasını, başqa sözlə desək, Azərbaycana qarşı ərazi iddiasını Alma-Ata Bəyannaməsindən ayrıca tutmuşdu.

Onu da nəzərə alaq ki, Azərbaycan Alma-Ata Bəyannaməsinə 1993-cü il sentyabrın 24-də qoşulmuşdu. Həmin vaxt təkcə Qarabağ deyil, ölkəmizin digər əraziləri də işğal olunmuşdu. Belə olan halda, Ermənistanın bu faktiki məqamı da perspektivdə mübahisə və siyasi spekulyasiya predmetinə çevirməsi mümkündür. Hazırda bütün beynəlxalq platformalarda anti-Azərbaycan təbliğatına üstünlük verən, səmimiyyətdən uzaq mövqe tutan erməni iqtidarından hər şey gözləmək olar.

Alma-Ata Bəyannaməsinin ehkamlaşdırılmasının yolverilməzliyinə sübutu baxımından bəzi ritorik suallar da ünvanlayaq. Nə üçün Azərbaycan – Ermənistan sülh gündəmi ilə bağlı Alma-Ata Bəyannaməsinin məhz keçmiş SSRİ-dən ayrılma məntiqi əsas götürülməlidir? Bu məntiq hansı səbəbdən suverenlik trayektoriyasını müəyyənləşdirməlidir? Nəyə görə Sovetlər İttifaqına qoşularkən mövcud olmuş ərazilər amili üzərində dayanılmamalıdır? Niyə Azərbaycan SSRİ-yə böyük ərazi ilə daxil olmalı, ittifaqdan kiçik ərazi ilə ayrılmalıdır? Yaxud, əksinə, hansı səbəbdən Ermənistan Sovet İttifaqından ərazi uduşu ilə çıxmalıdır?

Müasir müstəqil Azərbaycan Respublikası 1918–1920-ci illərdəki Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisidir. Bu, müxtəlif dövlət sənədlərində, eyni zamanda, 1991-ci il oktyabrın 18-də qəbul edilmiş Müstəqillik haqqında Konstitusiya Aktında əksini tapıb. Məlumdur ki, AXC-nin ərazisi indiki Azərbaycanınkından çox olub. Azərbaycanda sovetləşmə məhz həmin ərazilərlə gedib. Əvvəl Sovet Rusiyasının qurduğu oyunla Zəngəzur Ermənistana verilib, bilavasitə SSRİ yaranandan sonrakı illərdə isə torpaqlarımızdan Ermənistana peşkəşlər edilib. Çirkin proses 1969-cu ilin ortalarınadək davamlı xarakter alıb.

Sonda onu da bildirək ki, Alma-Ata Bəyannaməsində ərazi bütövlüyünün tanınması və mövcud sərhədlərin toxunulmazlığı və ona hörmət bir növ, preambuladır. Ancaq sənəddə sərhədlərin haradan başlayıb harada bitdiyinə dair heç nə yoxdur. Yəni, bəyannamə prinsipcə ümumi xarakter daşıyır və keçmiş müttəfiq respublikalar arasında münasibətlərin tənzimlənməsindəki ilkin mərhələni təşkil edir. Məsələn, müstəqillik illərində Azərbaycanla Gürcüstan arasında bir sıra mübahisəli məsələlərə dair razılaşmalara dair praktika var. Ermənistanla da belə ola bilərdi. Amma olmadı.

***Əvəz CAHANGİROĞLU***
***XQ***

# Azərbaycandan Afrikaya mötəbər əməkdaşlıq körpüsü salınır



**(əvvəli 1-ci səhifədə)**

Xatırladaq ki, Afrika Birliyi Təşkilatının hüquqi varisi olan Afrika İttifaqı 2002-ci il iyulun 9-da yaradılmışdır. “Qara qitə”nin 55 ölkəsini özündə birləşdirən bu beynəlxalq təşkilat BMT başda olmaqla bir çox mötəbər siyasi qurumlarla əməkdaşlıq edir. Azərbaycan 2011-ci ilin yanvar ayından Afrika İttifaqında müşahidəçi statusu əldə etmişdir. Bu qurumla 14 illik əməkdaşlığımızın səmərəsini həm biz görmüşük, həm də afrikalı tərəfdaşlarımız.

Yeri gəlmişkən, onu da xatırladaq ki, ölkəmiz öz dövlət müstəqilliyini bərpa etdikdən sonra – daha doğrusu, 1992-2012-ci illərdə Afrikanın əksər dövlətləri ilə diplomatik münasibətlər qurmağa nail olmuşdur. Ekspertlər yazırlar ki, ölkəmizin qlobal və regional miqyasda artan nüfuzu, iqtisadi potensialı və gücü, eləcə də Prezident İlham Əliyevin nüfuzlu lider kimi yürütdüyü uğurlu siyasət Afrika ölkələrinin Azərbaycanla əməkdaşlığa marağını getdikcə daha çox artırır. Artıq dostlarımız da, bədxahlarımız da şahiddirlər ki, bir sıra Afrika ölkələrinin dövlət başçıları Azərbaycana səfər etmək, ikitərəfli münasibətləri daha da gücləndirmək niyyətlərini ifadə edib, ölkəmizi qitəyə investisiya qoymağa çağırırlar.

Dövlət başçımızın dəfələrlə vurğuladığı kimi, Azərbaycanla Afrika dövlətləri arasında əlaqələrin dinamik inkişafı ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi dövrünə təsadüf edib. Belə ki, 2019-cu ilin oktyabrında Azərbaycanın Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının 18-ci Zirvə görüşünə uğurla ev sahibliyi etməsi tədbirdə təmsil olunan Afrika qitəsi ölkələri ilə ikitərəfli münasibətlərdə yeni səhifə açıb. Həmin Zirvə görüşü, eyni zamanda, qitənin bir çox ölkələri ilə ali səviyyədə təmasların və görüşlərin keçirilməsi üçün əlverişli şərait yaratdı.

Doğrudur, bu fakt bəzi siyasi dairələri çox ciddi şəkildə narahat edirdi. Çünki Afrikanı əsrlər boyu öz gəlir mənbəyi, bir çox hallarda müstəmləkəsi kimi görməyə alışmış dövlətlər Azərbaycanın bu qitədəki qətiyyətli addımlarını sakitliklə qarşılaya bilməzdilər. Biz bunu ötən ilin payızında ev sahibliyi etdiyimiz BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransına (COP29) hazırlıq mərhələsində və tədbirin keçirildiyi günlərdə daha yaxşı gördük. Hətta Afrika ölkələrindən bəzilərinin Bakıya gəlməsinə açıq şəkildə mane olmaq istəyənlər də var idi.

Ancaq Bakının ev sahibliyi etdiyi COP29-da Afrika ölkələrinin dövlət və hökumət başçıları bədxahların arzusunu gözlərində qoydu. Onlar bütün dünyaya sübut etdilər ki, Azərbaycanın səmimiyyətinə səmimi şəkildə qarşılıq verirlər. Üstəlik, son illər ərzində Misir, Əlcəzair, Konqo və Somali kimi ölkələr ilə ali səviyyəli qarşılıqlı səfərlərin həyata keçirilməsi və Keniya ilə əlaqələrin genişləndirilməsi Azərbaycanın Afrika siyasətinin inkişaf perspektivlərinin “yol xəritəsi”ni, hərtərəfli əməkdaşlıq üçün potensial istiqamətlər müəyyənləşdirmişdir.

Xarici İşlər Nazirliyinin elektron resurslarında oxuyuruq ki, 2024-cü il aprelin 4-5-də Konqo Prezidenti Deni Sassu-Nqesso, bu il fevralın 11-14-də isə Somali Prezidenti Hasan Şeyx Mahmudun Azərbaycana rəsmi səfərləri Afrikada Azərbaycana olan inam və etimadın göstəricisidir. Bildirilir ki, səfərlər çərçivəsində reallaşdırılan görüşlər zamanı ölkəmizin həmin dövlətlərlə qarşılıqlı əlaqələrin daha da gücləndirilməsi niyyəti ifadə olunmuş, müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsinə dair hüquqi-normativ sənədlər imzalanmışdır.

Siyasətçi və diplomatların fikrincə, Prezident İlham Əliyevin siyasi iradəsi və uzunmüddətli strateji məqsədlərə istiqamətlənmiş müdrik siyasəti nəticəsində Afrika qitəsi ölkələri ilə münasibətlərin daha da inkişaf etdirilməsi, müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi prosesi davam edir. Təbii ki, həmin əlaqələr zamanı ölkəmizin milli mənafeyinə uyğun yeni hədəflər müəyyənləşdirilir.

Bundan başqa, ölkəmiz Fransanın hələ də neokolonial hökmranlıq siyasətindən əziyyət çəkən keçmiş müstəmləkə ölkələrinin, o cümlədən Afrikada yerləşən Niger, Mali, Burkina-Faso, Seneqal və s. kimi ölkələrin öz hüquqları və suverenlikləri uğrunda, həmçinin fransız imperialist hökmranlığından xilas olmaq üçün apardıqları mübarizəyə dəstək verməkdədir. Bu gün dünyada hamı görür ki, Bakı şəhəri Fransa tərəfindən hüquqları tapdanan ölkələrin və azsaylı xalqların öz azadlıqları uğrunda bir araya gəldiyi beynəlxalq platformaya çevrilib.

Sonda xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev dünən Afrika ölkələrindən birinin – Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalo ilə birlikdə mətbuat üçün verdiyi bəyanatda demişdir ki, bu səfər tarixi səfərdir: “İlk dəfədir ki, Qvineya-Bisaunun Prezidenti rəsmi səfərə gəlib. Biz artıq ikitərəfli gündəliyə aid olan mühüm məsələləri müzakirə etdik və belə razılığa gəldik ki, tərəfdaşlığımızı bütün sahələrdə gücləndirək. Siyasi münasibətlər çox yaxşıdır. Bir daha qeyd etmək istəyirəm, bunun ən yaxşı təzahürü ondan ibarətdir ki, cənab Prezident ölkəmizə ikinci dəfədir səfər edir. Beynəlxalq təsisatlarda bir-birimizi hər zaman dəstəkləyirik, bunu belə də davam etdirəcəyik. BMT və digər beynəlxalq təsisatlarda, İslam Əməkdaşlıq Təşkilatında, Qoşulmama Hərəkatında bir-birimizi dəstəkləyirik”.

Bəli, Azərbaycan dövlətinin dünyanın bütün qütblərini təmsil edən dövlətlərlə dostluq və tərəfdaşlıq münasibətləri gündən-günə artır və zənginləşir. Avropa, Asiya, Afrika və ya Amerikanı təmsil etməsinə baxmayaraq, gonaq gəlir bizə dostlar, zülm əlindən qurtulmuşlar.

***İttifaq MİRZƏBƏYLİ***

***REPLİKA***

# Zatulinin “rapsodiyaları”

**Rusiya Federasiyası Dövlət Dumasının MDB ölkələri ilə iş komitəsi sədrinin birinci müavini Konstantin Zatulin Azərbaycana qarşı ideoloji savaşda yenə “öz yerindədir”. O, ermənipərəst “Lazarev klubu” ilə birgə Moskvada təşkil etdiyi “dəyirmi masa”da ölkəmiz əleyhinə yalan və böhtanlar üzərində qurduğu növbəti çıxışını edib.**

K.Zatulin hərbi cinayətlərdə ittiham olunan erməni əsilli şəxslərin Bakıda keçirilən məhkəmə prosesi ilə bağlı ağlına gələni danışıb. Üç ildir Ermənistana girişinə qadağa qoyulan Zatulin yalağını boş saxlamayan ermənilərin bu qadağasının səbəbini “anlamır”. Amma, o, “Lazarev klubu”nun İrəvanda təşkil etdiyi tədbirə qatıla bilmədiyindən məyusluq hissi keçirir. Axı, o, verilmiş “siyasi-ideoloji tapşırığı” yüksək səviyyədə yerinə yetirmək, erməni lobbisinin ayırdığı qonorarın həcmini artırmaq istəyirdi. İndi isə onun canfəşanlığının əsas səbəbi həmin maliyyə mənbəyinin kəsiləcəyindən əndişələnməsidir.

Amma bu dəfə Zatulinin bəxti gətirib. O, “Lazarev klubu”nun tədbirinə “birbaşa” qatılmaq imkanı qazanıb. Bu isə ondan ötrü Azərbaycana qarşı “cangavər kimi” vuruşmağı bacardığını nümayiş etdirmək fürsəti deməkdir.



K.Zatulin “dqr” “rəhbərliyi”nin Bakıda mühakimə olunmasını “şəxsi revanş”, hətta “repressiya” adlandırıb. Onun ağzı köpüklənə-köpüklənə “repressiya”dan danışması məhkəmənin dövlətdaxili məsələ olduğunu “unutmasından” qaynaqlanır. Repressiya məhkəmədən kənar bir prosesdir. Azərbaycana qarşı hərbi cinayətlərdə ittiham olunan erməni əsilli şəxslərin məhkəməsi isə açıq keçirilir. Təqsirləndirilən şəxslərə xarici ölkələrdən güclü vəkillər tutmalarına imkan verilib. Onların heç biri saxlanma şəraitindən, məmurların davranışından narazılıq etməyib. Beynəlxalq Qırmızı Xaç Komitəsi vaxtaşırı onlara baş çəkir, ailələri ilə telefon əlaqəsi saxlamalarına şərait yaradılır. Hay sifarişini “yüksək səviyyədə” yerinə yetirməyə başı qarışan Zatulin təqsirləndirilən şəxslər barədə görün nə deyib: “Sözügedən şəxslərin hamısı Minsk qrupu çərçivəsində münaqişənin dinc yolla tənzimlənməsi prosesində uzun illər ərzində Azərbaycan rəhbərliyinin danışıqlarda tərəfdaşı olublar”.

Bunun ağ yalan olduğunu kim bilməsə də, ATƏT-in Minsk qrupunun həmsədri olmuş Rusiyanın siyasi elitası yaxşı bilir. Məgər Minsk qrupu formatında aparılan danışıqlarda Azərbaycan rəhbərliyi Arkadi Qukasyan, Bako Saakyan, Araik Arutyunyan, Ruben Vardanyanla bir masa arxasında əyləşib? Rəsmi Bakı münaqişə tərəfi kimi yalnız Ermənistan rəhbərliyi ilə görüşlər keçirib. Rusiya Dövlət Dumasının səlahiyyətli nümayəndəsi isə bu məlum həqiqəti qəsdən təhrif edir!

Rusiyadakı zəngin erməni lobbisindən alacağı qonorarın məbləğini artırmaq üçün “erməni tarixçisi” rolunu da oynamağa girişən başabəla deputat hayları Qafqazın ən qədim xalqı adlandırmaqdan da çəkinmir. “Azərbaycanlılar Qafqazda ermənilərlə birlikdə yaşayıblar, amma ermənilərdən əvvəl deyil”.

Özünün “düzüb-qoşduğu” “rapsodiyaları” ifa edən Zatulin avazını bir az da yüksəldərək, “Dağlıq Qarabağın tarixi və mədəniyyətinə aid abidələr azərbaycanlıların nəinki bu ərazidə yaşamadığı, heç bir millət kimi mövcud olmadığı dövrə aiddir” kimi “tarixi kəşf”ini ərz edir. O, Qarabağda alban abidələrinin bərpasından narahatlıq keçirdiyini deyir. Guya, bunlar erməni kilsələri imiş.

Belə məlum olur ki, K.Zatulin nə öz tarixlərini, nə də Türkmənçay müqaviləsini düz-əməlli oxuyub. Əgər oxusaydı, hayların Qarabağa haradan, nə vaxt və necə köçürülməsindən, 1834-cü ildə Rus çarı I Nikolayın fərmanı ilə Alban abidələrinin qriqorian haylara peşkəş edilməsindən xəbəri olardı.

Zatulinin separatçı “dqr” rejiminin “liderləri”, eləcə də Bakıda məhkəməsi qurulan təqsirləndirilən digərləri haqqında çıxışında dediyi “Biz Rusiyada – mən Rusiya Dövlət Dumasının deputatıyam – bu məsələyə necə yanaşmalıyıq? Əlbəttə, repressiya kimi” sözlərini cavabsız saxlamaq olmaz. Aydın məsələdir ki, Zatulin yalnız öz adından deyil, Dövlət Dumasının deputatı kimi müəyyən statuslu şəxs kimi, həm də parlament adından danışır. Yəqin ona bu səlahiyyəti verənlər bu barədə düşünəcəklər.

Qədim Yunanıstanda səyyar rapsodlar (xanəndələr-red.) simli musiqi alətinin müşayiəti ilə epik nəğmələr ifa edərkən daha çox pul qazanmaqdan ötrü publikada coşqu yaratmağa çalışırmışlar. Bu məqsədlə rapsodiyalara falş notlar qatılırdı. Necə ki Zatulinin sadəlövhlər üçün “bəstələdiyi siyasi-ideoloji rapsodiyaları” da yalnız saxtakarlıq və böhtandan ibarətdir.

***İ.HƏSƏNQALA***
***XQ***

# Leyla Əliyevanın Bəhreyn görüşləri



**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın Bəhreynə səfəri çərçivəsində Bəhreyn Krallığının Vəliəhdi və Baş naziri Salman bin Həməd Al Xəlifə ilə görüşü keçirilib.**

Görüş zamanı iki dövlət və xalq arasında yüksəksəviyyəli münasibətlərin mövcudluğu xüsusi vurğulanıb. İkitərəfli əməkdaşlığın bundan sonra da müxtəlif sahələr üzrə genişləndirilməsinin əhəmiyyəti qeyd olunub.

Bəhreyn Krallığının Vəliəhdi Azərbaycanın hər zaman qlobal problemlərin həllinə dəstək olduğunu, bu çərçivədə ölkəmizin COP29 beynəlxalq tədbirinə də yüksək səviyyədə ev sahibliyi etdiyini xatırladıb. Ətraf mühitin qorunması sahəsində təşəbbüslərin davamı olaraq, MAMA "Ana təbiət" sərgisinin Bəhreyndə təşkilinə görə təşəkkürünü çatdırıb. Həmçinin Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin rəhbəri Leyla Əliyevanın ətraf mühitin qorunması istiqamətində Azərbaycanda və digər ölkələrdəki təşəbbüsləri yüksək qiymətləndirilib.

Görüş zamanı Azərbaycan və Bəhreyn arasında gələcək əməkdaşlıq layihələri sırasında beynəlxalq Ekspo sərgiləri, o cümlədən Yaponiyada aprel ayından başlayacaq "Ekspo 2025" çərçivəsində birgə fəaliyyət üzrə də fikir mübadiləsi aparılıb.



Həmçinin Azərbaycan və Bəhreynin "Formula 1" kimi nüfuzlu yarışa uğurla ev sahibliyi etməsi vurğulanıb. Ölkəmizdə avtomobil idmanı üzrə yarışların keçirilməsinə önəm verildiyi və bu çərçivədə də gələcək əməkdaşlıq müzakirə olunub.

*

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Bəhreyn Krallığına səfəri çərçivəsində bu ölkənin neft və ətraf mühit naziri Mohammed bin Mubarak Bin Dinah ilə görüşüb.**

Görüşdə ekologiya və ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq və birgə layihələrin həyata keçirilməsi məsələləri müzakirə olunub.

Azərbaycanın 2024-cü ilin noyabr ayında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi nüfuzlu beynəlxalq tədbirə uğurla ev sahibliyi etdiyi xüsusi vurğulanıb. Bəhreynli nazir COP29 çərçivəsində Azərbaycana səfərini xatırladaraq ölkəsinin ətraf mühitin mühafizəsi, ekoloji və iqlim vəziyyətinin inkişafına töhfə verməyə hər zaman hazır olduğunu qeyd edib. Leyla Əliyeva müasir dövrdə ətraf mühitin qorunmasına yönəlik birgə təşəbbüslərin planetimizin və insanların gələcəyi üçün önəmli olduğunu bildirib.

Danışıqlar zamanı su ehtiyatlarından səmərəli, qənaətlə istifadə olunması və su itkisinin qarşısının alınması sahəsində tədbirlər, çirkab suların təmizlənməsi və irriqasiyaya yönəndirilməsi istiqamətində də fikir mübadiləsi aparılıb.

XQ

# Qadınların ictimai fəallığı yüksəlir



**Fevralın 27-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə "Qadın iştirakçılığının təbliği" mövzusuna həsr olunmuş konfrans keçirilib.**

"Konstitusiya və Suverenlik İli" çərçivəsində təşkil olunan tədbirdə çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, Azərbaycan xalqı tarix boyu müstəqil dövlətə sahib olmağı arzulayıb və bu məqsədə çatmaq üçün daim mübarizə aparıb.

Diqqətə çatdırılıb ki, Azərbaycan tarix boyu mübarizəsi və fəaliyyətləri ilə müstəqilliyini təsdiqləyib. Azərbaycan Şərqdə ilk demokratik cümhuriyyəti quraraq İslam dünyasında bir çox yeniliklərin öncülü olub. Müstəqil İslam ölkəsi kimi Azərbaycan həm milli-mənəvi dəyərlərə, həm də dünyəvilik və müasirlik prinsiplərinə sadiq qalaraq dayanıqlı inkişaf yolunda irəliləyir.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, Azərbaycan qadınını fərqləndirən amil onun bütövlükdə Şərq və müsəlman dünyasında xüsusi mövqeyə malik olmasıdır. Azərbaycan Xalq Cümhuriyyəti dövründə qəbul olunmuş İstiqlal Bəyannaməsi ölkədə konstitusionalizmin ilk addımı kimi qiymətləndirilə bilər. Azərbaycanda dünyəvilik ideyasının əsası hələ XX əsrin əvvəllərində qoyulub və həmin dövrdən etibarən qadınların ictimai-siyasi həyatda iştirakına xüsusi önəm verilib.



Ə.Hüseynli, həmçinin qadın iştirakçılığı baxımından mühüm tarixi hadisələrdən bəhs edib. O vurğulayıb ki, Mehriban Əliyevanın Birinci vitse-prezident vəzifəsinə təyin olunması bu sahədə dönüş nöqtəsi olub. Sonrakı dövrdə bu proses davam edib və bu gün hakimiyyət orqanlarının bütün səviyyələrində qadınların fəal iştirakı təmin edilib.

Tədbirdə çıxış edən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri Sahib Məmmədov, Şərq dünyasında qadınlara səsvermə hüququnun ilk dəfə Azərbaycanda verilməsinin qürurverici olduğunu deyib. Qeyd edib ki, ABŞ, İngiltərə və bəzi Avropa ölkələrində bu hüquq Azərbaycandan sonra tanınıb. Hətta özünü demokratik ölkə kimi təqdim edən Fransada qadınlara səsvermə hüququ yalnız 1944-cü ildə verilib.

Konfrans panel iclaslarında müzakirələrlə davam edib.

XQ

# Azərbaycanlı qonaqlar incəsənət tədbirlərində



**Bəhreynin məşhur İncəsənət Mərkəzində MAMA "Ana təbiət" beynəlxalq incəsənət sərgisinin təqdimatı olub. Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Arzu Əliyeva tədbirdə iştirak edib.**

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) zamanı Bakıda Heydər Əliyev Mərkəzində uğurlu debütünü edən MAMA "Ana təbiət" sərgisi Bəhreyndəki təqdimatla iqlim dəyişiklikləri üzrə həyati mesajı dünyaya yaymaq üçün səyahətə başlamış olur.

Heydər Əliyev Mərkəzi, IDEA İctimai Birliyi, Bəhreynin RAK İncəsənət Fondu və Bəhreyn Mədəniyyət və Qədim Əsərlər İdarəsinin birgə təşkil etdiyi sərgi ətraf mühitin qorunmasının vacibliyinə incəsənət vasitəsilə bir çağırışdır.

RAK İncəsənət Fondunun təsisçisi, rəssam Raşid Al Xəlifə sərginin Bəhreyndə keçirilməsinin əhəmiyyətini vurğulayaraq bildirib ki, MAMA "Ana təbiət" sərgisinin təqdimatı mədəni mübadilənin təşviqi istiqamətindəki davamlı səyləri gücləndirir. Leyla Əliyeva planetimizdə iqlim dəyişikliyi nəticəsində meydana gələn problemlərdən bəhs edib, MAMA "Ana təbiət" incəsənət layihəsi vasitəsilə mövcud problemlərin həllinə kreativ üslubda yanaşıldığını diqqətə çatdırıb. Leyla Əliyeva bildirib ki, qlobal istiləşmə dövründə dayanıqlıq çağırışı heç vaxt bu qədər zəruri olmamışdı.

Sərgidə Raşid Al Xəlifə, Leyla Əliyeva ilə yanaşı, 29 ölkədən 55 rəssamın ərsəyə gətirdiyi 100-dən çox fərqli sənət əsərləri nümayiş etdirilir.

MAMA "Ana təbiət" beynəlxalq incəsənət sərgisi Bəhreyn İncəsənət Mərkəzində martın 25-dək davam edəcək. Bu müddətdə ziyarətçilər hazırda üzləşdiyimiz ətraf mühit problemləri ilə bağlı müxtəlif və vacib hekayələri özündə əks etdirən rəssamlıq, heykəltəraşlıq, instalyasiya və multimedia nümunələri ilə tanış ola biləcəklər.



*

**Bəhreyn Krallığına səfər çərçivəsində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva bu ölkənin RAK İncəsənət Fondunu ziyarət ediblər.**

Ziyarət zamanı burada təqdim edilən dünya şöhrətli rəssamların əsərlərindən ibarət ekspozisiya ilə də tanışlıq olub.

RAK İncəsənət Fondu müxtəlif sənət sərgilərindən əldə olunan, ayrı-ayrı nəsilləri və incəsənət məktəblərini təmsil edən bəhreynli rəssamların əsərlərinin ən seçmə nümunələrini təqdim edir. Qeyri-kommersiya təşkilatı olan RAK rəssamların dünya miqyasındakı rolunu gücləndirir və müxtəlif sərgilər, tədbirlər, əməkdaşlıq təşəbbüsləri vasitəsilə beynəlxalq tərəfdaşlıqlara töhfə verir. Fondun fəaliyyətinin məqsədi incəsənət təmsilçilərini bir araya gətirmək, ictimaiyyəti maarifləndirmək, tənqidi mühakimə yürütmək və sosial dialoq üçün platforma təmin etməkdir.

RAK İncəsənət Fondunun rəssamlarının əsərləri Azərbaycan izləyicilərinə ötən il Bakıda açılan sərgidə təqdim edilmişdi. Həmçinin Heydər Əliyev Mərkəzində RAK İncəsənət Fondunun təsisçisi və görkəmli bəhreynli rəssam Raşid Al Xəlifənin sərgisi təşkil olunmuşdu.

Qeyd edək ki, Azərbaycanla Bəhreyn arasında müxtəlif sahələrdə, o cümlədən incəsənət sahəsində səmərəli əməkdaşlıq qurulub. Ümumbəşəri sənət dili sayılan incəsənət xalqlar arasında qarşılıqlı anlaşma və dostluq əlaqələrinin qurulmasına mühüm töhfədir. Mədəni sahədə əlaqələr ölkələrimiz arasında gələcək tərəfdaşlıq imkanlarının daha da genişlənməsinə zəmin yaradır.

XQ

# Ermənistanın ekoloji fəsadlarının rəqəmsal xəritəsi hazırlanıb



**"Environmental Protection First" (EPF) Koalisiyası Cənubi Qafqazın və Xəzər dənizinin ekologiyasını zəhərləyən Ermənistanın dağ-mədən sənayesi müəssisələri barədə interaktiv rəqəmsal xəritəni ictimaiyyətə təqdim edib. İnfobank mahiyyətli rəqəmsal xəritə Azərbaycan, ingilis və erməni dillərində hazırlanıb.**

Rəqəmsal xəritəni tərtib edən Koalisiyaya üzv olan "Azərbaycan Kartoqrafları" İctimai Birliyinin sədri Müqabil Bayramov bu unikal resurs üzərində peşəkar komandanın bir ildən çox fəal iş apardığını bildirib. O, "Environmental Protection First" Koalisiyasının 2024-cü ildə Azərbaycan, ingilis və erməni dillərində "Ermənistan Respublikasının mineral xammal resursları" adlı xəritə də hazırladığını, indiki Coğrafi İnformasiya Sistemləri (CİS) proqramlarına əsaslanan rəqəmsal xəritənin həmin xəritənin bazasında ərsəyə gətirildiyini, lakin materialların xeyli zənginləşdirildiyini diqqətə çatdırıb.

Koalisiyanın həmtəsisçisi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın sədri Amin Məmmədov qeyd edib ki, Ermənistanın və bu ölkədə işləyən xarici şirkətlərin dünyada qəbul olunmuş ekoloji norma və standartlar gözlənilmədən apardıqları ekoloji fəaliyyəti dərhal dayandırılmalıdır, Ermənistanın bütün bölgəni zəhərləməsinin qarşısı alınmalıdır. Ermənistan əhalisi və region ölkələrinin ictimaiyyəti onlardan gizlədilənlər barədə mütləq xəbər tutmalıdır. Koalisiyanın həmtəsisçisi, deputat Pərvanə Vəliyeva isə bəyan edib ki, Ermənistan özünün dağ-mədən müəssisələrində beynəlxalq qurumlarla, xarici QHT-lərlə birgə ekoloji monitorinqlər keçirmək üçün Azərbaycan QHT-lərinə şərait yaratmalıdır.

Koalisiyasının digər həmtəsisçisi Sabit Bağırov təklif edib ki, Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü öz Standartında ekoloji normaların tətbiqinə dair meyarları gücləndirməlidir: "Belə olsa, Mədən Sənayesində Şəffaflıq Təşəbbüsünün üzvü olan Ermənistan bu sahədə daha şəffaf və məsuliyyətli olar. BMT-nin Trans-sərhəd su axarlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi haqqında Konvensiyası üzrə Katibliyi də bu problemlə bağlı konkret mövqe ortaya qoymalıdır. Biz onlarla da görüşməyə hazırıq. Çünki Ermənistan bu Konvensiyaya qoşulmaqdan qaçır".

XQ

# “O zaman Heydər Əliyev hakimiyyətdə olsaydı...”

**Müsahibimiz Azərbaycanın görkəmli ictimai-siyasi xadimi, şair-dramaturq Hidayət Orucovla bügünkü söhbətimizin mövzusu ümummilli lider Heydər Əliyevin 1987-ci ildə Sov.İKP MK-nın Baş katibi Mixail Qorbaçov tərəfindən hakimiyyətdən uzaqlaşdırıldıqdan dərhal sonra keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi Xankəndinin (keçmiş Stepanakert) separatçılıq və terrorizm meydanına çevrilməsi və bu bölgədə baş verən hadisələr haqqındadır.**



*(əvvəli ötən sayımızda)*

***– Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Siz 10 il onunla birlikdə işlədiniz. Bu mövzuda heç söhbətiniz olurdumu?***

– Əlbəttə olurdu. Ulu öndər hakimiyyətə qayıdıb prezident seçiləndə əvvəlki rəhbərliklər artıq mövqelərimizi əldən vermişdilər. Bir dəfə şərait elə gətirdi ki, ulu öndər Heydər Əliyevlə ikilikdə qaldıq. Elə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çox gərgin, qayğılı idi. Fikri uzaqlara getsə də, vəziyyətin nə qədər ağır olduğundan söz açdı: “Bilirsən, o vaxt mən Azərbaycandan Moskvaya vəzifəyə gedəndə Kamrana 3 məsələni xüsusilə diqqətdə saxlamağı tapşırdım. Onun birincisi və ən vacibi Qarabağ məsələsi idi”. Onun xalq ifadələrini çox şirin-şirin deməsi vardı və qayıtdı ki, ona dedim əlində aşın daşsa da, (yəni işin başdan aşsa da) hər həftədə 3-4 saat vaxt ayır Qarabağdakı vəziyyətlə ciddi şəkildə maraqlan. “Orda millətçiliyin şişməsinə imkan vermə. Qalan 2 məsələ bununla müqayisədə elə də vacib deyildi. Amma o, bu məsələlərin heç birini yerinə yetirə bilmədi. Qarabağ məsələsini isə heç yarıtmadı”, – deyə təəssüflə başını yırğaladı...

***– Hidayət müəllim, DQMV Partiya Komitəsinin birinci katibi Gevorkov bu hadisələrdə nə kimi rol oynayırdı? O da uzun müddət orada rəhbər olmuşdu və heç şübhəsiz, bu məsələlərdən xəbəri olmaya bilməzdi. Onun fəaliyyəti ilə bağlı sizdə bir fikir varmı?***

– Bir halda ki, siz bu sualı verdiniz, mən bəzi fikirlərimi faktlara söykənib açıqlaya bilərəm. Mənim Gevorkovla heç vaxt birbaşa ünsiyyətim olmamışdı. Amma məlumatım vardı ki, Gevorkov DQMV Partiya Komitəsinin birinci katibi olanda ilk vaxtlar yaxşı işləyib. Dağlıq Qarabağda yaşayan yazıçı və şairlərin dediklərindən, sonradan yazdıqlarından və çıxışlarından belə nəticəyə gəldim ki, Gevorkov müəyyən vaxtdan sonra xeyli dəyişib və erməni xülyalarının gerçəkləşməsi istiqamətinə yan alıb. Açıq da olmasa, gizli millətçiyə çevrilib.

...1988-ci il fevral hadisələrindən bir neçə ay əvvəl Mardakertə getmişdim. Professor, yazıçı Zahid Xəlillə bir yerdə səfərə çıxmışdıq. Mardakertdə “Gənclik” nəşriyyatının günlərini keçirirdik. 3 gün Mardakertdə qalıb çox maraqlı görüşlər keçirdik. Stepanakertə məlumat çatandakı biz Bakıdan gəlib Mardakertdə görüşlər keçiririk, tez özlərini bizə çatdırdılar. Hətta bizim bir tədbirimizdə də iştirak etdilər. Söhbət əsnasında onlara dedim, Stepanakertdə olmamışam, amma oranı çox görmək istərdim. Dedilər: “Lap yaxşı, siz gələndə bir tədbir də keçirərik. Biz gedək hazırlıq görək, sabah tezdən gəlib sizinlə birlikdə qayıdarıq şəhərə”. Həqiqətən də sabah tezdən gəldilər. Mardakert Partiya Komitəsinin birinci katibi bizə səhər yeməyinə xaş da hazırlatdırmışdı. Bizimlə birlikdə həmin adamlar xaş da yedilər. Sonra da qayıtdılar ki, “Hidayət müəllim bilirsiniz, Gevorkov burda yoxdur, biz ikinci katiblə danışdıq. O da dedi nə danışırsınız, Gevorkov gəlib bizim dərimizə saman təpər. Hidayət Orucov gəlir bura, Gevorkovun xəbəri yoxdur. Sonra bizi incidər”. Bu mənə bir az qəribə gəldi. Sonra hiss etdim ki, bunlar oradakı millətçi əhval-ruhiyyəni gizlətmək üçün bizi oraya aparmadılar.

***– Siz Stepanakertdə olanda və oradakı vəziyyəti görəndə artıq başa düşdünüz ki, bunun əks-sədası Ermənistandan, azərbaycanlıların yaşadığı Qərbi Azərbaycan torpaqlarından gələcək. Yəni aydın gördünüz ki, hadisələrin qarşısını almaq üçün Azərbaycan, eləcə də SSRİ rəhbərliyi tərəfindən reaksiya yoxdur və proseslər belə davam etsə, erməni terrorizmi açıq-açığına baş qaldıracaq...***

– Deməzdim ki, Azərbaycan rəhbərliyində reaksiya yox idi, var idi, amma qətiyyət yox idi. Əlbəttə, mənim düşüncələrimi qarışdıran fikir ondan ibarət idi ki, Qərbi Azərbaycanda erməni separatçı qüvvələri təxribat törədə və qan tökə bilərlər. Bilirdim ki, onlar dayanan deyillər. Heydər Əliyev Moskvada Siyasi Bürodan uzaqlaşdırılandan sonra onların əl-qolu əməlli-başlı açılmışdı.

Qayıdaq Stepanakertdəki hadisələrə. Vilayət Partiya Komitəsinin plenumu keçirildi. Mən də burada iştirak edirdim. Plenumda dedilər ki, keçmiş birinci katib Gevorkov öz ərizəsi ilə işdən gedir. Onun yerinə Poqosyanı təklif etdilər və alqışlarla seçdilər. Poqosyan söz aldı və dedi: “Kamran Mamedoviç neçə gündür burdadır. Onun hər dəqiqəsi respublika üçün çox önəmlidir. Ona görə icazə verin mən Kamran Mamedoviçi Bakıya yola salım, sonra gəlim söhbətimizi davam etdirək”. Bu o demək idi ki, Kamran getsin, biz də öz işimizə davam edək.

Bir faktı heç vaxt unuda bilmərəm və qeyd etməliyəm. Stepanakert səfərimizdən mənə xoş təsir bağışlayan bir o Zaqafqaziya Hərbi Dairəsinin komandanının meydandakı çıxışı oldu, bir də Lidiya Rəsulovanın plenumda çıxışı. Lidiya xanım o vaxt Respublika Həmkarlar İttifaqı Komitəsinin sədri, həm də Azərbaycan KP MK-nın Büro üzvlüyünə namizəd idi. O, Vilayət Partiya Komitəsinin birinci katibi Gevorkovu sərt tənqid etdi. Dedi: “Gevorkov bu məsələlərdə çox zəiflik göstərib, qəti tədbirlər görməyib. Bu millətçiliyin baş qaldırmasının qarşısı vaxtında alınmalı idi ki, indi bu səviyyəyə gəlib çatmasın. Axı bunlar yerli, Gevorkovun səlahiyyətində olan məsələlərdir”. Allah ona rəhmət eləsin!

Sonra da Sov.İKP MK-dan DQMV-dəki vəziyyəti öyrənmək üçün komissiya göndərdilər. Onun da rəhbəri erməni idi. Onlar Dağlıq Qarabağda, Ermənistanda və Azərbaycanda bir müddət araşdırma apardılar və Moskvada bəyan etdilər ki, DQMV-nın sosial-iqtisadi, mədəni, yaşayış səviyyəsi Azərbaycan və Ermənistanın orta göstəricilərindən yüksəkdir.

Heydər Əliyev Siyasi Bürodan gedəndən dərhal sonra Qorbaçovun müşaviri Aqanbekyan Fransanın “Humanite“ qəzetində məqalə dərc etdirmişdi və göstərmişdi ki, “Dağlıq Qarabağın sosial-iqtisadi vəziyyəti çox ağırdır. Bu vəziyyəti aradan qaldırmaq üçün vilayət mütləq Ermənistana birləşdirilməlidir”.

Bütün bunlar mərhələ-mərhələ həyata keçirilirdi. Birinci mərhələ Heydər Əliyevi vəzifədən uzaqlaşdırmaq oldu və bu, onların əl-qolunu tam açdı. Burda bir faktı diqqətə çatdırım: 1982-ci ildə Sov.İKP MK-nın Baş katibi Leonid İliç Brejnevin ölümünü Ermənistanda bayram etdilər. Bu da ona görə idi ki, onun Heydər Əliyevə xüsusi simpatiyası vardı və onu daim dəstəkləyirdi.

***– Stepanakertdən qayıdandan sonra prosesləri, yəqin ki, daha diqqətlə izləməyə başlamısız?***

– Qayıdandan sonra dərhal Respublika Mətbuat Komitəsinin sədri ilə görüşdüm. Ona dedim ki, Stepanakertdəki mətbənin direktoru dərhal işdən çıxarılmalıdır. Əmr verin, elə bu gün onu işdən çıxarın. Sədr də başladı ki, belə eləmək doğru olmaz, onlar milli azlıqlardır. Gərək belə məsələlərdə bir az humanist olaq. Beynəlmiləlçilik dərsi keçirdi mənə.

Mən səbəbsiz demirdim ki, erməni mətbəə direktoru işdən qovulsun. Çünki əvvəldə qeyd etdiyim kimi, biz orda mətbəəyə gedəndə direktor üzə çıxmadı. Amma biz Bakıya qayıdan zaman birdən hotelin qarşısında peyda oldu. Hiyləgərcəsinə üzrxahlıq etməyə başladı, bəhanələr gətirdi ki, biz ora gedəndə mətbəəyə gələ bilməyib. Həm də başladı ki, yolda guya azərbaycanlılar bir erməni qadınını öldürüblər. Bizim də ətrafımızda ermənilər dayanıb. Dedim: “Əvvəla, sən bunu yalan deyirsən. Əgər qadın öldürülübsə də onu elə ermənilər öldürər, azərbaycanlılar yox. Azərbaycanlı qadına əl qaldırmaz. İkincisi də, mən gələn dəfə bura gələndə sən burada olmayacaqsan”. Bizim nümayəndə heyətinin tərkibində olan Mətbuat Komitəsi sədrinin müavini Nikolayev də gülür, hər şeyi zarafata salırdı. Özünü elə aparırdı elə bil bu, Azərbaycanı təmsil etmir...

***– Səfərinizin nəticəsi nə oldu, qayıdandan sonra hansısa tədbirlər görüldümü?***

– Əlbəttə heç bir nəticəsi olmadı. Bakıya qayıdandan sonra tez-tez bizi Azərbaycan KP MK-nın, indiki Prezident Adminsrtasiyasının binasına toplayıb bu məsələləri müzakirə edirdilər. Belə tədbirlərdən biri heç yadımdan çıxmır. Bizim böyük şairimiz, rəhmətlik Bəxtiyar Vahabzadə çox kəskin çıxışlar edirdi. Bir dəfə də üzünü Respublika Dövlət Təhlükəsizlik Komitəsinin o zamankı sədrinə tutub çox hiddətlə dedi: “Gözünüzün qabağında bu həngamələr baş verir, sizin necə xəbəriniz olmur? Evdə arvadla beş kəlmə danışanda xəbəriniz olur, amma ermənilərin törətdikləri o boyda həngamədən xəbəriniz olmur? Bunu necə başa düşək? ”

Doğrudur, ondan bir neçə ay sonra, əsasən də guya Sumqayıt hadisələrinə görə DTK-nın sədrini vəzifədən kənarlaşdırdılar, amma onun yerinə, ümumiyyətlə, Azərbaycana heç bir aidiyyatı olmayan birini - İvan Qorelovskini gətirib qoydular. Bu təyinat əsla anlaşılmayan idi və heç şübhəsiz, Moskvadan verilmiş göstəriş idi. Düzdür, o Azərbaycanda cəmi bir il işlədi, amma bu bir il bəs etdi ki, Moskvanın, xüsusilə Qorbaçovun tapşırıqlarını yerinə yetirsin. Onun azərbaycanlı həmkarları sonralar yazırdılar: “İvan Qorelovskinin Azərbaycandakı fəaliyyəti qısamüddətli ezamiyyətə gəlmiş adamın işinə bənzəyirdi. Qorelovski peşəkar çekist olsa da, Azərbaycana hədsiz yad adam idi, xüsusilə milli məsələlərin həssas dönəmində bu, əsla düzgün təyinat deyildi”. Təbii ki, belə bir adam erməni terrorizminə, separatizminə qarşı hansı kəskin addım atar, necə mövqe nümayiş etdirə bilərdi. Ona görə də ümummilli lider Heydər Əliyev 1997-ci ildə MTN əməkdaşları ilə görüşündə haqlı olaraq dedi: “1988-ci ildən Azərbaycanın milli təhlükəsizlik orqanlarında çox acınacaqlı, çox dəhşətli proseslər getdi. Burada bütün potensial, mənəviyyat, yaranmış milli ruh dağılmağa başladı”.

Bu qurumun milliləşməsində müstəsna xidmətləri olan Heydər Əliyev nə dediyini yaxşı bilirdi. O, həmin illərdə Azərbaycandan uzaqlarda, Moskvada təqib altında olsa da, burada hansı proseslərin getdiyini, Moskvanın, xüsusilə ermənilərin əlində oyuncağa çevrilmiş Mixail Qorbaçovun məramının nə olduğunu çox gözəl bilirdi.

***– Yeri gəlmişkən, elə söz açdığınız Sumqayıt hadisələri də Xankəndi (o vaxtkı Stepanakert) iğtişaşlarından dərhal sonra baş verdi və məhz bundan sonra hadisələr sürətlə cərəyan etməyə başladı. Bu hadisələr arasında bir əlaqə var idimi?***

– Şübhəsiz, var idi. Sumqayt hadisələri də Stepanakert hadisələrinin hazırlandığı mərkəzdə hazırlanmışdı. Ümumiyyətlə, istər Ermənistanda, istər DQMV-də, istərsə də Azərbaycanın digər bölgələrində həmin dövrdə geniş vüsət alan milli münaqişələr erməni və ermənipərəst qüvvələr tərəfindən düşünülmüş surətdə yaradılırdı və bir mərkəzdən idarə edilirdi. Bəli, Sumqayıt hadisələri biz Stepanakertdən qayıdandan dərhal sonra – 1988-ci il fevralın 28-də baş verdi və nəticədə 32 nəfər həlak oldu, 439 nəfər yaralandı, 189 mənzil və 52 obyekt dağıdıldı, Azərbaycana xeyli ziyan vuruldu.

Baxın, sonradan nə baş verdi?

Sumqayıt hadisələrindən sonra Azərbaycan xüsusi xidmət orqanlarının əməkdaşları bu hadisələrin təhqiqatından, demək olar ki, tamamilə təcrid edildi, istintaqı Moskvadan gəlmiş prokurorluğun əməkdaşları və SSRİ DTK-nın səlahiyyətli nümayəndələri aparırdı. Hadisələrə birtərəfli yanaşan ermənipərəst sovet hüquq-mühafizə orqanları erməni vandallarının törətdiyi vəhşiliyi təhqiq etmək əvəzinə, azərbaycanlıları günahkar hesab etdi, nəticədə azərbaycanlılardan bir neçə nəfərə güllələnmə hökmü oxundu. İstintaq zamanı hadisələrin əsl təşkilatçıları olan ermənilər qaldı bir kənarda, azərbaycanlılar ittihamın əsas hədəfinə çevrildi.

O zaman mən bu prosesləri çox diqqətlə izləyirdim deyə, heç nə yaddaşımdan silinməyib. Moskvadan gəlmiş ermənipərəst müstəntiq və prokurorluq əməkdaşlarının saxta təhqiqatları ilə cinayət məsuliyyətinə cəlb edilmiş 91 nəfərdən 86 nəfəri azərbaycanlı, 2 nəfəri ləzgi, 2 nəfəri rus, yalnız 1 nəfəri erməni millətindən idi.

***– Qərbi Azərbaycandan da böyük köç, yəni zorən deportasiya məhz bu hadisələrdən sonra başladı...***

– Elədir. Sumqayıt hadisələrindən sonra vəziyyət son dərəcə ağırlaşmışdı. Gah onlar tərəfdə, gah da biz tərəfdə təxribatlar törədir, hadisələri daha da körükləyirdilər. Nəticədə az bir vaxtda Qərbi Azərbaycan torpaqlarından 142 min azərbaycanlını doğma ata-baba yurdlarından vəhşicəsinə deportasiya etdilər. Qısa bir vaxtdan sonra bu rəqəm 230 mini aşdı. Həmvətənlərimizə külli miqdarda maddi ziyan dəydi. Millətçi və terrorçu erməni qüvvələri azərbaycanlılara məxsus 31 min evə, 165 sovxoz və kolxozun əmlakına, minlərlə mal-qaraya sahib çıxdılar. Erməni qaniçənlərinin törətdikləri vəhşiliklər nəticəsində 225 azərbaycanlı qətlə yetirildi, 1154 nəfər yaralandı, minlərlə adam təhqirə və işgəncəyə məruz qaldı. Maraqlısı budur ki, Ermənistandan qovulan təkcə azərbaycanlılar deyildi. Canlı şahidi olduğumuz 1988-1991-ci illərdə 15 mindən çox kürd və bir neçə min rus da Ermənistandan qovuldu. Onların da çoxu Azərbaycana pənah gətirdi. Ermənistan monoetnik bir dövlətə çevrildi. Amma sovet rəhbərliyi bütün bunlara kor oldu, nəinki azərbaycanlıların, heç öz millətindən olanların belə hüquqlarını, təhülkəsizliyini qorumaq istiqamətində qəti bir tədbir görmədi.

Əlbəttə, bütün bunları xatırlamaq, Qərbi Azərbaycandan olan soydaşlarımızın başına açılan müsibətləri yada salmaq mənim üçün çox ağırdır...

***– Hidayət müəllim, bildiyimizə görə siz həmin dövrdə hiddətinizi, laqeyd və bivec hakimiyyətə qarşı mübarizənizi Azərbaycan mətbuatında dərc etdirdiyiniz ən kəskin yazılarınızda göstərmisiniz. Yəqin buna görə təzyiqlərlə də az qarşılaşmamısınız?***

– Əlbəttə, Azərbaycanın başına gələn bəlalarla, respublika rəhbərliklərinin səriştəsizliyi, qətiyyətsizliyi, milli mübarizlikdən uzaq fəaliyyəti ilə barışıb susa bilməzdim. Mənim mübarizəm, silahım da söz idi, süngüm qələmim idi.

Kamran Bağırov hakimiyyətdən gedəndən sonra onu Əbdürrəhman Vəzirov əvəz etdi. Əbdürrəhman Vəzirovun Azərbaycan rəhbərliyinə təyinatından az bir vaxt sonra mənim “Azərbaycan gəncləri” qəzetində “Əsl vətəndaş kimi” sərlövhəli bir səhifəlik çox kəskin məqaləm çap olundu. Məqalədə əsasən məni narahat edən məsələlərdən danışırdım.

Qəzet çap olunan günü “Gənclik” nəşriyyatındakı baş redaktor kabinetimdə telefon susmaq bilmirdi. Əsasən də yazını oxuyub təqdir edənlər zəng vurur, təşəkkürlərini bildirir və cəsarətli fikirlərimi bəyəndiklərini, onlarla razılaşdıqlarını söyləyirdilər. Birdən nəşriyyatın direktorunun katibəsi kabinetimə gəlib bildirdi ki, sizi Mərkəzi Komitədən telefona çağırırlar. Gəldim direktorun otağına, dəstəyi götürüb danışanda gördüm Vahid Əzizdir. Yeri gəlmişkən onu da deyim ki, haqqında əvvəl söhbət açdığım Stepanakert görüşlərimizdə Vahid Əziz əsl milli ruhlu Azərbaycan məmuru kimi özünü çox cəsarətli və ləyaqətli aparırdı.

Elə ilk sualı mən verdim. Dedim: “Niyə bura zəng vurmusan, mənim telefon nömrəmi bilmirsən?” Dedi: “Allah kömək olmuş, sənə düşmək olur ki...” Sonra da qayıtdı ki, axşam saat 6-da gəl Əfrand Daşdəmirovun yanına. Soruşdum ki, nə məsələdir. Dedi: “Sənin bu gün bir məqalən çap olunub?” Cavab verdim ki, bəli. Sual verdi ki, nə haqdadır? Gülə-gülə dedim: “Yenidənqurma haqqında”. Nə isə razılaşdıq.

Nəşriyyatın direktoru Fikrət Axundov da bütün danışdıqlarımızı eşidir. Dəstəyi qoyandan sonra öz aramızda söhbətləşdik ki, problem nə ola bilər. Fikrət qayıtdı ki, “sənin məqaləndə belə bir yer var, yazırsan “Mərkəzi aparata işə götürəndə anket suallarından biri belədir: rus dilini necə bilirsən? Bir adam soruşmur ki, ana dilin Azərbaycan dilini necə bilirsən!” Fikrət dedi olsa, bu yerlə bağlı iradları olacaq. Amma milli ruhda yazılan başqa məqamlar da vardı.

Axşam getdim Mərkəzi Komitəyə. Daşdəmirovun kabinetinə Vahid Əzizin kabinetinin qarşısından keçib gedirsən. Qapısı açıq idi, boylandım ki, həmin qəzet əlində məqaləmi oxuyur. Dedi: “Soruşsa, deyərsən Vahid Əziz oxuyub, bəyənib, deyir əladır.”

Əfrand Daşdəmirovla ilk görüşüm idi. Salamlaşdıq, yer göstərdi, oturdum. Öz tərəfindən təşəkkür etdi yazıya görə. Bəzi məqamları xatırladıb fikirlərini söylədi. Sonra dedi: “Vizirov (rus dilli olduğu üçün belə deyirdi) bu gün sizin məqaləni oxuyub. O sizi mütləq qəbul edəcək. Mən çağırıb sizə təşəkkür etmək istədim. Bir də istəyirəm erməniləri yumşaldan bir yazı yazasınız”. Mən də razılıq verdim. Stepanakertdəki hadisələrlə bağlı fikirlərimi ona da söylədim və xahiş etdim ki, Vəzirova çatdırsın.

Sonra bir yazı yazdım, sərlövhəsi də belə idi: “Həqiqət kar deyil”. Göndərdim Vahid Əzizə. O da Əfrand Daşdəmirova çatdırıb. Guya o da göndərib “Azərbaycan gəncləri” qəzetinə ki, çap eləsinlər. Çap olunmadı. “Molodyoj Azerbaydjana” qəzetinə guya göndəriblər, onlar da çap etməyiblər. Sonralar o qəzetdə işləyən Yusif İsmayıl adlı çox tanınmış bir jurnalist mənə dedi: “Mərkəzi Komitə belə pryomlar çox işlədir. Yazı yazdırır, sonra onu alırlar ki, çap elətdirəcəklər, amma heç yerdə də çap elətdirmirlər. Bu yolla kəskin yazıların qarşısını alırlar”. Bir müddət gözlədim, gördüm həqiqətən məqalədən bir xəbər çıxmadı. Sonra məqaləni “Ulduz” jurnalında çap etdirdim.

Vəzirov bilirdi ki, mən onu qəbul etmirəm. Çünki o Azərbaycana gələndən sonra Qarabağ məsələsi qaldı bir yana, başladı ağzına gələni danışmağa. Heydər Əliyevə qarşı materiallar yazdırır, xüsusi adamlar seçib onun əleyhinə çıxışlar etdirirdi. Mən də sözümü məqalələrimdə deyirdim. Bir dəfə də Azərbaycan KP MK-nın Bürosunda demişdi: “Mı kak mojem nemnoşka rasslabit İdayata?” Rafiq Zeynalov da demişdi: “Poslednıy vremya on molçit”. Vəzirov da 3 dəfə qayıdıb ki, “Yevo molçaniya toje opasna!”

20 Yanvar hadisələrindən sonra da Bakıdan gizlincə qaçıb gedən Vəzirov utanmadan başladı ağzına gələni danışmağa. Mən də ona mətbuat vasitəsilə çox sərt bir məktub yazdım.

Ondan sonra da Ayaz Mütəllibov Azərbaycanın birinci katibi oldu. O da bu hadisələrin qarşısını almaq üçün heç bir tədbir görə bilmədi. Hətta SSRİ-nin saxlanması ilə bağlı referendumun nəticələrini saxtalaşdırıb, Moskvaya xoş gəlsin deyə, Azərbaycan vətəndaşlarının guya İttifaqın saxlanmasına səs verdiyini məruzə etdi. Heç bir neçə ay keçməmiş SSRİ də dağılıb getdi.

***– Hidayət müəllim, sualım bəlkə də ənənəvi görünə bilər, amma bu suala sizin cavab verməyiniz oxucularımız üçün çox maraqlı olar. Heydər Əliyev həmin illərdə hakimiyyətdə olsaydı 1988-1992-ci illərdə olan hadisələr baş verərdimi?***

– Qətiyyən mümkün deyildi ki, Qarabağ münaqişəsi, ermənilərin törətdikləri vəhşiliklər, xalqımızın başına açdıqları fəlakətlər baş versin. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi ilk dövrlərdə belə cəhdlər çox olmuşdu, amma onun qətiyyəti, dərin zəkası, ağlı erməniləri dərhal yerlərinə otuzdurmuşdu. Mən bunu əvvəldə də dedim ki, Heydər Əliyevin hakimiyyətdən getməsini ermənilər ümumxalq bayramı kimi qeyd etdilər. Çünki uzun illər Heydər Əliyev onlara baş qaldırmağa əsla imkan verməyib. Onların ağlına da gəlməzdi ki, Ulu öndər yenidən Azərbaycana rəhbərlik edəcək və onların planlarını öz dərin zəkası, nüfuzu və qətiyyəti ilə tarixin zibilliyinə atacaq.

Ermənilərin Qarabağ xülyası köksərində elə dərin iz qoyub ki, onlar hələm-hələm bu xəstəlikdən qurtaran deyillər. Bununla bağlı sizə bir əhvalatı danışım: Məşhur və çox istedadlı bir erməni aktrisası vardı. O tamaşada bir taxta parçasını öz balası əvəzi qucağına alıb elə yana-yana oxşayırdı, hamı elə bilirdi ki, bu, həqiqətən onun balasıdır. Sonra ərinin verdiyi əzablardan, cəmiyyətin verdiyi zülmlərdən danışır və qəfildən oxşadığı doğma balasını atırdı orekstrovkaya (səhnədən aşağada orkestrin yeri). Bütün zal hıçqırırdı ki, balasını atdı. Ermənilər özlərini elə inandırıblar, elə beyinlərinə yeridiblər ki, guya Qarabağ da, Naxçıvan da, Van da, Qars da, hətta başqa ərzilər də onlarındır.

Şükürlər olsun ki, Prezidentimiz İlham Əliyev ulu öndərimiz Heydər Əliyevin bütün arzularını elə mükəmməl, elə ağıllı və diplomatik qətiyyətlə həyata keçirdi ki, ermənilərə heç bir şans qoymadı. Bundan sonra Azırbaycan Prezidentinin “Dəmir yumruğu” gərək onları ayılda. Ayıltmasa, Prezidentimiz demişkən dəmir yumruq yerindədir. Bu dəfə Ali Baş Komandanımızın “Dəmir yumruğu” onları yüzilliklər əvvəl köç edib yiyələndikləri torpaqlardan da məhrum edəcək. Çünki möhtərəm Prezidentimizin azərbaycanlıların doğma yurdları olan Qərbi Azərbaycana, Zəngəzura qayıdacağı ilə bağlı verdiyi vədlər Ermənistanın az-çox sağlam qüvvələrinin canına qorxu salıb. Yəni onlar başa düşürlər ki, erməni xülyaları, arzuları puç oldu.

Amma Prezidentimiz İlham Əliyevin misilsiz siyasi gedişləri və diplomatiyası, dərin zəkası və Ali Baş Komandan kimi böyük sərkərdəlik istedadı sayəsində qazandığımız Zəfər bizi yuxuya verməməlidir. Düşməni zəif hesab edib ehtiyatımızı əldən buraxmamalı, daha da diqqətli olmalıyıq.

Bəli, bu Zəfər tariximizin son 250 ilində, ümumiyyətlə, Azərbaycan tarixində xalqımıza, millətimizə böyük qürur yaşadan möhtəşəm bir hadisədir. Bu Zəfərlə öyünməklə yanaşı, onu nəsildən-nəslə ötürməyin məsuliyyətini də dərk etməliyik.

***– Maraqlı müsahibəyə görə redaksiyamız adından sizə təşəkkür edirik.***

***Müsahibəni qələmə aldı:***
***İlqar RÜSTƏMOV***
***XQ***

# Ekoloji məsələlər üzrə işçi qrupunun iclası



**Zəngilan rayonunun Ağalı kəndində Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Ekoloji məsələlər üzrə işçi qrupunun növbəti iclası keçirilib.**

İclasda işçi qrupda təmsil olunan müvafiq dövlət qurumlarının nümayəndələri, Cəbrayıl, Qubadlı, Zəngilan, Ağdərə, Xocalı, Laçın, Kəlbəcər, Şuşa, Ağdam, Füzuli, Xocavənd rayonlarında və Xankəndi şəhərində Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliklərinin, eləcə də Bərpa, Tikinti və İdarəetmə Xidmətlərinin nümayəndələri iştirak ediblər.

İclasda işçi qrup üzvləri və dəvət olunan digər qurumların nümayəndələri tərəfindən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında infrastruktur layihələri həyata keçirilərkən və yaşıllıqların götürülməsi zamanı ekoloji tələblərin icra vəziyyəti, xüsusi mühafizə olunan təbiət ərazilərinin fəaliyyətinin bərpası və yeni yaradılan milli parklar haqqında, meşə fondu sahələrinin uzaqdan zondlama üsulu ilə inventarlaşdırılması, yer təkindən istifadə sahəsində görülən işlər, filiz, qeyri-filiz, şirin və termal mineral su yataqlarının, kəhrizlərin mövcud vəziyyəti və onlardan istifadə perspektivləri, Cəbrayıl rayonunda mövcud kəhriz sistemlərinin bərpası istiqamətində, bu ərazilərdə ekoloji pozuntuların qarşısının alınması, təhlükəsiz bərk tullantıların idarə olunması ilə bağlı görülmüş işlər, bu ərazilər üzrə xarici su təchizatı, kanalizasiya və yağış suları sisteminin tikintisi layihəsi çərçivəsində icra olunmuş tikinti-quraşdırma işləri haqqında iclas iştirakçılarına məlumat verilmişdir. İclasda iştirak edən digər qurumların nümayəndələri tərəfindən infrastruktur layihələri həyata keçirilərkən ekoloji icazələrlə bağlı qaldırılan məsələlər və müvafiq qurumlar arasında kommunikasiyanın gücləndirilməsi, fəaliyyətin əlaqələndirilməsi məqsədilə Əlaqələndirmə Qərargahı tərəfindən verilmiş tapşırıqların icrası ilə bağlı məsələlər müzakirə edilib.

İclasdan sonra iştirakçılar Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında təhlükəsiz bərk tullantıların idarə olunması ilə bağlı yeni alınmış texnikalarla tanış olublar.

# Azərbaycan –ABŞ: Dini məsələlər üzrə fikir mübadiləsi



**Fevralın 27-də xarici işlər nazirinin müavini Elnur Məmmədov ölkəmizdə səfərdə olan Amerika Birləşmiş Ştatlarının Beynəlxalq Dini Azadlıq Komissiyasının (BDAK) nümayəndə heyəti ilə görüşüb.**

Komissiyanın sədri Stefen Şnekin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş zamanı Azərbaycan–ABŞ ikitərəfli münasibətlərində humanitar sahənin komponenti kimi dini məsələlər üzrə iki ölkə arasında əməkdaşlıq əlaqələrinə, o cümlədən dövrümüzdə qarşılıqlı hörmət əsasında və dinc yanaşı yaşamaq praktikasının inkişaf etdirilməsində multikulturalizm və dini dözümlülük kimi dəyərlərin əhəmiyyətinə dair fikir mübadiləsi aparılıb.

S.Şnek səfərin ötən bir il ərzində Azərbaycanda dini məsələlərin tənzimlənməsində əldə olunmuş təcrübə ilə bilavasitə tanış olmaq üçün həyata keçirildiyini bildirib. O, bu məqsədlə səfər çərçivəsində Azərbaycanda bir sıra aidiyyəti dövlət qurumlarının nümayəndələri və müxtəlif dini icmaların təmsilçiləri ilə görüşlərin nəzərdə tutulduğunu qeyd edib.

Nazir müavini E.Məmmədov Azərbaycanda tarixən mövcud olan köklü və nümunəvi multikulturalizm və dini dözümlülük ənənələrinin bu gün beynəlxalq miqyasda ən ali səviyyələrdə təqdir olunduğunu bildirərək ölkəmizin bu istiqamətdə hər zaman qarşılıqlı təcrübə mübadiləsində maraqlı olduğunu vurğulayıb.

# Xalqımıza qarşı çoxsaylı cinayətlərin törədilməsində təqsirləndirilən şəxslərin məhkəməsi davam etdirilir



**Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və adətlərini pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, Davit Babayan, Lyova Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə məhkəmə prosesinin baxış iclası fevralın 27-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər – Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, habelə müdafiələri üçün vəkillərlə təmin olunub.

Məhkəmənin baxış iclasında təqsirləndirilən şəxslər və onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, habelə dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

İclasın əvvəlində hakim Zeynal Ağayev məhkəmə prosesinə erməni dilinə yeni tərcüməçi qoşulduğunu elan edib. Tərəflər tərcüməçiyə etiraz etməyib.

Budəfəki məhkəmə iclasında təqsirləndirilən şəxslər sərbəst ifadə veriblər.

Məhkəmə iclasında sədrlik edən dindirməni başlayarkən təqsirləndirilən şəxslərin hər birinə onlara elan edilmiş ittiham və həmin ittihamın hərtərəfli, tam və obyektiv baxılması üçün əhəmiyyətli olan digər hallar barədə ifadə verməyi təklif edib.

Əvvəlcə təqsirləndirilən şəxs Arkadi Qukasyan ifadə verib. O, Ermənistanın Azərbaycana qarşı apardığı təcavüzkar hərbi müharibə nəticəsində ölkəmizə və xalqımıza qarşı həyata keçirilən çoxsaylı cinayət əməllərinin törədilməsində iştirak etdiyinə görə ittiham olunur.

A.Qukasyan deyib ki, Ermənistan Respublikası Qarabağın qarantı kimi çıxış etmişdi: “Təbii ki, bu həll olunmamış məsələlər qrupunda kiçik Qarabağ öz müdafiəsini konflikt həll olunana qədər təkbaşına həyata keçirə bilməzdi”.

O, 2020-ci ildə 44 günlük müharibə zamanı Qarabağda olduğunu bildirib: “Bu, o vaxta təsadüf etdi ki, mən Qarabağa gəlmişdim. Demək olar ki, müharibənin 2-ci günü biz digər “keçmiş prezident” Bako Sahakyanla birgə Arayik Harutyunyanla görüş tələb elədik.

Biz onunla görüşdük. Ondan xahiş etdik ki, əlindəki bütün imkanlardan istifadə edərək Ermənistandan müharibəni dayandırmağı xahiş etsin”.

A.Qukasyan iddia edib ki, Qarabağ ərazisində heç bir muzdlu olmayıb: “Müdafiə Nazirliyi və Ermənistan ordusu olub, hansı ki, Ermənistan Respublikası tərəfindən maliyyələşdirilirdi”.

Ardınca təqsirləndirilən şəxs Bako Sahakyan ifadə verib. O, istintaqın gedişində hüquqlarının təmin olunduğunu bildirib: “2023-cü il oktyabrın 3-də bizi – məni, Arkadi Qukasyanı Qarabağdan Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin istintaq təcridxanasına gətirdilər. Həmin gün Bakı 12 saylı vəkil bürosunun vəkili Nigar Mirbabayeva Azərbaycan Respublikası tərəfindən mənim hüquqlarımı müdafiə etmək üçün təyin edildi. Mənə, həmçinin tərcüməçi təqdim edildi.

İstintaq prosesi zamanı müstəntiqim tərəfindən mənim bütün hüquqlarım təmin olunub ki, suallara tam şəkildə cavab verim. Həmçinin öz fikrimi bildirməyə və nöqteyi-nəzərimi də ortaya qoymağa şəraitim olub.

İstintaqın başlanğıcında mən bildirmişəm və həmin bəyanatı indi də vermək, təsdiqləmək istəyirəm ki, bu münaqişə, bu tarix cinayət və məhkəmə istintaqı predmeti deyil. Mən bu fikri bildirərkən də nə məhkəmənin, nə də istintaqın səlahiyyətlərini şübhə altına almamışam”.

Daha sonra təqsirləndirilən şəxs Arayik Harutyunyana sərbəst ifadə verməsi təklif olunub. O, ifadəsinə hazırlaşmaq üçün məhkəmədən əlavə vaxt istəyib. Məhkəmə təqsirləndirilən şəxsin xahişini nəzərə alıb.

Bundan sonra təqsirləndirilən şəxs Davit İşxanyan sərbəst ifadə verib. O, elan edilmiş ittihamlar üzrə özünü təqsirli bilmədiyini qeyd edib.

Sonra təqsirləndirilən şəxs Davit Babayan sərbəst ifadə verib. O da elan edilmiş ittihamlar üzrə özünü təqsirli bilməyib.

“İttiham aktında qeyd olunan əməlləri törətmək iqtidarında olmamışam. Azərbaycan xalqına qarşı nifrət təbliğ etməmişəm. Öz xalqımı sevirəm, lakin milliyyətçi deyiləm”, - deyə D.Babayan bildirib.

Məhkəmənin növbəti iclası martın 3-nə təyin olunub. Növbəti məhkəmə iclası təqsirləndirilən şəxslərin sərbəst ifadəsi ilə davam etdiriləcək.

# Ermənistanın Sumqayıt hadisələri ilə bağlı bəyanatında ölkəmizə qarşı tarixi faktlar saxtalaşdırılıb



**Ermənistan Xarici İşlər Nazirliyinin Sumqayıt hadisələri ilə bağlı 27 fevral tarixli bəyanatında ölkəmizə qarşı irəli sürdüyü iddialar tamamilə əsassız olmaqla yanaşı, tarixi faktların təhrif edilməsi və saxtalaşdırılmasıdır.**

Bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Ermənistan XİN-in Sumqayıt hadisələri ilə bağlı bəyanatına dair şərhində yer alıb.

“Bu bəyanat 1980-ci illərin sonlarından başlayaraq Ermənistanın Azərbaycana qarşı əsassız və qeyri-qanuni ərazi iddialarını həyata keçirmək məqsədilə zorakılıq əməllərini, Ermənistan ərazisində yaşayan azərbaycanlı əhalinin kütləvi qovulmasını, Azərbaycan xalqına qarşı terroru, etnik zəmində təxribatları və hərbi gücdən istifadəni ört-basdır etmək cəhdləridir.

Ermənistan XİN-nə xatırladırıq ki, Sumqayıtda etnik zəmində törədilən iğtişaş SSRİ və Ermənistan rəhbərliyinin, erməni şovinist ideoloqların və ekstremist təşkilatların öncədən düşünülmüş və planlaşdırılmış məqsədyönlü təxribatlarının tərkib hissəsi idi.

Həmçinin qeyd edək ki, SSRİ Baş Prokurorluğu tərəfindən hadisə ilə bağlı cinayət işi açıldığı, nəticədə iğtişaşların icraçıları və əlbir olan şəxslər, həmçinin ümumi sayı 32 nəfərdən ibarət qurbanlar müəyyən edildiyi hər kəsə məlumdur. Hadisənin qurbanları arasında 6 nəfər azərbaycanlının olması sübut edir ki, bu iğtişaşlar azərbaycanlı əhali tərəfindən həyata keçirilməmişdi.

Ermənistan XİN-in diqqətinə çatdırırıq ki, hadisələrin səbəbkarı, yürüşə başçılıq edən, şəxsən 6 nəfəri öldürən və erməni millətindən olan 3 qadına təcavüz edən şəxs milliyyətcə erməni olan Eduard Qriqoryan olub və onun barəsində Sumqayıtda yaşayan ermənilərin çoxsaylı şahid ifadələri toplanıb. Məhkəmənin qərarı ilə 12 il azadlıqdan məhrum edilən E.Qriqoryan cəzasını çəkmək üçün Ermənistana köçürülüb və daha sonradan azadlığa buraxılıb.

1988-ci il 27-29 fevral tarixli Sumqayıt hadisələri ilə əlaqədar məhkəmə prosesinin nəticələri ilə bağlı təqsirkar bilinən 92 nəfər barəsində həbs cəzası verilib, həmçinin bir nəfər ölüm cəzası alıb.

Müqayisə üçün onu da qeyd etmək istərdik ki, 1980-ci illərin sonlarında Ermənistan SSRİ-də azərbaycanlıların tarix boyu sıx yaşadıqları rayonlardan 300 minə yaxın əhalinin zorla qovulması zamanı 200-dən çox azərbaycanlının ölümündə təqsirli olanlar barəsində heç bir tədbir görülməyib.

Bununla yanaşı, Azərbaycan ərazilərinə qarşı hərbi təcavüz zamanı Ermənistanın Xocalı daxil olmaqla, bir çox şəhər və kəndlərdə törətdiyi çoxsaylı müharibə və insanlıq əleyhinə cinayətləri törədənlərdən heç kimin bu günədək hüquqi məsuliyyətə cəlb olunmadığı Ermənistan XİN-ə məlumdur.

Ermənistan XİN-nə xatırladırıq ki, Azərbaycan Respublikası beynəlxalq səviyyədə tanınmış suveren ərazisinin bir hissəsində Ermənistanın onilliklər boyu davam edən hərbi işğalına son qoyub, ərazi bütövlüyü və suverenliyini təmin edib.

Ermənistan tərəfinin guya ermənilərə qarşı 2023-cü ildə “etnik təmizləmə” siyasəti həyata keçirildiyi barədə iddialar səsləndirmək əvəzinə, nəinki indiki Ermənistan ərazisində, eləcə də işğal dövründə azərbaycanlılar və Azərbaycan irsinə qarşı törətdiyi cinayət əməllərinə nəzər yetirməsi daha faydalı olardı”, - deyə Ayxan Hacızadə qeyd edib.

# AQEM-in Yüksək Vəzifəli Şəxslər Komitəsinin iclası

**Fevralın 27-də Bakıda Azərbaycan Respublikasının sədrliyi ilə Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Yüksək Vəzifəli Şəxslər Komitəsinin iclası keçirilib. İclas fevralın 26-da Bakıda keçirilən xüsusi işçi qrupunun görüşündən sonra reallaşıb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, Yüksək Vəzifəli Şəxslər Komitəsinin iclası zamanı Azərbaycanın AQEM sədrliyi AQEM-ə üzv ölkələr tərəfindən iddialı, zəngin və təşəbbüskar olaraq qiymətləndirilən 2025-2026-cı illər üzrə prioritet və təşəbbüslərini təqdim edib.

Komitə, həmçinin Azərbaycan sədrliyinin 2025-ci ildə Bakıda AQEM beyin mərkəzlərinin illik forumunun keçirilməsi ilə bağlı təşəbbüsünü ehtiva edən AQEM beyin mərkəzlər forumunun illik hesabatını nəzərdən keçirib və təsdiqləyib.

Müzakirələr, həmçinin Azərbaycan sədrliyinin üç əsas prioritetindən biri olan AQEM-in institusional bazasının möhkəmləndirilməsinə yönəlib. AQEM-ə üzv dövlətlərin nümayəndə heyətləri AQEM-in maliyyə sammitinin və AQEM Qadın Şurasının institutlaşma məsələlərini nəzərdən keçirib, həmçinin etimad quruculuğu üzrə müvafiq sahələrdə işləri təhlil ediblər.

Azərbaycan 2024-2026-cı illər üzrə Asiyada mövcud yeganə qarşılıqlı fəaliyyət platforması olan AQEM-ə “Daha güclü AQEM: Asiyada qarşılıqlı əlaqə, rəqəmsallaşma və dayanıqlı inkişaf” devizi altında sədrlik edir.



Azərbaycan Respublikası sədrliyi dövründə AQEM-in daha da möhkəmləndirilməsinə, qarşılıqlı maraq doğuran müxtəlif sahələrdə praktiki əməkdaşlığın genişləndirilməsinə və Asiyada təhlükəsizlik, əməkdaşlıq və inkişaf məsələləri üzrə digər beynəlxalq və regional təşkilatlarla qarşılıqlı fəaliyyətin gücləndirilməsinə üstünlük verəcək.

Azərbaycan çoxtərəfli diplomatiya üzrə zəngin təcrübəsindən vasitə kimi istifadə edərək üzv dövlətlər arasında əməkdaşlığın və dialoqun möhkəmləndirilməsində əhəmiyyətli irəliləyişə nail olmağa çalışır ki, bu da son nəticədə AQEM-in daha da möhkəmlənməsinə töhfə verəcək.



# Paytaxt qara, çovğuna “təslim” olmadı...

(əvvəli 1-ci səhifədə)

Qeyd edək ki, həmişə olduğu kimi, bu il də payızın ilk vaxtlarından etibarən Bakı Şəhər İcra Hakimiyyətinin tapşırıqları əsasında şəhərdə qarlı havalara hazırlığın vəziyyəti ilə bağlı kommunal, təsərrüfat xidmətləri, idarə və təşkilatların, təhsil müəssisələrinin, özəl sektorun nümayəndələrinin iştirakı ilə vaxtaşırı müşavirələr keçirilmişdi. Müşavirələrdə rayon xidmətlərinin soyuq qışa, xüsusilə güclü qar yağmasına hazırlığın vəziyyəti araşdırılmış, görülməsi zəruri işlər müzakirə edilmişdi.

Paytaxt rayonlarında keçirilən müşavirələrdə rayon icra hakimiyyətlərində qışa hazırlıqla bağlı yaradılan qərargahlar, kommunal və təsərrüfat xidmətləri və aidiyyəti təşkilatların rəhbərlərinin qarlı günlərdə üzərlərinə düşən vəzifələrin tam şəkildə yerinə yetirmələri üçün hazır olmaları qeyd edilmiş, hər bir quruma qarın təmizlənməsi üçün lazımi qədər alətin, inventarın (bel, kürək, ling və s.) toplanması, duz ehtiyatı yaradılması, xüsusi texnikaların vəziyyətinin yoxlanılması ilə bağlı tapşırıqlar verilmişdi.

Rayonlardakı küçə və məhəllələrin qardan təmizlənməsinə cavabdeh şəxslərin siyahıları hazırlanmış, bu işlərə kommunal qurumların texnikası ilə yanaşı, idarə, təşkilat, bələdiyyə və özəl qurumların da mövcud texnikalarının cəlb edilməsi qərara alınmışdı. Həmçinin rayonlardakı idarə, təşkilat və özəl qurumlar, bələdiyyələr, o cümlədən ictimai iaşə müəssisələrinin rəhbərlərinin, ictimaiyyət nümayəndələrinin qarlı günlərdə Avropa ölkələrində də reallaşdırılan qaydalara uyğun özlərinə aid ərazilərin təmizlənməsində yaxından iştiraklarına cağırış edilmişdi.

Qışa hazırlığın diqqət mərkəzində saxlanılması ilə bağlı Bakı Şəhər İcra Hakimiyyətinin hər bir rayona təyin etdiyi cavabdeh şəxslər yerli icra hakimiyyətlərinin nümayəndələri ilə birgə yerlərdə qış mövsümünə hazırlığı, verilən tapşırıqların və görülən işlərin, eyni zamanda, qarşıda duran vəzifələrin icra vəziyyətini mütəmadi yoxlayırdılar.



Bakı Şəhər İcra Hakimiyyətinin qış aylarında yağmurlu və şaxtalı hava şəraiti ilə əlaqədar rayon icra hakimiyyətlərində qışa hazırlıqla bağlı yaratdığı qərargahlar təlimatlandırılmışdı. Kommunal və təsərrüfat xidmətləri və aidiyyəti təşkilatların rəhbərlərinin diqqətinə həmin günlərdə üzərlərinə düşən vəzifələrin tam şəkildə yerinə yetirilməsinin zəruriliyi də çatdırılmışdı. Keçirilən müşavirələrdə kəskin soyuq, qarlı-şaxtalı keçən günlərdə rayonların ayrı-ayrı təsərrüfat xidmətlərinin xüsusi rejimdə çalışacağı, yaranan çatışmazlıqların aradan qaldırılması məqsədilə operativ tədbirlərin görüləcəyi də bildirilirdi.

Bütün bunlarla bərabər, Bakıda əsas, köməkçi məhəllədaxili yolların, səkilərin qardan vaxtında təmizlənməsi üçün cavabdeh təşkilatlar müəyyənləşdirilib, eyni zamanda, rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyinin tabeliyindəki xüsusi texnikalar saz vəziyyətə gətirilib, inventar, qum və duz tədarükü görülüb, işçilər arasında xüsusi iş qrafiki və növbətçilik təsdiq olunub. Rayonlarda təsdiqlənən tədbirlər planına əsasən, qərargah və operativ işçi qrupları yaradılıb, qış texnikası və nəqliyyat vasitələri hazır vəziyyətə gətirilib, texnikalara xidmət edən işçilərə isə təlimatlar verilib.

Qeyd edək ki, paytaxtın ayrı-ayrı rayon icra hakimiyyətləri ilə bərabər, xidmət müəssisələri də qışa hazırlıq planlarının icrasını xüsusi diqqətdə saxlayır. “Bakı Metropoliteni” QSC-nin sözügedən istiqamətdə fəaliyyəti bu baxımdan mühüm önəm daşıyır.

“Bakı Metropoliteni”ndən verilən məlumata görə, qışa hazırlıqla bağlı QSC-də xüsusi işçi qrupu yaradılıb. İşçi qrupu elektrik depoları, metropoliten stansiyaları və digər obyektlərdə həm infrastrukturun, həm sərnişindaşıma xidməti sektoruna daxil olan sahələrin, həm də işçilərin əmək şəraitinə uyğun bütün sahələrdə araşdırma aparıb və buna uyğun qərarlar verib. Metronun bütün stansiyalarının çıxışları qum və duzla təmin olunub, yəni qarlı və şaxtalı hava şəraitində stansiya keçidlərində, pilləkənlərdə olan buz örtüyünün əridilməsi üçün bütün lazımi ehtiyatlar görülüb. Bundan əlavə, ləvazimatların hər biri alınaraq stansiyalara təhvil verilib.

Güclü qar yağan zaman yeraltı qatarların bir yoldan digərinə keçərək xəttə çıxması maneələr yarada bilər. Buna görə də üfürücü qurğuların, eyni zamanda, işçi personalının hazırlığı ilk dəfə bu işə cəlb olunacaq əməkdaşların xüsusi təlimatlandırılması, onların qəfil qar yağarsa, gecə növbəsində işə çıxarılması üçün əlaqə nömrələri, işə çatdırılma vasitələri, işdə olarkən çalışdıqları dövr ərzində məişət ehtiyaclarının ödənilməsi və geyim məsələləri tam həllini tapıb.

Xatırladaq ki, Bakı Şəhər İcra Hakimiyyətinin və paytaxt rayonlarının kommunal strukturları paytaxtda intensiv yağan qarın təmizlənməsi ilə əlaqədar artıq bir neçə gündür ki, gucləndirilmiş iş rejimində fəaliyyət göstərir. Qurumun mətbuat xidmətindən verilən xəbərə görə, şaxtalı hava şəraitində gecə və səhər saatlarında xidmətlərin xüsusi təyinatlı texnikası tərəfindən maili yerlərə, sürüşmə ehtimalı olan küçə və prospektlərə texniki duz səpilir.

Səhər tezdən kommunal xidmətlərin əməkdaşları, işlərə cəlb olunan əlavə işçi qüvvəsi tərəfindən metro stansiyaları, avtobus dayanacaqları, piyada səkiləri, küçə boyunca ictimai-iaşə və digər obyektlərin, təhsil, səhiyyə və digər müəssisələrin qarşısının təmizlənməsi, buz bağlamış yerlərə duz səpilməsi və digər təmizlik işləri həyata keçirilir. Bununla əlaqədar paytaxtın müxtəlif ərazilərdə texniki duz toplanan məntəqələr mövcuddur. Ümumilikdə, bu işlərə 100-ə yaxın xüsusi texnika və 2000-dəb çox işçi qüvvəsi cəlb edilib. Təmizlik işləri gün ərzində davam edir.





Paytaxtın kommunal xidmətləri şəhərin müxtəlif ərazilərində operativ təmizlik işlərinin həyata keçirilməsini diqqətdə saxlayırlar. Kommunal xidmətlərin avtonəqliyyat vasitələri və əməkdaşları tərəfindən prospekt və küçələrin kənarlarının çirklənmədən təmizlənməsi, səki kənarları, bordyurların və buradakı işıq dirəklərinin yuyulması, yol kənarlarına yığılan çirkabların təmizlənməsi davamlı olaraq həyata keçirilir. Küçə və prospektlərdə yerləşən ictimai iaşə və digər obyektlərin fasad və vitrinləri təmizlənir.

Eyni zamanda, Bakı Şəhər Yaşıllaşdırma Təsərrüfatı Trestinin əməkdaşları yol kənarlarındakı yaşıllıq zolaqlarını qardan təmizləyir, sinmış ağaclar budanır, digər lazımı işlər həyata keçirilir. Təmizlik işləri gün ərzində paytaxtın bütün rayonlarında aparılır və görülən işlər Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən nəzarətdə saxlanılır.

Daxili İşlər Nazirliyinin Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi qarlı hava şəraiti ilə əlaqədar paytaxt yollarındakı vəziyyətə dair mütəmadi məlumatlar yayıb. Qurumdan verilən son məlumata görə, qarlı hava şəraitinin olması axşam və gecə saatlarında, eləcə də hazırda paytaxt yollarında nəqliyyatın hərəkətində ciddi problemlər yaratmayıb. “Mərkəzin müşahidə kameralarının təsir zonasında yol-nəqliyyat hadisələrinin baş verməsi, texniki nasaz avtomobillərin yolda qalması müşahidə edilməyib. Gecə saatlarında Zığ dairəsi–Hava limanı yolunda, Heydər Əliyev prospektində, Mərdəkan şosesi və Buzovna–Zağulba yolunda buzlaşma olduğundan sürücülərin təhlükəsizliyini təmin etmək məqsədilə sürət həddi endirilib, müvafiq olaraq bütün tablolarda “buzlu yol” işarəsi qoyulub. Bununla yanaşı, təhlükəsizliyi təmin etmək, baş verə biləcək qəzaların, texniki nasaz avtomobillərin yolda qalması səbəbindən yaranan nəqliyyat sıxlığını vaxtında aradan qaldırmaq üçün yol polisinə mütəmadi məlumatlar ötürülür”, – deyə məlumatda bildirilib.

Qarla müşahidə olunan kəskin hava şəraiti nəqliyyat vasitələri ilə yanaşı, piyadaların hərəkəti üçün də ciddi çətinliklər yaradır. Respublika Təcili və Təxirəsalınmaz Tibbi Yardım Mərkəzinə qarlı hava şəraiti ilə əlaqədar indiyədək 347 nəfərin müraciəti qeydə alınıb. Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin məlumatına görə, onlardan 315 nəfər müxtəlif travmalarla müvafiq tibb müəssisələrinə hospitalizasiya olunub. Müraciət edənlərdən 32 nəfərə yerində yardım olunub.

Belə xoşagəlməz halların baş verməməsi üçün piyadalar buzlu yollarda son dərəcə ehtiyatlı olmalıdırlar. Yeri gəlmişkən, son günlər ölkə ərazisində müşahidə edilən kəskin və yağıntılı hava şəraiti ilə əlaqədar Fövqəladə Hallar Nazirliyi əhaliyə təkrar müraciət edərək müvafiq təhlükəsizlik qaydalarına ciddi əməl etməyə çağırır. Müraciətdə qeyd olunur: “Yolların buz bağlaması hallarında piyadalar ayaqqabını sürüşməyə qarşı hazırlamalı, ehtiyatla, tələsmədən, ayaqqabını yerə bütövlükdə basaraq hərəkət etməlidirlər. Buzlu yolda sürüşsəniz, zərbənin gücünü azaltmaq üçün oturun, yıxıldığınız halda isə qollarınızı büküb diyirlənərək zədə almaqdan qorunun. Yaşlı insanların rezin ucluqlu əsadan, yaxud ucları batıcı olan xüsusi çubuqdan istifadə etməsi tövsiyə olunur”.

Eyni zamanda, Baş Dövlət Yol Polisi İdarəsi də hava şəraiti ilə bağlı gücləndirilmiş rejimdə fəaliyyətini davam etdirir. İdarədən bildirilib ki, xüsusilə, magistral yollarda nəqliyyatın təhlükəsiz hərəkətini təmin etmək məqsədilə yol polisi əməkdaşları fasiləsiz xidmət aparır. Eyni zamanda, aidiyyəti qurumlarla birgə yolların təmizlənməsi və nəqliyyatın fasiləsiz hərəkətinin təmin olunması istiqamətində müvafiq tədbirlər görülür.

Yol Polisi qarlı hava şəraiti ilə əlaqədar hərəkət iştirakçılarına təhlükəsizlik qaydalarına ciddi əməl etməyi bir daha xatırladaraq bildirir ki, sürücülər sürət həddini hava və yol şəraitinə uyğun seçməli, qəfil manevrlərdən çəkinməli, avtomobillərin texniki vəziyyəti, xüsusilə şinlərin vəziyyəti yoxlanılmalı, əyləc sisteminin işlək olduğuna əmin olunmalı, görüş məsafəsinin məhdudlaşdığı hallarda yaxın işıqlar yandırılmalı və digər nəqliyyat vasitələri ilə təhlükəsiz məsafə saxlanılmalı, eləcə də dumanlı havada və ya buzlu yollarda sürücülər xüsusilə ehtiyatlı olmalı, sərt tormozlamadan çəkinməlidirlər. Eyni zamanda, piyadalar da yolun görünməsinə və sürücülərin onları vaxtında görə bilməsinə diqqət etməlidirlər.

***XQ-nin analitik qrupu***

# Naxçıvanda şəhid övladları üçün “Qış düşərgəsi”

**Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli “YAŞAT” Fondunun Naxçıvanda təşkil etdiyi “Qış düşərgəsi"ndə iştirak edən şəhid övladları ilə görüşüb.**

Fuad Nəcəfli bildirib ki, Azərbaycan artıq Qarabağ problemini həll edib, şəhidlərimizin qisasını alıb, suverenliyini təmin edib. Ümummilli lider Heydər Əliyevin yolunu uğurla davam etdirən ölkə başçısı, Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə bu gün Qarabağda və Şərqi Zəngəzurda geniş quruculuq işləri görülür, Böyük Qayıdış konsepsiyası həyata keçirilir. Bütün bunlar istər birinci, istərsə də ikinci Qarabağ müharibələrində döyüşmüş şəhid və qazilərimizin hünəri, axıdılan qanı ilə əldə olunub.

Bildirilib ki, dövlətimiz Vətən fədailərinin igidliyini, qeyrətini unutmur, onların övladlarını daim xüsusi qayğı ilə təmin edir. “YAŞAT” Fondunun bu layihəsi də bu qayğının davamı kimi mühüm əhəmiyyət kəsb edir. Ötən il “YAŞAT” Fondunun Naxçıvanda təşkil etdiyi “Yay düşərgəsi"-ni xatırlayan səlahiyyətli nümayəndə layihəni şəhid övladlarının təcrübə və geniş dünyagörüşü əldə etməsi, ən əsası isə yeni dostluq münasibətləri qurması baxımından yüksək qiymətləndirib, düşərgə iştirakçılarına xoş istirahətlər və gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

“YAŞAT” Fondunun rəhbəri Elvin Hüseynov Vətən şəhidləinin əmanətlərinə xüsusi qayğı ilə yanaşıldığını vurğulayıb, layihənin təşkilinə göstərilən dəstəyə görə minnətdarlığını ifadə edib. Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev ölkəmizdə ilk dəfə Naxçıvanda şəhid övladlarının iştirakı ilə “Qış düşərgəsi”nin təşkil olunduğunu diqqətə çatdırıb.

***XQ***



# Müstəqil dövlətçilik və dövlət dili



II MƏQALƏ

## Aristotel demişdi ki...

Müasir mərhələdə dövlət dilinin hüquqi və ictimai funksiyalarının bir-birini tamamlamalı olması yönündə daha aydın təsəvvürə malik olmaq üçün qədim yunan filosofu Aristotelin dövlət haqqında fikirlərinə qısa nəzər salaq.

Aristotel əsrlərlə bundan öncə dövlətin yaranması və inkişafını kollektiv miqyasda ünsiyyətlə əlaqələndirmişdi. O "Politika" əsərində yazırdı ki, dövlət cəmiyyədə ünsiyyətin özüninkişaf etdirməsinin təbii yekun təzahürüdür. Yəni toplumun həyatında insanlar arasında münasibətlərin kommunikasiya aspekti, bütövlükdə, etnosun mövcudluq şərtlərinə həlledici təsir edir. Cəmiyyətin dövlət qurmaq kimi "təbii tələbatı" bundan qaynaqlanır. Kollektiv ünsiyyətin inkişafı özlüyündə cəmiyyətin idarə olunması tələbatını yaradır və dövlət bu tələbatın mükəmməl şəkildə yekun olaraq tam ödənməsini ifadə edir.

Aristotelə görə, dövlətin yaranması və funksiyasında ünsiyyət (indiki terminlə dil) aparıcı rol oynayır. Hətta qədim yunan filosofu hesab edir ki, dövlətin formalaşması "cəmiyyətin özünü tam rahatlaması, özünüyaratması, sakitliyi özündə tapmasıdır". Bu mənada etnos öz dövlətində özünü tapır, sabitləşir və kollektiv varlıq kimi mövcud ola bilir. Eyni zamanda, onun davamlı inkişafı dövlətçilik vasitəsilə şəxsi varolmanın xüsusi təcrübəsinə çevrilir.

Deməli, hələ Aristotel iki min il öncə ünsiyyəti, bütövlükdə, cəmiyyətin, o cümlədən onun dövlətinin varolmasının əsas aparıcı faktoru kimi dərk etmişdir. Qərb fəlsəfi düşüncəsində dövlət haqqında Aristotelin bu fundamental anlamı hələ də ciddi dəyişikliyə uğramamışdır. Təbii ki, çoxlu sayda incəlikləri olan yanaşmalar meydana gəlmişdir. Lakin ümumi fəlsəfi fikir axını kimi Qərb dövlət fəlsəfəsi Aristotelin intellektual və metodoloji "sərhədləri"ndən kənara çıxmamışdır. Ancaq burada bir incə məqamı ayrıca vurğulamaq lazımdır.

## Lulli layihəsi

Orta əsrlərdə Avropada Raymond Lulli adlı bir keşiş dünyanın təkamül xəttini korrektə edən layihə ortaya atdı. O, kriptotəlim yaradaraq əsaslandırmağa çalışdı ki, ümumiyyətlə, dünyanın mövcudluğu və təkamülü xristian dininin həqiqətləri üzərindədir. Ona görə də, bütövlükdə, insan elminin əsas məqsədi xristian həqiqətlərini bu və ya digər şəkildə əsaslandırmaqdan, təbliği və təşviqindən ibarət olmalıdır. Yəni bu həm də "elm" adlanan insan fəaliyyətinin əsas vəzifəsi olmalıdır.

Bu yanaşma çərçivəsində R.Lulli özünün ümumi tezislərdən başlayaraq, konkret müddəalara qədər geniş idraki fəaliyyəti əhatə edən kriptosistemini yaratdı. Ona elə mexanizm verdi ki, məntiqi olaraq elmi fəaliyyət hər ümumi tezisdən alttezislərə keçid etməyə imkan olsun. Bu proses nəticəsində Lulli layihəsinə əsasən, bütün dünyəvi dinlər (İslam, Buddizm, İudaizm) xristian həqiqətlərinin doğruluğunu qəbul etməli və ona uyğun yaşamalıdır.

Lulli layihəsinin sadə ifadəsi belədir: İnsanın intellektual fəaliyyətinin hər bir növü, ilk növbədə, elm, xristian həqiqətlərinin doğruluğunu sübut etməyə və onun bütün bəşəriyyət tərəfindən bilərək və ya bilməyərək qəbul etməsinə xidmət göstərməlidir. Xeyli absurd və "qeyri-obyektiv" görünən bu iddia, çox maraqlıdır ki, artıq neçə əsrlərdir elmin bütün sahələrinin arxa planında motivəedici rol oynayır. Yəni təəccüblənəcəksiniz, hətta riyaziyyat, fizika, biologiya, fəlsəfə belə Lullinin kriptolayihəsi üzrə inkişaf edir. Məsələnin bu tərəfinin sübutu geniş və dərin yanaşma tələb edir. Onun üzərində dayanmaq imkanı yoxdur. Lakin əsas sual bu məqalədə belədir: Lulli kriptolayihəsinin dövlət dilinə nə aidiyyəti var?

Bu günlərdə belə bir eksperiment aparmışıq. Süni intellektə tarixi yaddaşla bağlı sual verilmişdir. Onun cavabının məzmunu belədir: Avropada tarixi yaddaş Lullinin təlimi əsasında məzmunlaşmışdır. Hətta süni intellektin idraki funksiyalarının ilkin primitiv variantı kimi Lullinin müddəalarını götürmək olar! Buradan dövlətçilik və dövlət dili məsələsinə məntiqi keçid etmək maraqlıdır.

## Cəmiyyət dil məkanı kimi

Sizcə, Aristoteldən Lullliyə hər hansı intellektual və məntiqi bir "yol" vardırmı? Aristotel deyir ki, dövləti ünsiyyət yaradır, Lulli iddia edir ki, hər hansı həqiqət xristian dinindən qaynaqlanır və indi Qərb cəmiyyətlərinin tarixi yaddaşı bu təməl tezis üzərində formalaşmışdır. Bu iki tezisi dil məkanında sintez edək.

Belə alınır ki, dövlətin mövcudluğunda həqiqətlərin ifadəsi prinsipial rol oynayır, həqiqətlər isə xristian dinindədir. Onda həqiqətlərin hansı dildə necə ifadə edilməsinin, ümumilikdə, fərdi və kollektiv səviyyədə toplum üçün prinsipial əhəmiyyəti vardır. O cümlədən təhsildə əldə edilən biliklər tarixi yaddaşın məzmununa ciddi təsir edir. Onda təhsil də dolayısı ilə xristian dini və Avropa dillərindən birinin fəaliyyət məkanında formalaşan özəl bir struktur-funksional vahiddir. Bu mənada, elmlə təhsilin inteqrasiyası xüsusi layihə təsiri bağışlayır.

Lullidən sonrakı əsrlərdə yaşayıb-yaratmış Qərb mütəfəkkirləri həmin tezisi çox fərqli formalarda, lakin mahiyyətcə fərqlənməyən məzmunda əsərlərində təqdim etmişlər. İndi hətta robotların ingiliscə danışması təsadüfi deyildir. İndi "ingiliscə yaradılmış" süni intellekt belə Lullini tanıyır, ona "yaddaş əcdadı" kimi baxır. Məhz bu məqamda "yaponca danışan" robotla, "çin dilində danışan robotun" ruhu "ingilis robotdan" fərqlənir.

Bundan daha əsas olanı indi bütün dünyanın sanki özündən asılı olmayaraq, ingilis dilində danışmasıdır. Heç bir ciddi elmi konsepsiyada ingilis dilinin dünya ünsiyyət dili olmadığı əsalandırılmır. Əksinə, hamı ona tərəf "qaçır" və bunu təbii sayır! Heç kəs şübhə etmir ki, müasir mərhələdə hər bir cəmiyyəti onun dili yaradır. Hansı dildə düşünür, yazır, oxuyur və danışırsa, insan kimliyi odur! Qan mənsubluğu arxa plana keçmişdir. Mədəniyyət və dil ön plana çıxmışdır. Düşünək: "XXI əsr elm yüzilidir" tezisi bütün bunların fonunda nələri ifadə edir?

Əslində, çox şeyləri ifadə edir. Onların sırasında da bəzilərinin arqument kimi ortaya atdıqları iki tezisin təhdidi xüsusi yer tutur: "filan xalqın mədəniyyəti və dili böyükdür, ona görə də o dildə danışmaq inkişafdır" və ya "hansı dildə istəyirsən danış, onun dövlətçiliyə və milliliyə nə aidiyyəti var, hətta yad dil də olsa, o dildə təhsil daha faydalıdır"... İlk baxışdan "mədəniyyət", "sivilllik" kimi görünən bu mövqe faktiki olaraq istənilən cəmiyyətin öznəməxsusluğunu və deməli, dövlətçiliyini və mədəniyyət məkanını məhv etməyə istiqamətlənmişdir! Bu tezisi deyənin onu anlayıb-anlamamasının məsələyə dəxli yoxdur!

## Dövlət dili və millilik

Yuxarıdakı fəlsəfi xarakterli əsas tezislərə vahid məntiqi bucaq altında baxmağa çalışaq. Birincisi, dövlət dili cəmiyyətin əsas ünsiyyət dili olması səbəbindən hüquqi funksiyalarla yanaşı, toplumu bütövləşdirən, inteqrasiya edən əsas kommunikativ faktor rolu oynamağa məhkumdur. Bu da onu göstərir ki, dövlət dili faktiki olaraq müəyyən tarixi dönəmdə toplumun mövcudluğunun ünsiyyət məkanını və onun sərhədlərini müəyyən edir. Dilin necədirsə, kollektiv həyatının sərhədləri ona uyğun formalaşır. Əgər məntiqi düşüncəyə imkan verən sözlər çoxluq təşkil edirsə, toplum rasional düşüncə məkanında mövcud olacaqdır. Əsasən "söyüş, qarğış və primitiv məişəti" ifadə edən sözlər çox olacaqsa, o cəmiyyətdə real inkişaf, elmilik, sivillik çətin ki, aparıcı olsun (xatırlayaq – bir sıra imperiyaların rəsmi sənədlərində "türk gənclərə söyüş dilində danışmağı öyrədin" təlimatı olmuşdur). "Oğru" dilində danışan cəmiyyətdə dövlətin hüququ çətin ki, işləsin və s.

Belə alınır ki, "millilik" dil və onun linqvistik özəllikləri ilə sıx bağlıdır ("dil xalqın qəlbinin aynasıdır" – Humbolt). O cümlədən, dil konkret dövlət və cəmiyyətin bütövlüyünün məzmununu təşkil edir. Bu o deməkdir ki, hansı dilin əsas ünsiyyət vasitəsi olması xeyli dərəcədə cəmiyyətin kimliyini müəyyən edir. Yəni kiminsə istədiyi dildə danışaraq, dövlətin müstəqilliyinə və cəmiyyətin bütövlüyünə xidmət edəcəyini düşünməsi yarımçıq həqiqətdir. Burada o qədər şərtlər meydana çıxır ki, bu iddianın düzgünlüyünü müəyyən etmək belə problemli olur. Bir tərəfdən, insan haqları kimi qaydalar, digər tərəfdən, insanın şəxsi taleyi və üçüncü tərəfdən isə fərdin mənsub olduğu toplumun Aristotel mənasında bütövlüyünü təmin etməsi zərurəti. Və bütün bunları tənzimləyən ümumi mexanizm olmaldır. Buradan hər bir cəmiyyətin özəl tarixi-mədəni və dövlətçilik ənənəsinin olması məsələsi prizmasında dil faktoruna baxmaq ehtiyacını görmək olar.

## Dövlətin və cəmiyyətin bütövlüyü

I məqalədə dünya təcrübəsindən gətirilən nümunələr, Aristotel, Lulli yanaşmalarının yekun halında məntiqi müqayisəsi göstərir ki, hər bir xalqın və dövlətin özünün bütövlüyünü təmin etmək ənənəsi mövcuddur. Məsələn, Vyetnam təcrübəsi Azərbaycan üçün qətiyyən keçərli deyildir. Və ya inkaların təcrübəsinin Azərbaycana aidiyyəti yoxdur. Eyni məntiqlə Avropa və ya Amerika təcrübəsi bizim üçün aksiom kimi qəbil edilən faktor ola bilməz. Bəli, dövlət və dil məsələsində Azərbaycanın öz tarixi və ənənəsi mövcuddur. İndi dil və müstəqilliklə bağlı müşahidə edilən müzakirələrin (hətta dartışmaların və müəyyən mənada didişmələrin) başlıca səbəbi bu özəlliklə bağlıdır.

Azərbaycanlılar dövlətin və cəmiyyətin bütövlüyünə ənənəvi olaraq çox həssaslıqla yanaşmışlar. Bu yanaşmanı fərqləndirən əsas xüsusiyyət azərbaycanlı psixologiyası və şüurunda ənənədən gələn kollektviçiliyin özəl təsəvvürləri həlledici rol oynamışdır. Bu keyfiyyətin təməlində azərbaycanlıların kollektiv olaraq özünütəşkilinin xüsusi qanun (həm də hüquq mənasında işlədilir) üzrə baş verməsidir. Bu qanun azərbaycanlının iliyinə qədər o dərəcədə möhkəm oturuşmuşdur ki, dəyişməz koda çevrilmişdir. Onu dəyişmək mümkün deyildir.

Məhv etmək də imkansızdır, çünki toplumun özünü təşkilinin Yosun Qanunu bunu sığortalayır. Hər nə etsələr də, zaman-zaman azərbaycanlı ruhu, mədəniyyəti, mənəviyyatı və əxlaqı dağıdıcılıq təsirlərinə qarşı ciddi təpki verəcəkdir və Yosun Qanununun kimliyimizə oturuşdurduğu özünüyaratmaq fəlsəfəsi hər zaman qalib gələcəkdir. İndi dövlət dili ilə bağlı gedən müzakirələrin kontekstində məsələnin bu tərəfi üzərində dayanaq. Həmin prizmada, o cümlədən ölkəmizdə Azərbaycan dilinin dövlət dili kimi funksiyası ilə onun rəsmi dil kimi funksiyasını müqayisə edə biləcəyik.

Ayrıca, cəmiyyətimizdə nəyə görə Azərbaycan dilindən başqa, heç bir dilin, o cümlədən, rus, ingilis və ya fars dillərinin birləşdirici, cəmiyyətin bütövlüyünü təminedici funksiya yerinə yetirə bilməyəcəyini əsaslandırmaq imkanı yaranacaqdır. Cəmiyyəti birləşdirə bilməyən dilin isə üstün olması qətiyyən yolverilməzdir. Xüsusi ilə Azərbaycanda bu, keçərli ola bilməz.

Bunların fonunda bir sıra real milli mövqeli vətənpərvərlərin keçirdikləri dil narahatlığı anlaşılandır, lakin Azərbaycan dili elə özyetərli, özünüyaradan dildir ki, onun mövcudluğuna və funksiyasına ciddi təhlükələr yoxdur, olması da gözlənilmir. Hətta sovetlərin ən möhkəm dönəmində Heydər Əliyev Azərbaycan dilini dövlət dili statusuna yüksəltmişdi. Lakin bu, arxayınlaşmağa əsas vermir. Azərbaycan dilinin dövlət dili kimi inkişafını zəiflətməyə qətiyyən yol vermək olmaz. Bu isə artıq dil siyasəti ilə bağlı olan məsələdir.

Bu prizmada öncə Azərbaycan dilinin sinharmoniya qrupuna daxil olan dil kimi özəlliklərinə baxaq. Doğrudan da, Azərbaycan dilinin adi harmoniyalığı deyil, sinharmoniya olması nə deməkdir? Burada "sin" sözönü kimi nəyi ifadə edir? Onun əlamətləri və ümumi xüsusiyyətləri nələrdir? Biz dilimizin yaranma, işləmə və inkişafetmə fəlsəfəsini yaratmışıqmı?

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# "Ermənistandan Ermənistana yol"?

## *Yaxud Nikol Paşinyanın eyniləşdirmə cəhdinə sözardı*

**Ermənistanın baş naziri Nikol Paşinyan hakim "Vətəndaş sazişi" Partiyasının üzvləri ilə qapalı görüşündə Azərbaycanın sülhlə bağlı 12-ci təkliflər paketini müzakirə edib. Yerli medianın yazdığına görə, o, iki saata yaxın danışıb və partiya üzvlərinə tələsməməyi məsləhət görüb, habelə Bakının təkliflərinin ciddi nəzərdən keçirilməsinin vacibliyini bildirib.**

Hazırda Azərbaycanla Ermənistan arasında eskalasiya təhlükəsinin olmadığını deyən baş nazir ona ünvanlanan sualların heç birinə konkret cavab verməməsi ilə diqqət çəkib. Hətta, hakim komanda üzvlərində hökumət rəhbərinin onlara etibarsız yanaşdığına dair təəssürat da yaranıb. Etibarsız yanaşma barədə sonda söz açacağıq.

Hələlik isə...

Ondan başlayaq ki, Bakının İrəvana ünvanladığı 12-ci təkliflər paketi barədə Ermənistanın xarici işlər nazirliyinin məlumatı olub. Məlumatda bildirilib ki, təkliflər sırasında regional kommunikasiyaların açılmasına və qarşılıqlı şəkildə silahlanmaya nəzarət mexanizmlərinin yaradılmasına dair heç nə yoxdur. Yəni Ermənistanın bununla əlaqədar irəli sürdüklərinə Bakının cavabı istisna təşkil edir. Ancaq N.Paşinyan jurnalistlərə açıqlamasında, ümumən, təkliflər paketinin gündəmdə olmasını müsbət qiymətləndirib. O anlamda ki, paket sülh prosesinin dalana dirənmədiyini göstərir. Hər halda, Nikol belə qənaətdədir. Daha sonra isə o deyib ki, indi İrəvan öz təkliflərini təqdim etməlidir. Deməli, təkliflər mübadiləsi hələ ki, davam edir.



Beləliklə, hazırda Azərbaycanın və Ermənistanın dövlət sərhədinin delimitasiyası üzrə komissiyalarının iş apardıqlarının pozitiv göstərici olaraq vurğulayan N.Paşinyanın sözlərindən belə çıxıb ki, rəsmi İrəvanın Bakıya cavabı da hazırdır. Baxmayaraq ki, yerli media "Vətəndaş sazişi"nin iclasında onun təkliflər üzərində işləmək göstərişi verdiyini açıqlamışdı və mövcud məqamı az əvvəl diqqətə çatdırdıq.

Nə isə, Paşinyan bildirib ki, Azərbaycanın Ermənistanın irəli sürdüyü həll yolunu müsbət cavablandıracağına ümidvardır. "Açığını desəm, mən təhlil edirəm və çox düşünürəm ki, Azərbaycan niyə bizim təklifimizə mənfi cavab verməlidir? Obyektiv təhlil göstərir ki, ondan (təkliflər nəzərdə tutulur – red.) imtina üçün heç bir əsas yoxdur. Söhbət Ermənistanla Azərbaycan arasında dəmir yolu nəqliyyatından, yəni Qərbi Azərbaycandan Naxçıvana və Ermənistandan Ermənistana – Yerasxdan Mehriyə qədər olan əlaqədən gedir. Həm də hər iki ölkə beynəlxalq yükdaşımaları üçün bir-birinin ərazisindən keçən dəmir yollarından istifadə etmək imkanı qazanacaq", – deyən Paşinyan onu da bildirib ki, Ermənistan Azərbaycanla dəmir yolunun istismar şərtlərini daha da sadələşdirməyə hazırdır.

Qeyd edək ki, N.Paşinyan əvvəllər də bu barədə söz açmışdı. Söhbət Ermənistanın Naxçıvana yolda sadələşdirilmiş keçidə razılığından gedir. Nəzərə alsaq ki, Ermənistan XİN-in açıqlamasında Azərbaycanın regional kommunikasiyaların blokdan çıxarılması ilə bağlı rəsmi İrəvanın təklifini cavablandırmamasına dair fikir var. Belə düşünmək mümkündür ki, Nikol da məhz ondan danışıb və deyib ki, etirazın səbəbini bilmir. Başqa sözlə desək, o, ölkəmizin məqbul saymadığı variantı, bir növ, ictimailəşdirib.

Əlbəttə, mahiyyət Paşinyanın bildirdiyi kimi deyil. O mənada ki, Azərbaycan Naxçıvana yolun "Azərbaycandan Azərbaycana yol" kimi fəaliyyət göstərməsində maraqlıdır və dəfələrlə bəyan edib ki, həmin ərazidə sərhəd və gömrük nəzarəti olmamalıdır. Ölkəmiz bunu həm 44 günlük müharibə məğlubu Ermənistanın 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatla üzərinə götürdüyü öhdəliyin icrasının vacibliyi baxımından dəyərləndirir, həm də tarix nöqteyi-nəzərdən Azərbaycanın Naxçıvanla quru yolunun mövcudluğu amilinə söykənir. Rəsmi Bakının güzəşti Naxçıvana gedəcək yolun hüquqi cəhətdən Ermənistana məxsusluğunu qəbul etməsidir. İrəvan isə məsələnin belə qoyuluşunu ərazi bütövlüyünə və suverenliyə zidd olaraq qiymənləndirir. İndi Paşinyanın bildirdiklərindən belə nəticə hasil olur ki, Ermənistan əvvəlki mövqeyində qalır. Ona görə də, Bakının İrəvanın təklifini niyə qəbul etməməsindən təəccüblənməməlidir. Əksinə, təəccüblənən tərəf biz olmalıyıq. Çünki Ermənistan 2020-ci ildən indiyədək bir məsələnin həllinə, daha doğrusu, üzərinə düşən işin yerinə yetirilməsinə əhəmiyyət vermir. Göründüyü kimi, yenə hansısa sadələşdirilmiş mexanizm güzəştindən danışır.

Onu da bildirək ki, Nikolun dediklərində bir incə məqam var. Diqqət yetirdinizsə, o, ölkəsinin təklifində Yerasxdan Mehriyə gedən yoldan danışır, fikrini "Ermənistandan Ermənistana yol" məntiqi ilə izah edir. Coğrafi baxımdan yanaşsaq, həmin yol indiki Ermənistan ərazisindən keçir. Halbuki, marşrut Naxçıvandan keçsə, daha qısa və sərfəli olar. Dolayısı ilə Paşinyan "Ermənistandan Ermənistana yol"dan danışmaqla Yerasx-Mehri marşrutunu, Azərbaycanın Naxçıvana yolla bağlı irəli sürdüyü "Azərbaycandan Azərbaycana yol" məntiqi ilə eyniləşdirir. Tam mümkündür ki, məhz bunu nəzərdə tutur: əgər Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən yolda heç bir gömrük və sərhəd nəzarəti olmayacaqsa, o zaman Ermənistanın bir ərazisini o biri ərazisi ilə bağlayan yolda da eyni prosedur tətbiq edilməlidir. Elə isə o, nəyə görə sadələşdirilmiş keçid mexanizmindən də danışır? Prinsipcə danışmamalı, konkret olmalıdır.

Bəli, N.Paşinyan açıq şəkildə gömrük və sərhəd nəzarətinin olmamasından söz açmır. Yəni onun söylədiklərində xeyli dəqiqləşdirilməli məqamlar var. Aydındır ki, Naxçıvana yol (Zəngəzur dəhlizi) qlobal marşrutun tərkib hissəsidir. Bəs Yerasx-Mehri marşrutu nədir? Onun nə kimi strateji əhəmiyyəti var? Nəzəri baxımdan yanaşsaq, bu yol da Zəngəzur dəhlizinin, böyük anlamda götürsək, qlobal marşrutun tərkibində götürüləcək yoldur. Ermənistan öz əraziləri arasındakı məsafəni qısaldacaq. Ancaq məsələnin digər tərəfi var. Çox güman, Paşinyan daha çox daxili auditoriyanı sakitləşdirmək niyyətindədir. Yəni göstərmək istəyir ki, əgər Azərbaycan Ermənistan ərazisindəki 43 kilometrlik Mehri yolundan gömrük və sərhəd nəzarəti olmadan gəliş-gediş edəcəksə, Ermənistan da Azərbaycan ərazisindən, yəni Naxçıvandan keçməklə öz ərazisinə doğru yön almaq ixtiyarını qazanacaq.

Rəsmi Bakının məsələnin sırf belə qoyuluş ehtimalı ilə razılaşıb-razılaşmayacağı da qeyri-müəyyəndir. Ancaq indidən bəzi məsələləri vurğulamaq mümkündür. Əvvəla, Nikolun Ermənistanın ərazi bütövlüyü və suverenliyi klişesindən uzaq dayandığı müsbət hal kimi qiymətləndirilə bilər. İkincisi, Paşinyan "Dünyanın kəsişməsi"ndən söz açmır. Halbuki, son günlərədək bu məsələ erməni xarici siyasətinin gündəmində idi.

Sonda isə əvvəldə haqqında söz açdığımız etibarsızlıqdan danışaq. Bildirdik ki, erməni hakim komandasının üzvlərində Paşinyanın Azərbaycanın təklifləri ilə bağlı onlara etimad bəsləməməsinə dair təsəvvür formalaşıb. Əslində, böyük ölçüdə götürüləcək problemlərdən biri də budur. Çünki indiyədək rəsmi İrəvan sülh yolunda qətiyyətli mövqe tutmayıb. Ona görə ki, erməni iqtidarı monolit deyil. Ermənistan hakimiyyətində Qərbin ayrı-ayrı cinahlarına işləyənlər, həmin cinahların sifarişlərini yerinə yetirənlər yetərincə çoxdur. Nəzərə alaq ki, belələrinin də rəsmi İrəvanın ümumən nəzərə çarpan qeyri-konstruktiv davranışına və Bakı ilə sülhə gəlməməsinə subyektiv təsiri var. Uzun sözün qısası, Nikolun bu gün söylədiklərini sabah da dilə gətirəcəyi şübhəlidir. Hərçənd, onun indi barəsində söz açdıqları məqamlarda da mübahisələndirilməli parametrlər kifayət qədər çoxdur.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Qərbi Azərbaycana Qayıdış ümummilli hədəfdir






**Dünən Bakı Mühəndislik Universitetində Azərbaycan Dövlət Pedaqoji Universiteti və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə "Biz qayıdacağıq!" mövzusunda elmi-praktiki konfrans keçirildi.**

Milli Məclisin deputatı Məlahət İbrahimqızının moderatorluq etdiyi məclisdə dövlət və hökumət rəsmiləri, Qərbi Azərbaycan İcmasının rəhbərliyi və üzvləri, millət vəkilləri, alimlər, media təmsilçiləri qayıdış hərəkatının uğurlarını və qarşıda duran hədəflərini geniş müzakirə etdilər. Açılış nitqi ilə çıxış edən rektor Yaqub Piriyev Vətən müharibəsi və Qarabağda keçirilmiş antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpa edilməsinin hazırkı dövrdə Qərbi Azərbaycandan deportasiya edilmiş soydaşlarımızın tarixi yurd yerlərimizə qayıdışını gündəmə gətirdiyini söylədi. O bildirdi ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyət və iradəsi, Azərbaycan xalqının müdrikliyi və sülhsevərliyi Qərbi Azərbaycana qayıdış konsepsiyasının da uğurlu həllini təmin edəcək.

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü, ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, professor Mahirə Hüseynova ali məktəblərdə tarixi torpaqlarımıza qayıdışla bağlı maarifləndirmə tədbirlərinin önəmini vurğuladı. Professor azərbaycanlıların ayrı-ayrı illərdə Ermənistandakı dədə-baba torpaqlarından deportasiyasını, işgəncələrə məruz qalmasını, müxtəlif toponimlərimizin dəyişdirilərək erməniləşdirilməsini tarixi faktlarla diqqətə çatdırdı.

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri Əziz Ələkbərli isə ictimai təşkilatın indiyədək gördüyü işlər barədə geniş məlumat verərək qeyd etdi ki, qayıdış məsələsi artıq ictimai şüurda möhkəmlənərək ümummilli bir ideyaya, bütün azərbaycanlıları səfərbər edən geniş hərəkata çevrilib. Tarixi torpaqlara qayıdış 38 ildən bəri məcburi köçkün həyatı yaşayan Qərbi azərbaycanlıların insanlıq haqqıdır.

Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev, Qərbi Azərbaycan İcması Müşahidə Şurasının sədri, AMEA-nın müxbir üzvü Misir Mərdanov, akademiklər Abel Məhərrəmov, Nizami Cəfərov, ADPU-nun rektoru, professor Cəfər Cəfərov və professor İbrahim Bayramov, AMEA Tarix və etnologiya institutunun şöbə müdiri Cəbi Bəhramov tarixi Vətənə qayıdışla bağlı mükəmməl təşkilatlanma və geniş maarifləndirmə ilə bağlı mülahizə və təkliflərini söylədilər.

*T.AYDINOĞLU*
*XQ*

# Mədəni irsimiz ölkənin mülkiyyətidir

**Milli İncəsənət Muzeyində Azərbaycan Respublikasının mədəni mülkiyyətinin qanunsuz dövriyyəsi mövzusunda dəyirmi masa keçirilib.**

Ölkəmizdə mədəni mülkiyyətin qorunması ilə bağlı həyata keçirilən işlərdən danışan mədəniyyət naziri Adil Kərimli qeyd edib ki, bu məsələ daim ölkə rəhbərliyinin diqqət mərkəzində olub və bu sahədə qanunverici bazanın təkmilləşdirilməsi üzrə mühüm işlər görülüb.



Bildirilib ki, ölkəmizdə tarixi abidələrin monitorinqi, inventarlaşdırılması, abidələrin bərpa və konservasiyası, tarix-mədəniyyət qoruqlarının fəaliyyəti, mədəni irsin qorunması (qanunsuz müdaxilələrin qarşısının alınması) hər zaman diqqətdədir. Azərbaycan mədəni irsin mühafizəsi məsələlərini tənzimləyən bütün beynəlxalq universal konvensiyalara qoşulub.

Nazir Birinci Qarabağ müharibəsi vaxtı və işğal illərində mənfur ermənilər tərəfindən Qarabağ və Şərqi Zəngəzurda daşınar və daşınmaz mədəni irsimizin məhv edilməsi və qanunsuz çıxarılmasından da söhbət açıb.

Mədəniyyət nazirinin müavini Fərid Cəfərovun moderatorluğu ilə davam edən tədbirdə Vəkillər Kollegiyasının üzvü Nazlı Əhmədova, Gömrük Komitəsinin sədr müavini Güloğlan Muradlı, Türkiyənin Mədəniyyət Nazirliyinin mədəni irs və muzeylər şöbəsinin müdir müavini Bülent Gönültaş və başqaları çıxış edərək mədəni mülkiyyətin qorunması sahəsində görülən işlərdən danışıblar.

*XQ*

# "Əli və Nino"– Azərbaycan multikulturalizminin bədii həqiqəti

**Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi Azərbaycan mühacir ədəbiyyatının dünya bestsellerinə çevrilmiş incisi olan "Əli və Nino" romanını Ukrayna dilində nəşr etdirib.**

Bu barədə XQ-yə məlumat verən mərkəzin şöbə müdiri Yadigar Məmmədli bildirdi ki, müəllifliyi Yusif Vəzir Çəmənzəminli və Məhəmməd Əsəd bəy (Leo Nissenbaum) arasında hələ də mübahisəli qalmış, ilk dəfə II Cahan savaşından əvvəl Vyanada "Qurban Səid" təxəllüsü ilə nəşr edilmiş bu əsər kimin tərəfindən qələmə alınmasına baxmayaraq, multikultural bir mühitin parlaq bədii əksi olaraq dünyada məşhurlaşmışdır. Ötən əsrin əvvəllərində Azərbaycan həyatındakı tolerantlığı təcəssüm etdirmiş, müxtəlif dilli və inanclı 2 gəncin qarşısıalınmaz sevgisini yüksək insanlıq dəyərinə çevirmiş bu qiymətli əsər dünyanın hər yerində soydaşlarımıza öyünc yaşadır, onlara ölkəmiz barədə xoş sözlər eşitdirir.





Qardaş Türkiyənin, Avropanın və ABŞ-ın tanınmış ədəbi tənqidçilərinin XX əsrin ən yaxşı romanlarından biri kimi qiymətləndirdikləri "Əli və Nino" bu gün də yeni-yeni xarici dillərə tərcümə edilir, milyonlarla sayılan tirajını çoxaldır. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin bu nəcib fəaliyyətə qoşularaq ukrayna dilində nəşr etdirdiyi bu dünya şöhrətli əsər Azərbaycan Ukrayna Konqresi İctimai Birliyinin müraciəti əsasında bu ölkənin Bakıdakı səfirliyinin tərcümə dəstəyi ilə işıq üzü görüb.

Qeyd edək ki, mərkəz yarandığı gündən Azərbaycanda yaşayan xalqların mədəniyyətinin, dilinin və adət-ənənəsinin qorunması istiqamətində müxtəlif layihələr həyata keçirir. Bunlardan biri də "Əli və Nino" əsərinin Azərbaycanda yaşayan müxtəlif xalqların dillərinə tərcümə edilərək çap olunmasıdır. Layihənin ideya müəllifi BBMM-in Himayəçilik Şurasının sədri akademik Kamal Abdullayev, layihəyə məsul şəxs isə mərkəzin icraçı direktoru Rəvan Həsənovdur.

"Əli və Nino"nun Ukrayna dilində nəşri bu seriyanın beşinci kitabıdır.

*T.RÜSTƏMLİ*
*XQ*

**Kamal Əhməd – 85**

# "Uşaq evləri"nin rəssam oğlu

## Səməd Vurğun bu uşağın böyük gələcəyinə inanmışdı

**Gözəl rəngkar, Əməkdar incəsənət xadimi Kamal Əhmədin taleyinə 2 dəfə ailəsindən, bacı-qardaşlarından ayrı yaşamaq düşüb: əvvəl atalı-analı ikən Ağdamdakı, sonra isə valideynlərini itirərək Şüvəlandakı uşaq evlərində qalıb. Amma ömrünün təlatümləri onun rəssamlıq istedadını boğa bilməyib.**





Şüvəlan uşaq evinin direktoru Kamalın rəssamlıq bacarığını görərək ondan qayğısını əsirgəmir, şəkillər çəkməsi üçün rəngli karandaşlar, fırça və sulu boya alıb gətirir, onu yanına salıb sərgilərə də aparır. Bir dəfə isə uşaq evi kollektivinin Səməd Vurğunla görüşündə Kamal şairin şeirlərini şövqlə söyləyir və alqışlanır. 8 yaşlı uşağın "cızmaqara" rəsmlərinə də baxan Səməd Vurğun onu qucağına alıb böyük gələcəyinin olacağını söyləyir.

Təsviri sənətə həvəsi Kamalı Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinə gətirib. Böyük şairdən sonra onun 2-ci xeyir-dua verəni ilk azərbaycanlı qadın rəngkar Vəcihə Səmədova olub. Realizm ənənələrinin, akademik normaların prinsipial tərəfdarı olmasına baxmayaraq, o, Kamalın işlərini çox bəyənib və gənc istedada kömək edib. Başqalarına bənzəməmək, tamamilə fərqli olmaq istəyən gənc rəssam sovet rəhbərlərinin portretlərini çəkmək istəmədiyi üçün təhsil prosesində böyük çətinliklərlə üzləşsə də, məktəbi birtəhər başa vurub.

Dahi fırça ustası Səttar Bəhlulzadə, Azərbaycan avanqardının banisi Cavad Mircavadov kimi sənətkarlarla tanışlığı, onların rəssamlıq barədə özəl fikirləri Kamala güclü təsir edib, qarşısında bənzərsiz üfüqlər açıb. O, Nizami və Füzulinin fəlsəfəsi ilə maraqlanıb, sənətinin Məcnunu kimi tərki-dünya olub. Poeziya, muğam, abstrakt və ideal aləm rəssamın varlığına hakim kəsilib.

Xaraktercə guşənişin olmağı sevən Kamal uzun müddət Abşeronun Görədil kəndində yaşayıb-yaradıb. Yerli sakinlər ona yarıuçuq bir evdə yaşamağa imkan yaradıblar. Evin qapısını, köhnə də olsa, parlaq boyalarını saxlamış kilim əvəz edib, işıq olmadığına görə rəssam gecələr balaca otağında ağ neft lampası yandırmalı olub. Onun ətrafını daha çox ürəyindəki sənət işığı nurlandırıb.

Abşeron mühiti, xüsusilə də Qobustan mənzərələri rəssama daim ilham verib. Bu ecazkar məkanın şor dadan yelləri, Ramiz Rövşən demişkən,"yağış yuyub, gün qurudan" qayalıqların üzərindəki təsvirlər – ibtidai insanların təbiətlə ünsiyyət kompozisiyaları onu ahənrüba kimi çəkib.

Dostları, həmfikirləri də vardı, amma Kamal Əhməd həyat yolunda tənha səyyah kimi dolanır və öz sirli aləminə heç kəsi yaxın buraxmırdı. Əsərləri haqqında danışmağı sevmir, rəngkarlığı ilə bağlı heç bir müzakirəyə yol vermir, bir növ, daxili aləmini hamıdan gizlədirdi. Qəlbindəkiləri yalnız fırçası ilə həsbi-halda, kətan üzərində yaratdığı obrazlar vasitəsi ilə ifadə edirdi.

Mütəxəssislərin dediyinə görə, Kamal Əhməd doğma rənglər dünyasında fikirlərini təsvirlərdə şifrələyib, illər ərzində müxtəlif assosiasiyalar yaradan metafora, simvol və "kod"lardan ibarət xüsusi dil yaradıb. Dərvişyana, yovuşmaz davranışları ucbatından ilk fərdi sərgisi də xeyli gec – 47 yaşında ikən baş tutub və uğurlu keçib.

Həmin sərgidən sonra şöhrət qapıları rəssamın üzünə taybatay açılır. 1988-ci ildə Moskvada Ümumittifaq sərgisinin diplomuna, 1989-cu ildə Xəzəryanı respublikaların (Azərbaycan, Qazaxıstan, Rusiya, Türkmənistan) I Biennalesində "Qran-pri" mükafatına layiq görülür. 1993-cü ildə Bakıda Novruz bayramına həsr olunmuş sərgidə Birinci mükafatın laureatı olur.

Amma, sən demə, cəmi bir neçə il ömrü qalıbmış və bu qısa müddətdə Kamal Əhmədin əsərləri ABŞ, İtaliya, Türkiyə, Polşa, Əlcəzair, Yaponiya və Rusiyada nümayiş etdirilib, rəssamın bir-birindən gözəl işləri muzeyləri və şəxsi kolleksiyaları bəzəməyə başlayıb. O, 1994-cü ildə, 54 yaşında dünyasını dəyişib. "Avtoportret. Çarmıxa çəkilmə" tamamlaya bilmədiyi sonuncu əsəridir, sanki ölməz ruhu ilə cismini seyr edir. Portretin yaratdığı ilk assosiasiya isə budur ki, həyatını bütünlüklə incəsənətə həsr edən sənətkara ölüm yoxdur...

2017-ci ildə Xalq Bank tərəfindən Kamal Əhmədin həyat və yaradıcılığına həsr olunmuş bədii albomun təqdimatı və əsərlərindən ibarət sərginin açılışı keçirilib. Qeyri-adi istedad sahibinin çətin taleyindən, yaradıcılıq manerasından danışılıb. Sərgi ilə tanışlıq bir daha onun böyük sənətkar olduğunu təsdiqləyib.

...Dairəvi sürət qatarında Sumqayıtdan Bakıya, işə gedirəm. Görədil dayanacağına çatanda qeyri-iradi olaraq pəncərədən ətrafdakı evlərə sarı boylanır, Kamal Əhmədin yaşayıb-yaratdığı yarıuçuq evi, qapı əvəzi parlaq boyalı kilimi görmək istəyirəm. Bu, mümkün olmasa da, bir anlıq elə bilirəm ki, qapı-kilimi aralayıb içəri keçdim. Rəssamın solmaz rənglər dünyasına varid oldum və gördüklərimə yenidən heyran qaldım.

*Əli NƏCƏFXANLI*
*XQ*

**Yeni filmlər**

# "Nəfəs" teleekranda yayıldı

**2023-cü ilin noyabr ayında keçirilən 14-cü Bakı Beynəlxalq Qısa Film Festivalında ən yaxşı rejissor nominasiyası üzrə qalib olan "Nəfəs" filmi fevralın 26-da Xocalı faciəsinin 33-cü ildönümü münasibətilə ilk dəfə olaraq "Mədəniyyət" kanalında yayımlanıb.**

Ekran həlli Elmar Bayramova məxsus əsərin ssenari müəllifi Ülviyyə Heydərova, prodüsserləri Elçin Ağazadə və Könül Kəngərli, bəstəkarı isə Vüqar Camalzadədir. Çəkilişləri İsmayıllıda aparılan film "Old stone pictures" və "Black Garden Company" şirkətlərinin Azərbaycan Diasporuna Dəstək Fondu ilə birgə əməkdaşlığı çərçivəsində ərsəyə gəlib. Xatırladaq ki, azərbaycanlı rejissorun sənət uğuru olan ekran əsəri 80 ölkədən 600 film arasından seçilib.

İnsanların ağrılarını-acılarını, erməni faşistlərinin törətdiyi vəhşiliyi 30 dəqiqəyə sığdırmaq heç də asan deyil. Bu film Azərbaycanın, Qarabağ müharibəsi dövründə xalqımıza qarşi törədilən qətliamın, başsız qalan ailələrin, gözüyaşlı körpələrin göylərə ucalan fəryadı, vicdanları oyadan haqq səsidir.



"Nəfəs" real hadisələrin motivlərinə əsaslanır. Birinci Qarabağ müharibəsində əsir düşənlərə həsr olunmuş bu əsər 1994-cü ildə erməni qaniçənlərin əsirinə çevrilmiş və həyatının 2 ili ağır işgəncələrdə keçmiş 18 yaşlı Bəxtiyar Nağıyevin həyat hekayəsindən bəhs edir. Filmdə müharibənin dəhşətlərini yaşamış, ağır psixoloji travma almış insanların sonrakı dövrdə cəmiyyətə yenidən uyğunlaşmasının çətinlikləri bədii ekranda həllini tapıb.

*Fidan SALMAN*
*XQ*

# ABŞ–Ukrayna: “nadir metallar” sövdələşməsi hara aparır?

**ABŞ Prezidenti Donald Tramp fevralın 26-da bildirib ki, Ukrayna Prezidenti Volodimir Zelenskinin cümə günü Vaşinqtona səfəri zamanı “nadir metallar və digər məsələlər haqqında” ABŞ–Ukrayna sazişi imzalanacaq. Prezident Zelenski də okeanın o tayına səfər edəcəyini təsdiqləyib. Bəs bu sövdələşmə tərəflərə hansı üstünlüklər qazandıracaq və ümumiyyətlə, ABŞ-ın Ukrayna resurslarına maraq göstərməsinin arxasında hansı amillər gizlənir?**



Ukraynanın baş naziri Denis Şmıqal məlumat verib ki, “Ukraynanın bərpası üçün İnvestisiya Fondunun qaydaları və şərtlərinin yaradılması haqqında Saziş” hazırdır. Söhbət minerallara dair qanuni məcburi olacaq “ilkin müqavilə” dən gedir. Eyni zamanda, ukraynalı nazir xəbərdarlıq edib ki, “nə Ukrayna prezidenti, nə də Ukrayna hökuməti bu sazişə və onun imzalanmasına təhlükəsizlik zəmanətlərindən ayrı baxacaq”. Baş nazirin sözlərinə görə, sənədin 10-cu bəndində bildirilir ki, ABŞ hökuməti Ukraynanın uzunmüddətli sülh yaratmaq üçün zəruri olan təhlükəsizlik zəmanətlərini əldə etmək səylərini dəstəkləyir. Şmıqal əlavə edib ki, növbəti addım beynəlxalq hüquqşünasların cəlb edilməsi ilə müqavilənin hərtərəfli işlənməsi olmalıdır. Bundan sonra təhlükəsizlik zəmanətlərinə yanaşmaların tətbiqi və sənədin son variantının hazırlanması işlərinə başlanılacaq.

Prezident Zelenski də öz növbəsində vurğulayıb ki, ilkin razılaşma başlanğıc nöqtəsi olacaq. O əlavə edib ki, sazişin uğuru onun ABŞ Prezidenti Donald Trampla söhbətindən asılı olacaq: “Bu gün beynəlxalq işlər çox olub. Komandalarımız Amerika ilə işləyir, bu cümə danışıqlara hazırlaşırıq...Sülh və təhlükəsizliyin təminatları Rusiyanın artıq başqa xalqların həyatını məhv etməməsinin açarıdır. Prezident Tramp ilə görüşəcəyəm. Mənim üçün və dünya üçün Amerikanın köməyinin dayandırılmaması vacibdir. Sülh yolunda güc lazımdır”. Dövlət başçısı əlavə edib ki, onun komandası tərəfdaşların hər birindən gələn dəstəyin həcmini təhlil edir.

Ukraynalı ekspert Sergey Sidorenko yazır ki, iki ölkə arasında imzalanacaq sənəd bütün suallara cavab vermir. Tərəflərin indi razılaşdıqları yalnız ümumi Ukrayna–Amerika fondunun yaradılmasına dair çərçivə sazişidir, qarşıda onun fəaliyyəti ilə bağlı yeni danışıqlar gözləyir. Bununla yanaşı, mütəxəssis güman edir ki, ilkin razılaşmanın imzalanması Tramp administrasiyası ilə münasibətlərin ən qıcıqlandırıcısı məqamının gündəmdən çıxmasına şərait yaradacaq.

Ukraynanın imzalanacaq sazişdən nə gözlədiyi məlumdur. Kiyevi təbii sərvətlər müqabilində etibarlı təhlükəsizlik zəmanəti istəyir. Bəs ABŞ-ın gözləntiləri nədən ibarətdir? Prezident Trampın sözlərinə görə, Ukrayna bu resursları ABŞ-a verməlidir ki, ölkə rəhbərliyi Rusiyaya qarşı müharibədə ona dəstəyini davam etdirsin. ABŞ lideri “Fox News”a müsahibəsində bildirib ki, Ukraynaya təxminən 500 milyard dollar ekvivalentində nadir metalları əldə etmək istədiyini deyib və Kiyev də buna razılaşıb. Prezident Trampın təklifi Ukraynada yerləşən mineral ehtiyatların ABŞ üçün nə qədər əhəmiyyətli olduğunu göstərir. Bəs onlar nə üçün lazımdır və Vaşinqton bunun müqabilində Ukraynaya nə təklif edə biləcək?

Bu suala cavab axtarmaqdan öncə bilmək lazımdır: Ukrayna nə qədər nadir metal ehtiyatlarına malikdir? Qeyd etmək yerinə düşər ki, “nadir metallar” dedikdə müasir texnologiya və sənayedə geniş istifadə olunan 17 kimyəvi oxşar element başa düşülür. Həmin elementlər smartfonların, kompüterlərin, tibbi avadanlıqların və s. istehsalı üçün çox vacibdir. Bu minerallar ona görə “nadir” adlanır ki, onların yataqlarına bütün dünyada rast gəlindiyinə baxmayaraq, saf formada tapmaq asan deyil. Bundan əlavə, nadir metallar tez-tez torium və uran kimi radioaktiv elementlərlə birlikdə tapılır, buna görə də onların çıxarılması böyük miqdarda zəhərli kimyəvi maddələr tələb edir. Bu da mədən prosesini çətinləşdirməklə yanaşı, həm də hasilatı bahalaşdırır.

Maraqlıdır ki, Ukraynada Avropa İttifaqının (Aİ) “kritik xammal” olaraq təyin etdiyi 30 elementdən 30-u var ki, bu da dünya ehtiyatlarının, təxminən, 5 faizini təşkil edir. Bu elementlərin yataqlarının tapıldığı bir çox ərazilər Ukraynanın cənubunda, əsasən, Azov dənizinin aşağısı hissəsində yerləşir. Həmin ərazilərin əksəriyyəti hazırda Rusiyanın nəzarəti altındadır, lakin Ukraynanın hələ də Orta Buq bölgəsində, eləcə də Kiyev, Vinnitsa və Jitomir vilayətlərində perspektivli layihələri var.

Mütəxəssislərin fikrincə, Ukrayna ərazisində bir neçə yüz perspektivli geoloji obyektin müəyyən edilməsinə baxmayaraq, onların işlənməsi iqtisadi cəhətdən məqsədəuyğun hesab edilərsə, onlardan yalnız bəziləri yataqlara çevrilə bilər. “Benchmark Mineral Intelligence” şirkətinin mütəxəssisi Adam Uebbin sözlərinə görə, ehtiyatlar barədə rəqəmlər çox nisbidir: “Bu mineral yataqlarının iqtisadi ehtiyatlar olduğunu sübut etmək üçün daha çox iş görülməlidir”.

“Forbes Ukraine” jurnalının məlumatına görə, faydalı qazıntı yataqlarının, təxminən, 70 faizi Donetsk, Dnepropetrovsk və Luqansk vilayətlərində yerləşir. Belə ki, onların bir çoxu Rusiyanın nəzarəti altında olan ərazilərdədir. Nadir minerallardan başqa, Ukraynada litium kimi mühüm element yataqları da var. Ukrayna hökumətinin məlumatına görə, ölkənin litium ehtiyatları, təxminən, 450 min ton təşkil edir. Litium hasilatı hazırda Ukraynada aparılmır, amma hökumət hasilata başlamaq barədə düşünür. Hazırda Donetsk vilayətində yerləşən Şevçenkovskoye və Berdyansk vilayətindəki Krutaya Balka kompleks filiz yataqları Rusiyanın nəzarətindədir. Ancaq Kirovoqrad vilayətindəki litium filizi yataqları hələ də Ukraynanın nəzarəti altındadır.

Bəs bu metallar ABŞ-ı niyə belə maraqlandırır? Politoloqların sözlərinə görə, ABŞ-ın nadir metalların və bəlkə də kritik mineralların istehsalına nəzarət etmək marağı, əsasən, Çinlə rəqabətdən irəli gəlir. Məsələ ondadır ki, son bir neçə onillikdə Çin nadir minerallarin hasilatı və emalı sahəsində liderə çevrilib. ABŞ-ın bu məsələdə Çindən asılı olması Tramp administrasiyasını həm milli təhlükəsizlik, həm də iqtisadi baxımdan narahat edir. Ona görə ki, bu materiallar mürəkkəb texnologiyaların yaradılması üçün lazımdır. Bu minerallar həm də məişət elektronikası, hərbi və naviqasiya avadanlıqları və ən əsası, süni intellekt məlumat mərkəzləri üçün tikinti bloklarıdır. Xatırladaq ki, ötən ay prezident Tramp ölkənin süni intellekt infrastrukturunun kütləvi şəkildə genişləndiriləcəyini açıqlamışdı. Bunun üçün strateji mineralların – əsasən mis, silisium, palladium və nadir elementlərin böyük ehtiyatları tələb olunacaq. Mühüm mineralların tədarükü artıq azalmağa başlayıb və bu da qlobal təmiz enerji artımının ləngiməsinin əsas səbəbi olub.

Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin məlumatına görə, onilliklər ərzində mütərəqqi təkrar emal texnologiyasına və təcrübəyə malik olan Çin indi təbii qrafit və disprosium ehtiyatlarının 100 faizinə, kobaltın 70 faizinə və bütün təkrar emal edilmiş litium və manqanın, təxminən, 60 faizinə nəzarət edir. Qrəb mediası yazır ki, Pekin Afrika, Asiya və Cənubi Amerikada iri mədənlərə sahib olmaqla, bütün dünyada əsas metallara ciddi nəzarət edir. Buna görə də, ABŞ-ın Nümayəndələr Palatasının Silahlı Qüvvələr Komitəsi sabiq prezident Co Bayden administrasiyası zamanı belə bir açıqlama yaymışdı ki, Çinin qlobal təchizat zəncirinə artan təsirinə qarşı çıxmaq üçün Birləşmiş Ştatlar öz kritik və strateji minerallar tədarükünü təmin etməlidir.

Belə görünür, Tramp administrasiyası Ukrayna və Qrenlandiyaya tədarük zəncirini artırmaq üçün innovativ üsullardan istifadə edə biləcəyi sahələr kimi baxır. Buna görə də Ağ ev təkidlə Kiyevi sənədi imzalamağa çağırır. Amma Vaşinqtonun iqtisadi maraqlarının təmin olunmasının qarşılığında Ukraynanın həyati vacib hesab etdiyi təhlükəsizliyə zəmanət verəcəkmi? Okeanın o tayından o qədər də aydın olmayan bəyanatlar belə deməyə əsas verir ki, ABŞ və Ukraynanı qarşıda ciddi və gərgin müzakirələr gözləyir.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

*(əvvəli 1-ci səhifədə)*

Artıq yardımın ləğv edilməsi istiqamətində də müəyyən işlər görülür. USAID-in əsas olmayan müqavilələri ləğv edilir. ABŞ Dövlət Effektivliyi Departamenti 78 müqavilənin “düzgün icra edilməməsi və ya gözlənilən nəticəni verməməsi” səbəbindən ləğv edildiyini bildirib. Müqavilələrin dayandırılmasından əldə edilən qənaət 110 milyon dollara çatıb. Bağlanan proqramlar arasında mediaya, jurnalistlərə və qeyri-kommersiya təşkilatlarına maliyyə dəstəyi də daxildir. Yardımını itirən nəşrlər arasında Amerikanın “Politico”, “The New York Times” qəzetləri və “Associated Press” agentliyi də var.

Əgər cavab vermirsinizsə, əslində, cəza veriləcək, fəaliyyətiniz bitəcək”.

O daha sonra deyib: “ABŞ-ın dövlət qulluqçuları, əgər İlon Maskın rəhbərlik etdiyi ABŞ Dövlət Effektivliyi Departamentinin tələbi ilə həftə ərzində yerinə yetirdikləri işlər barədə hesabat verməsələr, işdən çıxarılacaqlar”.

Bu açıqlamalardan da göründüyü kimi, tərəflər arasında gərginlik ketdikcə artır. Yada salaq ki, USAID-in maliyyəsinin kəsilməsi Tramp Administrasiyasının strategiyasının bir hissəsidir. Ağ evin məqsədi səmərəsiz və xərc tələb edən federal qurumlardakı bürokratiyanı azaltmaqdır. Bu siyasətin arxasında duran ideya ondan ibarətdir ki, yardım və




## USAID-in qara günləri hələ qabaqdadır

Bununla yanaşı, Prezident Administrasiyası USAID-in əksər işçilərini məcburi məzuniyyətə göndərməyi və işdən çıxarmağı da planlaşdırır. Yalnız kritik funksiyalara cavabdeh olan işçilər öz vəzifələrini yerinə yetirməyə davam edəcəklər. Bu barədə iqtidar öz planlarını memorandumda və çərşənbə günü təqdim edilmiş məhkəmə sənədlərində açıqlayıb.

Onu da qeyd edək ki, Tramp Administrasiyası xərcləri azaltmaq üçün daha bir təkliflə çıxış edib. Təklifə əsasən, federal qurumlar ofislərini paytaxt Vaşinqtondan ölkənin digər bölgələrinə köçürməlidir. Bildirilib ki, Ağ evin İnzibati-Büdcə İdarəsi və ABŞ hökumətinin kadr idarəsindən müvafiq bildiriş bütün federal qurumların rəhbərlərinə göndərilib. Onlar aprelin 14-dək Vaşinqtondakı xərclərdən daha az büdcə tələb edən digər regionlara ofislərin köçürülməsi planlarını təqdim etməlidirlər.

“Associated Press” agentliyinin qeyd etdiyinə görə, həmin qurumlar aprelin ortalarına qədər işçi heyətinin ixtisarı ilə bağlı planlar da hazırlamalıdırlar. Eyni zamanda, ABŞ Prezidentinin fərmanına əsasən, federal qurumlarda xərcləri azaltmaq və səmərəliliyi artırmaq məqsədilə ödənişlərə nəzarət sistemi yaradılmalıdır.

Qeyd edək ki, ixtisarlar siyasəti davam edərkən daha bir epizod ABŞ federal agentliklərini sarsıdıb. Bu, İlon Maskın hökumət rəsmilərinə həftə ərzində gördükləri işlər və işdən çıxarmalar haqqında beş əsas bənddən ibarət hesabat təqdimatı tələb etməsi ilə bağlı olub. “The New York Times” nəşri bildirib ki, məmurların bir çoxu bu tələbə qarşı çıxıb. Pentaqonun şəxsi heyəti üzrə rəhbəri Darin S.Selnik, işçilərin qiymətləndirilməsinin yalnız Müdafiə Nazirliyinin səlahiyyətində olduğunu və istənilən qiymətləndirmənin daxili prosedurlara uyğun aparılacağını deyib. Həmçinin ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru Basil Gabbard Jones təsdiqləyib ki, kəşfiyyat rəsmiləri təhlükəsizlik və məxfilik səbəbi ilə Maska hesabat verməməlidir. Federal Tədqiqatlar Bürosunun direktoru Kaş Patel də onlarla eyni fikirdə olduğunu bildirib.

Federal qurumların rəhbərlərinin etirazları isə Trampı narazı salıb: “Bu tələbin məqsədlərindən biri həmin insanların, ümumiyyətlə, mövcud olub-olmadığını müəyyənləşdirməkdir. Bizim nəhəng bir hökumətimiz var, bu, milyonlarla insan deməkdir. Heç kəs bilmir ki, hökumətdə kim işləyir, kim işləmir.

inkişaf üzrə işlər beynəlxalq əhəmiyyət kəsb etsə də, hökumət resurslarının israfı kimi qəbul edilir. Bu strategiya ABŞ Dövlət Effektivliyi Departamentinin rəhbəri, sahibkar İlon Mask tərəfindən də dəstəklənir.

İlk baxışdan hər şey yaxşı görünür. Amma medalın arxa tərəfi də var. Əslində USAID-in ixtisarı ABŞ-ın qlobal təsirini zəiflədəcək. Bu addım həm də beynəlxalq sabitlik üçün risklərlə bağlı suallar doğurur. Çünki Vaşinqtonun xaricdəki mövcudluğunun azalması digər qlobal oyunçuların təsir imkanlarını artıracaq. Bu da demokratlar arasında narahatlıqlar yaradır.

Xatırladaq ki, Trampın Vaşinqtonun digər ölkələrə yardımını 90 gün müddətinə dayandırmaq əmri yanvarın 20-də dərc edilib. Bu agentlik 1961-ci ildə qeyri-hərbi xarici yardım göstərmək üçün yaradılıb. Təşkilat onlarla ölkədə humanitar layihələri maliyyələşdirib, lakin bir sıra hallarda dövlətlərin daxili işlərinə qarışıb. Dövlət çevrilişləri həyata keçirib. Onların uğurlu, uğursuz olanları olub. Son belə cəhd Serbiyada baş verib. Serbiya Prezidenti Aleksandar Vuçiç xarici ölkələrin onu vəzifəsindən uzaqlaşdırmaq üçün, təxminən, 3 milyard avro ayırdığını bildirib. Vuçiç əlavə edib ki, Serbiyada “sülh aksiyaları”nı maliyyələşdirən təşkilatlar arasında ABŞ-ın qalmaqallı Beynəlxalq İnkişaf Agentliyinin (USAID) qrant ayırdığı fond da olub. Məsələn, “Trag” adlı fond 28 milyon avro alıb. “Siz heç onun haqqında eşitmisiniz?”, – deyə Vuçiç təəccübünü bildirib.

Vuçiçin sözlərinə görə, xarici dövlətlərin sərmayələri üç məqsədlə izah olunur: Serbiyanın libertarian siyasətini məhv etmək, onun mövqelərini Xorvatiya, Bolqarıstan və Sloveniyanın xeyrinə zəiflətmək, həmçinin Serbiya hakimiyyətini “kukla teatrındakı marionetə” çevirmək.

Onu da qeyd edək ki, USAID tərəfindən maliyyələşən bu cür layihələr yüzlərlədir. Nüfuzu ləkələnmiş USAID-in adı dəfələrlə qalmaqallarda hallanıb. Demokratlar Partiyasının hakimiyyəti dövründə avtonom şəkildə fəaliyyət göstərən və Ağ ev Administrasiyasına hesabat verməyən qurumu Tramp ölkə büdcəsindən əsassız olaraq böyük məbləğdə pulu “yeyən” struktur hesab edir. Bu səbəbdən də onun maliyyələşdirdiyi layihələri bir-birinin ardınca ləğv edir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

*GÜNÜN ARAŞDIRMASI*

# Kəndli də əti, yağı şəhərdən alırsa...

## *Adamlar tənbəlləşib, yoxsa şərait pisləşib?*

**Ötən şənbə qonşum Qismətlə rayon mərkəzinə gedirdim. Şəhərə çatanda soruşdu ki, kəndə tez qayıdacaqsan? Dedim ki, bəli, xəstəxanada yatan qohumuma baş çəkməliyəm. Bir də yüngül bazarlıq edəcəyəm. Qonşum isə dedi ki, mən əvvəlcə torpaq idarəsinə gedəcəyəm. Sonra da bazar-dükanda təmiz yağ axtaracağam...**

Hər ikimiz rayon mərkəzində çox yubanmadıq. Kəndə dönmək üçün vədələşdiyimiz yerdə görüşdük. Qonşum xeyli alış-veriş eləmişdi. Yolda soruşdum ki, nehrə yağı tapa bildin?

**Qismət dedi:**

– Yox. Bazarda dedilər ki, sabah gəl, bəlkə dağ kəndlərindən gətirən oldu. Qiyməti də 30 manatdan aşağı olmaz... Mən də əlacsız qalıb marketdən kilosu 26 manat olan yağdan aldım... Aparım, uşaqların anası əritsin, görək necə çıxacaq. Ət də aldım, yenə 1 manat bahalaşdırıblar. Qardaş, hər şeyin qiyməti qalxır. İndi gəl dolan!..

Sonra o, dərindən köks ötürdü.

### Vaxt var idi...

Cəfərli Ağsunun ucqar aran kəndidir. Böyük deyil – 120 ev ancaq olar. Bir vaxtlar ətrafdakı Küdrü düzündə onlarca qışlaq yerləri vardı. Payızın ilk leysanı düşəndən sonra tərəkəmələr qoyun sürülərini və naxırları yaylaqdan endirib bu geniş düzə gətirərdilər. Onda qoyun əti, yağ, pendir heç neçəyə idi. Bəzən yaylaqda tutulmuş motalı beş-on kilo arpaya, 5 ədəd küləş bağlamasına dəyişərdilər...

Kəndin özündə də hər ailənin, azı, 15-20 baş inək-camışı, 40-50 qoyunu olardı. Qadınlar əridilmiş yağ küpələrini sərin yerdə yan-yana düzərdilər. Süfrələrdən təmiz nehrə yağı, qaymaq, üzlü motal pendiri, cızdağ əskik olmazdı. Kim idi bazardan yağ alan? Dükanlarda satılan kərə yağını alıb yeməzdilər ki, xoş olmayan tam gəlir.

Gün əyiləndə çoban sürünün ağzını kəndə döndərərdi. Qabağa təkələr, qoçlar düşərdi. Sürünün bir başı kəndin ortasında olanda arxası kənddən xeyli aralı gələrdi...

Kəndin ətrafında geniş təbii otlaq sahələri vardı. Payız xoş gələndə həmin ərazilərdə ot tez göyərir, boy verərdi. Bununla yanaşı, taxılı biçilmiş ərazilərdə və pambıq yığımı başa çatmış sahələrdə də heyvanlar doyunca yem tapardılar. Bəzən mal-qara günlərlə elə o sahələrdə qalardı. Çünki kimsə kimsənin heyvanına göz dikməzdi.

Soyuqlar düşənə, çöldən əl-ayaq kəsilənə yaxın hər ailə, adətən, 2 cöngə və ya 2-3 qoç, toğlu satar, qış azuqəsini, qənd-çayını alıb yığardı evinə. Ümumiyyətlə, kəndlərdə ərzaq qıtlığı olmazdı...

### Bəs indi?

İndi vəziyyər başqadır, həyat, dolanışıq çox dəyişib. Kəndin müəyyən əraziləri və təbii otlaq sahələri ayrı-ayrı şirkətlər və pullu adamlar tərəfindən tutulub. Heyvan otarmağa, demək olar ki, örüş sahəsi qalmayıb. Heç bir təşkilat və yerli bələdiyyə bu problemi hələ ki, çözə bilmir. Buna görə də mal-qara, qoyun-quzu saxlamaq qat-qat çətinləşib.

Təbii biçənək olmadığına görə də əhali otu çox vaxt pulla almalı olur. Bir bağlama otu, orta hesabla, 3-5, küləşi isə 2 manata alırlar. İlbəil də qiymət qalxır. Heyvana ot və küləşlə yanaşı, arpa, qarışıq yem də vermək vacibdir ki, çəkisi yaxşı artsın. Bunları da hesablayanda görürsən ki, heyvandarlıq xeyir əvəzinə zərər gətirir. Hazırda kəndimizdə qoyunçuluqla iki-üç ailə məşğul olur. Bu sahədə təcrübəsi olanlar deyir ki, indi qoyun saxlamaq çox çətindir. Əsas səbəb də odur ki, kəndin örüşü yoxdur. Yem almaqla heyvan saxlamaq da səmərə vermir. Sonra da deyirlər ki, ətin qiyməti niyə qalxır? Digər tərəfdən, qoyun saxlayanın yaxşı köməyi olmalıdır. Cavanlar da məktəbi bitirən kimi şəhərə üz tuturlar. Çünki kəndlinin əməyi çox ucuzlaşıb. Bazarlarda kök atmış alverçilər məhsulu yetişdirəndən çox qazanırlar.

### “Darıxan evlər”

Kənddə indi xeyli ev-həyət boşdur. Yeri gəlmişkən deyim ki, respublikanın bir çox yaşayış məntəqələrində vəziyyət belədir. Ev-ailə qayğıları, dolanışıq çətinliyi cavanlarımızı doğma el-obasından didərgin salıb. Bir tərəfdən yaxşıdır ki, onlar nə qədər çətin olsa da, az-çox qazanır, özlərinə ev alır, güzəran qurur, iş yeri açırlar. Amma o da var ki, subaylarımızın xeyli hissəsi oralarda ailə qurur, illər ötdükcə doğma yurdu, ata-analarını unudurlar. Bax, bu, çox ağrılı söhbətdir.

Boş qalmış evlərin sahiblərinin çoxu Sumqayıtda yaşayırlar. Kişilər Rusiyada pul qazanır, qadınlar uşaqlara baxırlar. Onlar arabir kəndə xeyirə-şərə gəlirlər.



Bu həyətyanı sahələr quruyub, evlər qurd-quş yuvasına dönüb. Hətta bəzi evlər, belə demək olarsa, “darıxdığından”, insan hənirinə həsrət qaldığından bir neçə yerdən çat verib. Bu həyətlərə baxdıqca, adamın qapı-bacaya yazığı gəlir. Daş da ayrılığa dözməzmiş...

### Narçılıq ilbəil genişləndirilir

Bu yerlərin torpağı, əsasən, şorəkətdir. Bu səbəbdən taxıl əkini sahələrindən yüksək məhsul götürmək çətindir. Bunun üçün meliorasiya tədbirlərinin aparılması çox vacibdir. Lakin bu, çoxlu vəsait tələb edir. Sovet dönəmində qazılmış şor kanalların yarıdan çoxu dolub və qamışlığa çevrilib. Torpaqda olan şorluğun yuyulması üçün, təxminən, 50 il əvvəl qazılmış drenajlar da sıradan çıxıb. Bu səbəbdən güclü yağışlardan sonra nəinki əkin sahələri, hətta həyətyanı sahələr gölməçələrə çevrilir.

Qrunt suyunun yüksəlməsi isə əkinçiliyə ciddi ziyan vurur. Bunu nəzərə alan əhali taxıl əkini sahələrini getdikcə azaldır. Çünki hektardan çox zaman 10-12 sentner əldə olunması o məhsulun heç maya dəyərini ödəmir. Axı şum, malalama, səpin və biçin də pulla aparılır. Hökumət də hər hektara görə əkinçiyə verdiyi subsidiyanı, belə demək olarsa, gübrə satışında onun əlindən alır. Yəni gübrələr çox bahadır.

İllər əvvəl bu kənddə əhali heyvandarlıqla yanaşı, bostançılıqla da məşğul olur, hər mövsümdə yaxşı qazanc əldə edirdi. Bir gündə şəhər bazarlarına, azı, 20-25 ton bostan məhsulları yola salınırdı. Amma son illər bostançılıq da səmərə vermir.

Hazırda kənddə hər kəs həm həyətyanı sahəsində, həm də pay torpağında nar yetişdirir. Məhsulun çoxu Rusiya bazarlarına yola salınır. Yay aylarında bəzən su qıtlığı yarandığından bağbanlar damcı ilə suvarmaya üstünlük verirlər.

Bu sistemin tətbiqi digər aqrotexniki tədbirlərin də keyfiyyətlə aparılmasına şərait yaradır. Bu il cəfərlilər 30 hektardan çox sahəyə yeni nar tingləri basdırıblar. Hazırda bu tədbir davam etdirilir.

Bütün çətinliklərə baxmayaraq, kənd əhalisi sabaha ümidlə baxır.

***Səməd MƏLİKZADƏ***

**Ağsu rayonu**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 45 (30739) 28 fevral 2025-ci il, cümə

İdman

## BOK prezidenti istefa verib



**Beynəlxalq Olimpiya Komitəsinin (BOK) İcraiyyə Şurası qurumun prezidenti Tomas Baxın istefasını qəbul edib.**

Bu barədə BOK-un rəsmi saytı məlumat yayıb. Qərar iyunun 23-də bütün səlahiyyətlər yeni rəhbərə verildikdən sonra qüvvəyə minəcək. Tomas Bax bundan əvvəl Beynəlxalq Olimpiya Komitəsinin prezidenti vəzifəsinə növbəti seçkidə iştirak etməyəcəyini bildirmişdi. Seçkilər bu ilin martında BOK-un Yunanıstanda təşkil ediləcək sessiyasında keçiriləcək.

Qeyd edək ki, Tomas Bax 1991-ci ildə BOK-un, 1996-cı ildə isə BOK İcra Şurasının üzvü seçilib. 2013-cü ildən BOK-un prezidenti vəzifəsində çalışırdı. O, qılıncoynatmanın rapira növü üzrə komanda yarışlarında 1976-cı il Yay Olimpiya Oyunlarının və 1977-ci il Dünya çempionatının qalibi olub.

## Roma turnirində 16 mükafat



**Azərbaycan komandası İtaliyanın paytaxtı Romada keçirilmiş ciu-citsu üzrə "Grand Slam Roma 2025" turnirində 5-i qızıl, 7-si gümüş, 4-ü isə bürünc olmaqla 16 medal qazanıb.**

Yapon Döyüş Növləri və Mədəniyyəti Assosiasiyasından verilən məlumata görə, Ayaz Süleymanov, Mark Simvol, Həsən Nəsirzadə, Maksud Hacıyev və Samir Mirzəyev qızıl medal qazanıblar. Ramil Muradov, Tamerlan Meyralıyev, Nağı Nağızadə, Rafiq Mehdiyev, Timur Simvol, Müslüm Əliyev və Murad İsmiyev yarışda 2-ci yeri tutublar. Emin Əsədov, Dmitri Sivov, Cavidan Meyralıyev və Bağır Əliyev isə bürünc medala yiyələniblər.

## Uqandada isə 6 medal




**Gənc badmintonçularımız Uqandanın paytaxtı Kampala şəhərində keçirilən "Junior Future" seriyalı beynəlxalq turnirdə 2 gümüş və 4 bürünc medal qazanıblar.**

19 yaşadək badmintonçular arasında keçirilən turnirdə Ülvi Hüseynov oğlanların şəxsi yarışında bürünc medala sahib olub. Qızların şəxsi kateqoriyasında finala kimi irəliləyən Həcər Nuriyeva turnirdə 2-ci yeri tutub.

Daha 4 medal qoşa kateqoriyalarda qazanılıb. Qarışıq qoşa kateqoriyasında Əmirxan İmanov – Həcər Nuriyeva və Ülvi Hüseynov – Leyla Camalzadə tandemi "Uganda Junior International 2025" turnirində bürünc medal qazanıb. Oğlanların qoşa kateqoriyasında Ülvi Hüseynov və Əmirxan İmanov yarımfinala yüksələrək bürünc medalı təmin ediblər. Qızların qoşa yarışında isə Leyla Camalzadə – Həcər Nuriyeva qoşası gümüş medala yiyələnib.

Daha bir badmintonçumuz Diki Pangestu isə "Uganda International Challenge 2025" turnirində şəxsi kateqoriyada gümüş medal qazanıb.

*L.AZAD*
*XQ*

*İdman tariximizdən*

# İlk Olimpiya fatehimiz

**Bu gün Azərbaycan idman tarixində ilk Olimpiya mükafatçısı Rəşid Məmmədbəyovun doğum günüdür. Onun "Helsinki-1952"-də qazandığı gümüş medal ilk uğur kimi Olimpiya tariximizə qızıl hərflərlə həkk olunub.**

Rəşid Məmmədbəyov 1927-ci il fevralın 28-də Bakının Şağan kəndində anadan olub. SSRİ çempionu və mükafatçıları İbrahimpaşa Dadaşov, Musa Babayev, Muxtar Dadaşov kimi adlı-sanlı güləşçilər yetişdirmiş Rza Baxşəliyev onun da ilk məşqçisi olub. 1942-ci ildən Rza Baxşəliyevin rəhbərliyi altında "İskra" cəmiyyətində sərbəst güləş bölməsində məşğul olmağa başlayan R.Məmmədbəyov 1943–1945-ci illərdə Bakı, daha sonra respublika çempionu olub. 1947–1949-cu illərdə SSRİ çempionatlarında gümüş və bürünc mükafatlar qazanıb.




### Qələbəyə doğru 32 saniyəlik döyüş

1952-ci ildə SSRİ ilk dəfə Olimpiya oyunlarına qatılanda komandanın tərkibində azərbaycanlı güləşçi Rəşid Məmmədbəyov da yer almışdı. İstedadlı pəhləvana böyük ümidlər bəslənirdi. Olimpiadanın sərbəst güləş yarışları iyulun 20-23-də Messuxolli sərgi salonunda keçirilirdi. Helsinki Oyunlarında 57 kiloqram çəki dərəcəsində 20 ölkənin pəhləvanı çıxış edirdi. 25 yaşlı güləşçimizin ilk rəqibi iranlı Mohamed Mehdi Yəqubi dünyanın ən güclü güləşçilərindən sayılırdı. O, Olimpiya Oyunlarından 1 il qabaq elə Helsinkidə keçirilmiş dünya çempionatının qalibi olmuşdu. Amma xalça üzərinə çıxan azərbaycanlı idmançı cəmi 32 saniyə ərzində rəqibini məğlub edib. Bu qarşılaşma böyük rezonans doğurub. Olimpiya Oyunlarından sonra verilən şərhlərin birində deyilirdi ki, hakim hələ yenicə oyunun başlanğıcını təqdim etməyə başlamışdı ki, Rəşid Məmmədbəyov iranlı rəqibinə gözünü qırpmağa macal verməyərək parlaq qələbə qazanıb. Məhz bu nailiyyət pəhləvanımıza növbəti qarşılaşmalarda inamla döyüşmək üçün mühüm stimul verirdi.

### Olimpiadanın gümüş mükafatçısı

İkinci dövrədə Məmmədbəyov İsveçrə nümayəndəsi Paul Henni ilə qarşılaşmalı olsa da, rəqibi zədə səbəbindən döyüşdən imtina edib. Amerika Birləşmiş Ştatlarının nümayəndəsi Bill Borderslə də bütün görüş ərzində üstünlüyünü qoruyan Azərbaycan güləşçisi 11-ci dəqiqədə təmiz qələbə qazanaraq növbəti mərhələyə adlayıb. Macarıstanlı Layoş Bentse də Rəşidin yüksək texnikası qarşısında davam gətirməyərək məğlub olub. Yarımfinalda isə Rəşid Məmmədbəyov hindistanlı Xa-Şaba Yadav üzərində xal hesabı ilə qələbə qazanaraq finala çıxıb. Həlledici mərhələdə Rəşid yaponiyalı Soxati İşil ilə görüşüb. Rəqib xal hesabı ilə qalib gələrək Olimpiya çempionu adını qazanıb. Rəşid Məmmədbəyov isə Olimpiadanın gümüş mükafatı ilə kifayətlənib.

Olimpiya Oyunlarında parlaq çıxışından sonra güləşçi SSRİ miqyaslı müxtəlif yarışlarda uğurla çıxış edərək medallar qazanıb. O, 1970-ci ildə 43 yaşında vəfat edib.

### Rəşid Məmmədbəyov iftixarla anılır

Olimpiya tarixində ilk mükafata sahib olan dünya şöhrətli pəhləvanın qazandığı möhtəşəm uğur uzun illər idmançılarımız üçün böyük stimul olub. Bu gün böyük qürurla deyə bilərik ki, müstəqil ölkə kimi Olimpiya Oyunlarında yüksək səviyyədə təmsil olunan Azərbaycan idmançıları böyük nailiyyətlər qazanırlar. R.Məmmədbəyov Azərbaycan Olimpiya Hərəkatının öncüllərindən biri kimi dünyaya səs salıb.

Olimpiadalarda medallarımızın hesabını açan Rəşid Məmmədbəyovu güləşsevərlər, idman ictimaiyyəti, eləcə də, xalqımız böyük minnətdarlıq və iftixarla anır, onunla fəxr edir. Olimpiya mükafatçısının xatirəsinə həsr edilmiş turnirlərdə gənc nəslin nümayəndələri böyük əzmkarlıqla mübarizə aparır, qalib olmağa can atırlar. Onlar Olimpiya zirvəsinə gedən yolda öz uğurları ilə cığır açan Azərbaycanın məşhur pəhləvanı kimi ad-san qazanmaq istəyirlər.

*Leyla QURBANOVA*
*XQ*

## Türk xalqları ortaq dəyərlərə doğru

***Beynəlxalq Türk Akademiyasının prezidenti akademik Şahin Mustafayev Ankarada Türkiyə Ali Təhsil Şurasının sədri Erol Özvar ilə görüşüb.***



Görüş zamanı tərəflər Türk Akademiyası ilə Türkiyədəki təhsil müəssisələri arasında elmi əməkdaşlıq imkanlarını və türk xalqlarının ortaq mədəni irsinin təbliği məsələsini müzakirə ediblər. Akademik Şahin Mustafayev türkologiya elminin inkişafı və Türk dünyasında elmi birliklərin inteqrasiyasının gücləndirilməsinə yönəlmiş əsas təşəbbüslər barədə məlumat verib.

Erol Özvar akademiyanın fəaliyyətini yüksək qiymətləndirib və akademik əməkdaşlığın genişləndirilməsi səylərini dəstəkləyib.

*Qabil YUSİFOĞLU*
*XQ*

## Konfutsi İnstitutunda Çin təqvimi

**Azərbaycan Dillər Universitetinin Konfutsi İnstitutunda Çin kənd təsərrüfatı təqviminə əsasən, "yuyşuy" (yağış suyu) mövsümünün başlanması ilə bağlı toplantı keçirilib.**




Toplantıda Konfutsi İnstitutunun direktoru Rafiq Abbasov yağıntılar dövrünün başlandığını əks etdirən və qədim Çin əkinçilik mədəniyyətinin mövsümiliyini təcəssüm etdirən dörd "kiçik" fasilədən biri olan "yuyşuy" mövsümünün əhəmiyyətindən danışıb.

Qeyd edib ki, Çinin günəş kənd təsərrüfatı təqvimi qədim çinlilərin əkinçilik mövsümlərinə uyğun formalaşdırdıqları biliklər sisteminə, mövsümi iqlim dəyişikliyi və təbiət qanunlarına əsaslanır.




Sonda qeyd edək ki, bu bayram günlərində çinlilər sağlamlıq və rifah üçün dua edir, ailə qurmuş qızlar isə valideynlərlə görüşmək üçün ata evinə qonaq gəlirlər.

*XQ*

## Uşaq teatrı Vurğun ocağında



**Xalq şairi Səməd Vurğunun Ev-muzeyində "Günay" Uşaq və Gənclər Teatrının təqdimatında tanınmış şairə, publisist Zərəngiz Dəmirçi Qayalının "Cavab ver" poeması əsasında "Unutmadıq" adlı tamaşa təqdim olunub.**

Muzeydən bildirilib ki, tamaşa Xocalı soyqırımının 33-cü ildönümünə həsr edilib. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib və soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Tamaşanın ssenari müəllifi və rejissoru teatrın bədii rəhbəri Larisa Tarusovadır. Sonda xalq şairləri Məmməd Arazın "Vətən", Nəbi Xəzrinin "Azərbaycan" şeirləri səsləndirilib.

*XQ*

HAVA

## Yenə qar yağacaq



**Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraiti dəyişkən buludlu olacaq. Havanın arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhərdən bəzi yerlərdə sulu qar, qar yağacağı gözlənilir. Mülayim şimal-qərb küləyi gündüz yarımadanın bəzi yerlərində arabir güclənəcək.**

Havanın temperaturu gecə 1-4° şaxta, gündüz 1° şaxtadan 2°-dək isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 767 mm civə sütunu olacaq. Nisbi rütubət 70-80 faiz olacaq. Gecə və səhər bəzi yollar buz bağlayacaq.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin bəzi şərq rayonlarında arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi gündüz bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 1-6° şaxta, gündüz 5-10° isti, dağlarda gecə 10-15° şaxta, yüksək dağlıq ərazilərdə 17-22° şaxta, gündüz 0-5° şaxta olacaq. Bəzi yollar buz bağlayacaq.

*Q.QASIMOV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Şirvan şəhərindən İlqar Abbasov Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin rəis müavini, ədliyyə general-mayoru Orxan Qasımova oğlu

AYXAN QASIMOVUN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şirvan şəhərindən İlqar Abbasov Arif Qaraşova əzizi

AYXAN QASIMOVUN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3267
SİFARİŞ 429
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır 00:00